Bu bir xalq qəzetidi
ƏDALƏT

## Quru Qoşunlarında döyüş atışlı taktiki təlimlər keçirilib



**Cari ilin döyüş hazırlığı planına uyğun olaraq Quru Qoşunlarının motoatıcı bölmələrində döyüş atışlı taktiki təlimlər keçirilib.**

Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib.

Təlimlərə cəlb olunan bölmələr praktiki fəaliyyətləri yerinə yetiriblər. Bölmələr döyüş texnikası üzərində müxtəlif irəliləmə üsullarını məşq etdiriblər və təyin olunmuş marşrutla hərəkət edərək şərti düşmən mövqelərinə yaxınlaşmaq, eləcə də aşkar olunan hədəflərin məhv edilməsi üzrə tapşırıqları uğurla yerinə yetiriblər.

**Vətən müharibəsində və müasir döyüş əməliyyatlarında qazanılan təcrübələr nəzərə alınmaqla keçirilən təlimlərin əsas məqsədi motoatıcı bölmələrin döyüş qabiliyyətinin daha da yüksəldilməsi, o cümlədən şəxsi heyətin səhra və praktiki vərdişlərinin inkişaf etdirilməsidir.**

## *Eldar Əzizov bəzi icra başçılarına xəbərdarlıq etdi*



**Bakı Şəhər İcra Hakimiyyətində paytaxt rayonlarının icra hakimiyyəti başçıları və müvafiq təsərrüfat strukturları rəhbərlərinin iştirakı ilə qış zamanı güclü qar yağmasına hazırlığın vəziyyəti, paytaxt rayonlarında qanunsuz tikinti və küçə ticarətinə qarşı aparılan tədbirlərə həsr edilən müşavirə keçirilib.**

Bakı Şəhər İcra Hakimiyyətinin mətbuat xidmətindən Adalet.az-a verilən məlumata görə müşavirədə çıxış edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, son günlərdə ölkənin dağ rayonlarına əvvəlki illərlə müqayisədə daha çox qar yağması qışın sərt və yağmurlu keçəcəyindən xəbər verir.

Bununla əlaqədar rayon İcra Hakimiyyətləri, kommunal və təsərrüfat xidmətlərinə müvafiq hazırlıq tədbirləri görmələri, qışa hazırlıqla bağlı yaradılan qərargahların və aidiyyəti təşkilatların əməkdaşlarının iştirakı ilə treninqlərin keçirilməsi tapşırılıb.

Həmçinin Bakı Şəhər İcra Hakimiyyəti İdarə, təşkilat və özəl qurumlar, o cümlədən ictimai iaşə müəssisələrinin rəhbərlərinə, ictimaiyyətə və Bakı sakinlərinə müraciət edərək qarlı günlərdə təmizlik işlərində fəal olmağa, Avropa ölkələrində də qəbul edilən qaydalara uyğun özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştirak etməyə çağırıb.

**Müşavirədə paytaxt rayonlarında qanunsuz tikinti və küçə ticarəti ilə bağlı vəziyyət müzakirə edilib, qeyd edilib ki, son 6 ay ərzində bu hallar 2,5 dəfə azalsa da, yenə də bəzi rayonlarda yer almaqdadır. Toplantıda neqativ halların daha çox qeydə alındığı rayonların İcra Hakimiyyəti başçılarına əraziyə zəif nəzarət və çatışmazlıqlara görə ciddi xəbərdarlıq edilib. Onların nəzərinə çatdırılıb ki, rayon ərazisində baş verən bütün qanunsuzluqlara şəxsən cavabdehlik və məsuliyyət daşıyırlar.**

## TƏƏSSÜF Kİ, ÖLÜM HÖKMÜ LƏĞV OLUNUB!

**Əməkdaşımız DTX-nin keçirdiyi əməliyyat nəticəsində İrana casusluqda ittiham edilərək həbs olunanlarla bağlı millət vəkili Aqil Abbasdan açıqlama alıb.**

Aqil Abbas deyib:

"Azərbaycanda ölüm hökmü ləğv olunub, bu, təqdirəlayiq haldır. Allah verdiyi canı Allah ala bilər.

Amma indi təəssüflənməyə bilmirsən. Elə cinayət var ki, onun cəzası ölüm hökmüdü. Bir kəs dövlətinə xəyanət edirsə, dövlətinə qarşı casusluq edirsə, dövlətin sirlərini düşmən ölkəyə satırsa, onun bir cəzası var - o da ölüm hökmüdü! İndi ölüm hökmü ləğv olunub. Təəssüf ki, dövlətə xəyanət edənləri güllələmək olmaz. Amma onlara ömürlük həbs cəzası verib təkadamlıq kamerada çürütmək olar.

Və yeri gəlmişkən, Dövlət Təhlükəsizlik Xidmətinin rəhbərinə və əməkdaşlarına son zamanlar apardığı uğurlu əməliyyatlara görə təşəkkür edirəm".

## QUM TƏHSİLLİ NİYƏ GƏMİ KAPİTANI OLUB?



*Neçə gündür sosial şəbəkələrdə bu müzakirə mövzusuna çevrilib. Amma burda müzakirə olunası məsələ yoxdu. Yadınıza düşürsə, deyəsən, iki il bundan əvvəl ya Qafqaz Müsəlmanları İdarəsi, ya da Dini Komitə, ya da ikisi bir yerdə belə bir qərar verdilər ki, Azərbaycandan kənarda dini təhsil alanlar axund ola bilməzlər və rəsmi mollalıq edə bilməzlər. Amma o qərarda yazılmayıb ki, gəmi kapitanı işləyə bilməzlər. Zahir Əsgərov da görüb diplomu batır, gedib gəmi kapitanı olub. Görünür ki, Qumda onu "verbovat" eləyənlərin əli uzundu və gəlib Xəzər Dəniz Neft Donanmasına da çatıb. Hər halda DTX bu əlləri kəsməyə qadirdi və kəsəcək. Bu xəmir hələ çox su aparacaq.*

## *Vilayət Eyvazov Sergey Diyakonu qəbul etdi*



**Moldova Azərbaycan Daxili İşlər Nazirliyinin (DİN) cinayətkarlıqla mübarizə və ictimai asayişin təmini sahəsində təcrübəsini öyrənmək istəyir.**

Adalet.az xəbər evrir ki, bu barədə Moldovanın Daxili İşlər Nazirliyinin Baş katibi Sergey Diyakonu Bakıda Azərbaycanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun qəbulunda olarkən bildirib. V.Eyvazov Moldova ilə Azərbaycan arasında əlaqələrin və qarşılıqlı münasibətlərin getdikcə daha da dərinləşdiyini məmnunluqla vurğulayıb. Azərbaycan Respublikasının son illərdəki sürətli inkişafını şərtləndirən əsas amillərdən olan sabitliyin yaradıldığını, onun dönməzliyinin təmin olunduğunu qeyd edən nazir bildirib ki, kriminogen durumun tam nəzarətə götürülməsi, sabitliyin bərpası ilk növbədə vətəndaşlarımızın, həmçinin də əcnəbilərin respublikamızda təhlükəsiz, əminamanlıq şəraitində yaşayıb fəaliyyət göstərmələri üçün əlverişli mühit formalaşıb.Nazir qeyd edib ki, Azərbaycanın Daxili İşlər Nazirliyi Moldovanın hüquq-mühafizə orqanları, o cümlədən Daxili İşlər Nazirliyi ilə münasibətlərin istər ikitərəfli, istərsə də çoxtərəfli formatda inkişaf etdirilməsinə böyük önəm verir. Bu əlaqələrin normativ-hüquqi bazası ilk növbədə qarşılıqlı hüquqi yardım göstərilməsi, təcrübə mübadiləsi və dövlətlərarası müqavilələrə əsaslanır.

Sergey Diyakonu belə səfərlərin iki ölkənin Daxili İşlər nazirlikləri arasında əməkdaşlığın daha da genişləndirilməsinə yeni təkan verəcəyinə əminliyini, Moldova DİN-in də bu istiqamətdə öz səylərini əsirgəməyəcəyini, azərbaycanlı həmkarlarının cinayətkarlıqla mübarizə, ictimai asayişin təmini sahəsində əldə etdikləri müsbət təcrübənin öyrənilməsində maraqlı olduqlarını bildirib.

Görüşdə əməkdaşlığın prioritet istiqamətləri və perspektivləri, narkotiklərin qanunsuz dövriyəsi, habelə transmilli mütəşəkkil cinayətkarlığın digər növləri ilə mübarizə, informasiya mübadiləsinin intensivləşdirilməsi, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə edilib.

Qəbulda Azərbaycanın Moldovadakı səfiri Qüdsi Osmanov da iştirak edib.

Səfər çərçivəsində S.Diyakonu DİN-in "102-Zəng Mərkəzi"nə, "Təhlükəsiz şəhər" Xidmətinə və Əlahiddə Çevik Polis Alayına gedərək həmin qurumların fəaliyyətləri ilə yaxından tanış olub.

Bu bir xalq qəzetidi
www.adalet.az
ƏDALƏT
Qurucusu: Adil Minbaşıyev
Gündəlik hüquq qəzeti
Qəzet 1990-cı ilin iyulundan çıxır
№ 50 (5987) 19 noyabr 2022-ci il
Qiyməti 30 qəpik



**XAMENEİ, AFTAFANI GÖTÜR QAÇ, AT BASDI MİLLƏT GƏLİR...**

# Erməni təxribatının qarşısı alındı



**"Ağdam və Xocalıda qanunsuz erməni silahlı birləşmələrinin fəaliyyətlərinin qarşısı alınıb".**

**Bu barədə Adalet.az-a Müdafiə Nazirliyindən bildirilib.**

**Məlumata görə, noyabrın 17-si saat 09:55-dən 14:45-dək Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı birləşmələrinin üzvlərinin Ağdam və Xocalı rayonları ərazilərində döyüş mövqelərinin möhkəmləndirilməsi məqsədilə mühəndis tədbirləri icra etmələri Ordumuzun bölmələri tərəfindən müşahidə edilib. Bu kimi fəaliyyətlər Azərbaycan Respublikası, Rusiya Federasiyası Prezidentləri və Ermənistan baş nazirinin 10 noyabr 2020-ci ildə imzaladıqları üçtərəfli bəyanatın tələblərinin kobud şəkildə pozulmasıdır.**

**Vurğulanıb ki, həyata keçirilən qanunsuz fəaliyyətlərin qarşısının alınması məqsədilə Ordumuzun bölmələri tərəfindən zəruri tədbirlər görülüb.**

## Dövlət Departamenti: ABŞ Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətlə yanaşır



**ABŞ Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə hörmətlə yanaşır.**

Bunu ABŞ Dövlət Departamentinin nümayəndəsi Cameron Millard noyabrın 18-də Milli Məclisdə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidovla keçirilən görüşdə deyib.

Qonaq iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıb. Bildirilib ki, Azərbaycan Vətən müharibəsində əldə etdiyi Zəfərdən sonra regionda yeni reallıq yaradıb və yeni təşəbbüslərlə çıxış edir.

Söhbətdə qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə ABŞ-ın Azərbaycandakı səfirliyinin nümayəndələri - Siyasi işlər şöbəsinin rəhbəri Mihail Seroka və Siyasi işlər üzrə müşavir Brett Dvorak iştirak ediblər.

## ON İLLİK PLANI ÜÇ İLDƏ



**Bizim ölkə təkcə neft, qaz, pambıq, üzüm istehsal etmir, həm də trol istehsal edir. Əvvəllər beşillik plan olurdu, biz də onu üç ildə yerinə yetirib bayram edərdik. Amma indi trol istehsalı üzrə onillik planı üç ildə yerinə yetirmişik.**

*Əbülfət MƏDƏTOĞLU*

## Yaddaşımda xoş təəssüratı qalan prokuror

Bax: səh.5



**YENƏ BU TIXACDA ÜZ-ÜZƏ GƏLDİK
NEYLƏYƏK, AYRI BİR ŞƏHƏRİMİZ YOX
ÖMRÜMÜZ ÇÜRÜDÜ PROBKALARDA
BU PROBKALARDAN ÇIXACAĞIMIZ YOX.**

Aqil ABBAS
aqilabbas@rambler.ru



## HARDASAN, AY ABDULLA ÇATLI, GORUN ÇATLASIN...

*İstanbulda İstiqlal küçəsində törədilmiş terror aktında 6 nəfər həlak olub, 80 nəfərə yaxın insan yaralanıb. Əvvəl-əvvəl terroru ermənilərin ASALA təşkilatı boynuna götürüb, hələ bir Bakını da hədələdi. Lakin Türkiyənin daxili işlər naziri Süleyman Soylu açıqlama verdi və bildirdi ki, terroru törədən şəxs tutulub və bu vəhşilikdə PKK-nın əli var. Özü də Suriyadan Yunanıstana - Afinaya keçib, Afinadan da İstanbula. Yəni onu da bildirdi ki, bu işdə kimin əli varsa cavablarını alacaqlar.*

*İndi gələk ASALA-ya. Qaraçı filan yerini tərifləyən kimi, ASALA da bu terrordan yararlanmaq istədi və özünə piar düzəltməyə çalışdı. ASALA terror təşkilatı rəhmətlik Abdulla Çatlı tərəfindən darmadağın edilmişdi. Və onun Parisdəki iqamətgahı da Çatlı tərəfindən partladılmışdı. Bununla da ASALA demək olar ki, məhv oldu. Bir az tör-töküntüləri qalıb onların da əksəriyyətini müzəffər ordumuz 44 günlük müharibədə itin qılçına soxdu.*

Bax:səh-2

## DEDİM Kİ, SİZ DƏ BİLƏSİZ

**Şəhid anası Maya Quliyeva sosial şəbəkədə olmuş bir hadisəni paylaşıb, maraqlı anekdotdu. Ən maraqlısı da odur ki, olmuş hadisədi.**

"Deməli, rayonda hörməti olan, amma fikirləri və ideologiyası müxalif olan şəxs bir yaxınının işinə görə polis rəisi müavininin yanına xahişə gedir. Rəis müavini Nuh deyir, peyğəmbər demir.

Hörmətli şəxs deyir:

**- Rəis, etmə, eləmə, sənin də mənə işin düşər.**

Rəis müavini deyir:

**- Nə danışırsan, sən hara, sənə işim düşmək hara?- və bildiyini edir.**

Vaxt, vədə gəlir, müavinin atası dünyasını dəyişir.

**"Qisas gününü" gözləyən müxalifətçi adam götürür ölkənin bərk gedən qəzetlərinin birində, üzvü olduğu müxalif partiyanın rəhbərinin adından bir başsağlığı elanı yazdırır... Pah... Meyit qalır ortada, müavin hər tərəfdə müxalifətçi dayını axtarır".**



*Məmməd Araz*

### KÖRPÜLƏNİN, AY TÜRKLƏR, AZƏRBAYCANI QOYMAYIN TƏKLƏNƏ

*Təklikdə çaylaq daşıyam,
Məni qoymayın təklənəm!
Əl dəydi, çaxmaq daşıyam!
Məni qoymayın təklənəm!*

*Bir dəryadır hər zərrəcik,
Dəm zərrəcik, dərd zərrəcik,
Namərdə də mərd zərrəcik
Dəni qoymayın təklənə!*

*Dağsız duman yalnız ahdı,
Qara bulud yalqız axdı.
Çən təkləndi - yalquzaqdı,
Çəni qoymayın təklənə!*

*Xəlbirlənə kaş ömür də,
Boş il düşə boş ömürdən...
Xoş an qalar xoş ömürdən,
Anı qoymayın təklənə!*

*Yaman çoxalıb bu azlar,
Bu kəndirsiz kəndirbazlar!
Körpülənin, ay Arazlar,
Məni qoymayın təklənəm!*

*Dekabr, 1980*

İradə TUNCAY
iradetuncay@rambler.ru

## Dreyfus(un) işi



**Birinci Dünya Müharibəsində həlak olanların abidəsi. Strasburq, Elzas bölgəsi həmin müharibənin tam mərkəzində olub, qaynar nöqtəsi sayılıb. Həm almanlar, həm fransızlar tərəfindən savaşmağa məcbur olublar. Və 1936-cı ildə şəhər idarəçiləri əhaliyə müraciət edərək yardım istəyiblər memorialın hazırlanmasına. İanə yığılıb müharibədə əzizlərini itirən insanlardan. 50 frankdan tutmuş 50000 franka qədər pul verən olub. Sonradan bu siyahını dərc edirlər.**

**”Canından keçənlərimiz” yazılıb monumentin üstündə... Ana can verən iki oğlunu bağrına basıb. Biri fransız, biri almandı övladları. Hər ikisi uniformasızdı, fərqlənməsinlər deyə. Əl-ələ verib ölürlər - biri Fransa, biri Almaniya tərəfə baxır.Uğrunda öldükləri torpaqlara. Ana isə öz dərdini belə bölüşür insanlarla. Kilsə ikonoqrafiyasında rast gəlinən ağı - pieta janrı. Məryəm ananın iki oğlu var burda. Fərq eləmir, müharibələrdə saysız-hesabsız analar və oğullar olub. Bu ağı onların hamısına deyilir...**

Bax: səh.3

## GÜNÜN LƏTİFƏSİ



Zakir Fəxrini 15 sutka həbs edirlər. Kamera olanlardan biri soruşur ki, ”səni nə üstə həbs ediblər?”

Zakir Fəxri:

**- Qu quşlarına çörək atdığıma görə.**

Kamera yoldaşı təəcüblə:

**- Quşlara çörək atmağa görə də adamı həbs edərlər?**

Zakir Fəxri:

**- Əşi mən Opera Balet teatrında ”Qu gölü” baletindəki quşlara çörək atırdım.**

# İlham Əliyevin Rusiya Federasiyası Hökumətinin sədri ilə geniş tərkibdə görüşü olub



**Noyabrın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustin ilə geniş tərkibdə görüşü olub.**

Adalet.az xəbər verir ki, əvvəlcə Azərbaycan Prezidenti İlham Əliyev və Rusiya Hökumətinin sədri Mixail Mişustin rəsmi foto çəkdirdilər.

Görüş iştirakçılarını salamlayan Azərbaycan Prezidenti İlham Əliyev dedi:

- Hörmətli Mixail Vladimiroviç, hörmətli qonaqlar. Sizi Azərbaycanda salamlamağa çox şadam. Biz sizinlə bu ilin əvvəlində görüşdük və sizin səfəriniz barədə razılığa gəldik. Çox şadam ki, Azərbaycana səfər etməyə vaxt tapmısınız. Bilirəm ki, dünən bizim Baş nazirlə görüşünüz olub. Bildiyimə görə, qarşılıqlı fəaliyyətimizə dair mühüm məsələlərin çox geniş spektrini müzakirə etmisiniz. Bu ilin əvvəlindən Prezident Vladimir Vladimiroviç Putin ilə biz münasibətlərimizə yaxşı ton, yeni dinamika verdik və il ərzində dəfələrlə görüşdük.

Dünən də ikitərəfli gündəliyə aid mühüm məsələlər barədə telefonla danışmaq imkanımız olub. Beləliklə, necə deyərlər, prezidentlər münasibətlərimizin bütün spektrini müəyyən edir. Əlbəttə, bütün müvafiq strukturlar da bu istiqamətdə fəaliyyət göstərir. Biz çox şadıq ki, qarşılıqlı ticarətin həcmi pandemiyadan əvvəlki səviyyəyə çatır və əminəm ki, bu dinamizm qorunub saxlanacaq. Ona görə ki, bu gün, o cümlədən sizin səfəriniz çərçivəsində müzakirələr qarşılıqlı ticarət potensialını artırmağa şərait yaradacaq.

Biz yükdaşımaların həcmində də yaxşı dinamika görürük. Tranzit yüklərə gəldikdə isə, mənim fikrimcə, burada rekord göstəricilərə nail oluruq. Təqribən 50-60 faiz artım var və artım perspektivi böyükdür. Həmçinin tranzit-logistika infrastrukturu məsələsində, ilk növbədə, ikitərəfli əsasda və əlbəttə, qonşu ölkələr də cəlb edilməklə qarşılıqlı əməkdaşlıq potensialını artıracağıq. Ona görə ki, Rusiya və Azərbaycan uzun illər boyu ölkələrimizdə nəqliyyat-logistika infrastrukturuna fəal surətdə sərmayə qoyublar. Nəqliyyat dəhlizlərinin, ilk növbədə, Şimal-Cənub dəhlizinin potensialının artırılması bu layihədə iştirak edən bütün ölkələrin maraqlarına uyğun olacaq, o cümlədən biznes üçün əlavə perspektivlər açacaq.

Sizin səfəriniz ərəfəsində mən bəzi statistik məlumatlara baxmışam. Sevindim ki, aviareyslərin sayı sürətlə artır. Həftədə 130-dan çox reys var, yəni, biz praktiki olaraq ən yüksək göstəriciyə nail olmuşuq və Rusiyadan turist axını da artır. Bu il təqribən 80 faiz artım olub. Əlbəttə, pandemiya ilə əlaqədar bu göstərici azalmışdı.

Biz hələ pandemiyadan əvvəlki səviyyəyə çatmamışıq, lakin fikrimcə, çatacağıq. Ölkələrimiz arasında sıx dostluq əlaqələrini, bu il Müttəfiqlik Qarşılıqlı Fəaliyyəti barədə Bəyannamə imzalanmasını və il ərzində münasibətlərimizin müttəfiqlik xarakterini dəfələrlə nümayiş etdirməyimizi, iqtisadi-ticari əməkdaşlığın gündəliyini xeyli genişləndirmək niyyətində olmağımızı nəzərə alaraq, düşünürəm ki, reyslərin sayı da artacaq. Bilirəm ki, dünən regionlararası forum uğurla keçib. Bu da bizim ikitərəfli qarşılıqlı fəaliyyətimizin mühüm elementidir.

Biz Rusiya Federasiyasının təqribən 80 subyekti ilə sıx əlaqə saxlayırıq. Əlbəttə, bu tədbir çərçivəsində əvvəlki illərdə də və əminəm ki, dünən də yeni vəzifələr müəyyən edilib. Ona görə də gündəlik yetərincə genişdir. Biz 7 yol xəritəsi üzrə fəal iş aparırıq. Əminəm ki, ilin sonuna bu cür yaxşı göstəricilərlə yaxınlaşaraq növbəti ilə də belə dinamizm verəcəyik. Bir daha xoş gəlmisiniz.

***

Rusiya Hökumətinin sədri Mixail Muşustin dedi:

- Sağ olun, hörmətli İlham Heydər oğlu. İlk növbədə, Azərbaycana səfərə dəvətinizə görə Sizə təşəkkürümü bildirmək istəyirəm və Hökumətin sədri qismində buraya böyük hörmətlə səfər edirəm.

Bizim nümayəndə heyətini çox səmimi qəbul etdiyinizə görə də Sizə, Əli Hidayət oğlunun bütün komandasına təşəkkürümü bildirmək istəyirəm. Biz böyük nümayəndə heyəti ilə gəlmişik. Azərbaycan ilə qarşılıqlı fəaliyyətdə olan əsas regionlarımızın dörd rəhbəri gəlib.

Fürsətdən istifadə edib Sizi dövlət bayramınız - Azərbaycanda dünən qeyd edilən Milli Dirçəliş Günü münasibətilə təbrik etmək, Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinin ən xoş, ən səmimi arzularını çatdırmaq istəyirəm. Siz dediniz ki, dünən axşam onunla danışmısınız.

Biz hökumət xətti ilə məhz Sizin - prezidentlərimizin qəbul etdiyi qərarların yerinə yetirilməsi üçün çox fəal iş aparırıq. Dünən Əli Hidayət oğlu Əsədov ilə biz 11-ci regionlararası forumda iştirak etdik.

Forumda qarşılıqlı münasibətlərin gündəliyindəki məsələlərin hamısına toxunuldu. İlk növbədə, energetika, sənaye, nəqliyyat, mədəni-humanitar sahələrə diqqət yetirildi. Danışıqların yekunlarına əsasən, ən müxtəlif sahələrdə əməkdaşlığın inkişafına dair bir sıra sazişlər imzalandı. Nəqliyyat sahəsi çox mühüm, xüsusi sahədir.

Əminik ki, birgə infrastruktur-logistika layihələri bütün əməkdaşlıq kompleksinin genişləndirilməsi üçün yeni drayver olacaq. Burada Qərb marşrutunu - Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizini ayrıca qeyd etmək istərdim. Biz 2030-cu ilə qədər bu dəhlizlə daşımaların həcmini artıraraq ildə 15 milyon tona çatdırmaq niyyətindəyik.

Mədəni-humanitar əlaqələrə ənənəvi olaraq xüsusi əhəmiyyət veririk. Siz dediyiniz kimi, diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edirik.

Bu mühüm hadisəyə həsr edilmiş təntənəli silsilə tədbirlər keçirilib. Gələn il isə biz görkəmli sovet və Azərbaycan dövlət xadimi, Sizin atanız Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyini qeyd edəcəyik.

Biz dünən də qeyd etdik ki, Bakıda bizim institutların - Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları uğurla fəaliyyət göstərir. Rusiyada da Azərbaycandan olan on bir mindən çox tələbə təhsil alır.

İnsanlar arasında birbaşa əlaqələrin bu cür inkişafı, zəngin tarix, mədəniyyət və ənənələrlə tanışlıq bizim qarşılıqlı münasibətlərimizi möhkəmləndirəcək.

***

**Dövlətimizin başçısı Rusiya Prezidentinin xoş arzularına görə minnətdarlığını bildirdi, onun da xoş arzularını Vladimir Putinə çatdırmağı xahiş etdi.**

# İranın riyakar siyasəti və təxribatları

**İran İslam Respublikasının qonşu olaraq Azərbaycana qarşı riyakar davranışları davam etməkdədir. 30 il müddətində Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deyib, digər yandan təcavüzkar Ermənistana dəstək verirək etibarsız qonşu olduğunu nümayiş etdirir. Qarabağ münaqişəsinin bitməsindən sonra iki ölkə arasında sülhün əldə edilməsini açıq-aşkar əngəlləyir, Zəngəzur dəhlizinin reallaşdırılmasına mane olmaq üçün əlindən gələni edir.**

İranın riyakar hərəkəti İslam dəyərlərinə qarşı xainlikdən başqa cür qiymətləndirmək olmur. İranın din xadimlərin Azərbaycana qarşı yönəlmiş təxribatlarda iştirak etməsi islamın əxlaq kodeksinə zidd olan əməldir.

Bundan başqa, açıq təxribatlar və gücə təhrik göstərir. İran İslam Respublikası Azərbaycan sərhədinə qoşun yığır, hərbi təlim keçmək adı ilə hədə-qorxu gəlir. Riyakarlıq və yalançılıq xətti İranın təkcə Azərbaycana qarşı münasibətində deyil, ümumilikdə bu dövlətin siyasi davranış konsepsiyasında yer tutur.Məqsədyönlü və açıq təxribatları davam edərək, eyni zamanda özünü "islam dövləti", "müsəlman təəssübkeşi", Azərbaycanın "mehriban qonşusu" kimi təqdim etməyə çalışır.

Ümimiyyətlə baxdıqda Yaxın və orta şərq coğrafiyasında mövcud bütün münaqişələrdə İranın adı keçir. Elə təəssürat yaradılır ki, "qüdrətli İran dövləti" İslam təəssübkeşliyi göstərir, müsəlman dünyasını təhdidlərdən qoruyur, İraq, Suriya, Əfqanıstan, Livan, Yəmən, Fələstin, Bəhreyndə həmrəylik formalaşdırıb imperialist işğala qarşı dayanır. Reallıq isə budur ki, İranın nə təsvir edilən formada "hərbi qüdrəti" var, nə də "müsəlman təəssübkeşliyidir".

İranın apardığı uğursuz xarici siyasəti və əsassız ambisiyaları əslində ölkəni acınacaqlı duruma gətirib çıxarıb. İran son 40 ildə qatıldığı heç bir müharibədəqalib olmayıb,"himayə etdiyi müsəlman ölkəsini" xaosdan çıxara bilməyib, əmin-amanlıq, sabitlik yaratmayıb.Yəməndə, Bəhreyndə, Fələstində münaqişələrin 30-40 illik tarixi var. Suriyada, Livanda 10 illərdir xaos, dağıntı davam edir.

İran təsir etmə şəbəkələri yaratmaqla, əslində xaos yaratmağ cəhd edir. İran "İmam Xomeyni İmdad Komitəsi" və Mədəniyyət Mərkəzi vasitəsilə "humanitar yardım" paylamaq adı altında bütün bölgələrdə strukturlaşıb, əhalisinin əksəriyyəti şiə məzhəbinə inanan Azərbaycanda din üzərindən siyasi təşkilatlanma həyata keçirib, Azərbaycan dövlətinə qarşı dini-siyasi qruplaşmalar yaratmağa cəhd edib.

İranın Azərbaycanla sərhəddə 30 ildə ilk dəfə irimiqyaslı hərbi təlimlərin keçirilməsi hərbi avantüra və səmərəsiz əzələ nümayişidir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin də dəfələrlə bəyan etdiyi kimi, ölkəmizin hərbi qüvvələri bütün təhdidlərin qarşısını almağa, bütün təxribatlara qarşı lazımi şəkildə cavab verməyə qadirdir.

Azərbaycan İranla bağlı məsələlərə hər zaman xüsusi həssaslıqla yanaşıb. İran İslam Respublikası ölkəmizin sıx əməkdaşlıq etdiyi ölkələrdən biridir. Bu da təsadüfi deyil. Məlum olduğu kimi, əhalisinin böyük hissəsi, 30 milyon nəfəri azərbaycanlılardan ibarət olan bu ölkə ilə müstəqil Azərbaycan dövlətini mədəni və mənəvi dəyərlər bağlayır. Məhz bunun nəticəsidir ki, ötən müddət ərzində ölkələrimiz arasında müxtəlif sahələri əhatə edən çoxsaylı ikitərəfli sənədlər imzalanıb.

Din amilindən sadəcə öz xarici siyasətinin aləti kimi istifadə etməyə çalışan İran, hər zaman İslam birliyindən və həmrəyliyindən dəm vurur, özünü dünyamüsəlmanlarının bir nömrəli təəssübkeşi kimi qələmə verməklə, sözləri ilə əməlləri heç bir halda üst-üstə düşmür.

İran İslam həmrəyliyinə zidd olan siyasət aparır. İrana məxsus KİV-lərdə əhalisinin böyük əksəriyyəti müsəlman olan Azərbaycan Respublikasına qarşı davamlı olaraq "ideoloji mübarizə" aparılır. İran artıq Azərbaycan dövlətinin daxili işlərinə qarışmağa başlayıb və ölkəmizdə süni problemlər yaratmaq üçün müxtəlif cəhdlər göstərir. Ölkəmizdə guya dini azadlıqların və İslam dəyərlərinin boğulduğunu iddia edən İranın müxtəlif dairələri "din pərdəsi" adı altında respublikamızın ərazisində dünyəvi dövlətçilik əleyhinə əməllərin həyata keçirilməsinə çalışdılar.



Bu günə qədər Azərbaycanda ifşa olunmuş bəzi dini-ektremist qrupların İranın xüsusi xidmət orqanlarının tapşırıqlarını yerinə yetirdiklərinin təkzibolunmaz faktlarla tam sübuta yetirilib. Rəsmi dövlət qeydiyyatı olmayan Azərbaycan İslam Partiyası adlanan təşkilatın üzvlərinin hüquqmühafizə orqanları tərəfindən ifşa olunması, həmçinin, onların İran tərəfindən dəstəklənən cinayət əməlləri bilavasitə İranın təxribat siyasətinin davamı və təzahürüdür.

İran təxribatlarının miqyası enişlənməkdədir. İrandan ölkəmizə qarşı ünvanlanan təxribat xarakterli bəyanatların müəllifləri qismində bu ölkənin ayrı-ayrı siyasətçiləri, generalları və ayətullahları çıxış edir.

İranın xarici siyasətinin mahiyyətini bildirən açıq qalmış suallar var. Özlərini dünya müsəlmanlarının təəssübkeşi kimi qələmə verən İran rəhbərləri Ermənistandan Xocalı soyqırımının, işğal olunmuş Azərbaycan ərazilərindəki məscidlərin, dini abidələrin yerlə-yeksan olunmasının, minlərlə müsəlmanların qətlə yetirilməsinin haqq-hesabını niyə tələb etmir.

İran daxilində Azərbaycana hərbi müdaxilə üçün ictimai rəy formalaşdırılır, Azərbaycanda dini qüvvələrin siyasiləşdirilməsi istiqamətində iş aparılır. İran rejiminə xidmət edən terrorçuların zərərsizləşdirilməsi isə bir daha sübut etdi ki, İran Azərbaycanda dini və milli düşmənçilik yaymaq, dini tolerantlığı pozaraq gərginlik yaratmaq niyyətindədir. İranın Azərbaycanda terror aktı törətmək istəyinin ifşa olunması bir daha onu göstərir ki, İran sözdə bizə dost desə də, faktiki olaraq bu münasibətlərdə səmimi deyil. İnformasiya təhdidləri və təxribatları ilə Azərbaycanın məkanına nüfuz etmək, vətəndaşlar arasında separatizm yaymaq, Azərbaycan dövlətinə itaətsizlik üçün zəmin hazırlamaq və ölkə vətəndaşlarını müxtəlif şirnikləşdirici təkliflər vasitəsilə dünyanın bir nömrəli mübarizə obyektinə çevrilən terrorizmə sövq etmək qonşu ölkənin xarici siyasətinin əsas xüsusiyyətləridir.

İran öz potensialını və ikitərəfli münasibətlərin mahiyyətini adekvat dəyərləndirməlidir. Cənubi Qafqazın lider ölkəsi, Avropanın enerji təhlükəsizliyində başlıca rollardan birini oynayan, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilmiş, beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş hesab olunan, qüdrətli Qalib Orduya malik olan və bütün dövrlərdə humanitar xarakterli qlobal təşəbbüslərlə çıxış edən Azərbaycan ilə hədə və təhdid dilində danışmaq kimsəyə fayda verməz. Azərbaycan bütün təxribatlara qarşı lazımi şəkildə cavab verməyə qadirdir. 30 il davam edən işğala, müsəlmanların öz torpaqlarındanqovulmasına, məscidlərin, islam ibadətgahlarının təhqir olunmasına göz yuman İranın Qafanda konsulluq açması və Ermənistanın Təbrizdə konsulluq açmasının gündəmə gətirilməsinə şərait yaratması vicdanlı və dürüst davranış hesab edilə bilməz.

Azərbaycan torpaqlarının Ermənistanın işğalı altında olduğu 30 il ərzində bu ərazilərdə bütün infrastruktur, mədəniyyət, dini obyektlər, vətəndaşlara və dövlətə məxsus mülklər dağıdılıb, təbii sərvətə ölçüyəgəlməz zərər vurulub. Tehranın 30 ilə yaxın bir müddətdə erməni işğalında olan Azərbaycan ərazilərinin talan olunmasında birbaşa iştirakı heç kimə sirr deyil. İşğalçı ölkə olan Ermənistan Qarabağda sökdüyü evləri tikinti materialları kimi İrana satırdı. Meşələrin qırılması və onların İrana daşınması da hər kəsə bəlli idi.

İşğal dövründə Ermənistanla İran arasında geniş miqyasda iqtisadi əlaqələri, birgə iqtisadi layihələri mövcud olub. İranla Ermənistan arasında uzunluğu 140 kilometr olan qaz kəməri çəkilib. Boru xəttinin tikintisinə 2006-cı il dekabrın 20-də başlanıb, açılışı 2007-ci il martın 19-da reallaşıb.Ermənistan Azərbaycanın işğal edilmiş Qarabağ ərazilərinə İran İslam İnqilabı Keşikçiləri Korpusunun (SEPAH) dəstəklədiyi yük maşınları ilə yanacaq və silah daşıyıb. Azərbaycanın İranla sərhəddə yerləşən, işğal altında olan ərazilərinə bu illər ərzində faktiki olaraq SEPAH nəzarət edib. Qərb mətbuatının məlumatlarına görə, Tehran uzun müddət bu marşrutdan Əfqanıstandan son təyinat məntəqəsinə - Avropaya qanunsuz narkotik trafiki üçün istifadə edib. İranda dövlət nömrə nişanlı yük maşınları sürən İran qaçaqmalçıları açıq şəkildə narkotik maddələri Araz çayı üzərindən Qarabağa və arxa giriş vasitəsilə Avropaya daşıyıb, bu barədə aparıcı dünya mediasında kifayət qədər materiallar dərc edilib.

İşğal altında olan ərazilər həm narkotik plantasiyalarının yaradılması, narkotik maddələrin istehsalı, həm də Şərqdən Qərbə doğru gedən narkotrafik marşrutu kimi istifadə olunub. Azərbaycanın işğal altında olan ərazilərindənnarkotrafik marşrutu kimi istifadə məsələsində İran İslam Respublikası xüsusi fəallığı ilə seçilib.

Təəccüb və təəssüf doğuran fakt göz qabağındadır. Vətən müharibəsinə qədər, hətta müharibədən sonra bir il ərzində Azərbaycanla heç bir problemi olmayan İran Zəngəzur dəhlizi məsələsi aktuallaşandan dərhal sonra yenidən aqressiv ritorikasını bərpa edib, təhdid dolu bəyanatlar səsləndirməyə başlayıb. İranın şimal-qərb bölgəsi ilə həmsərhəd olan Azərbaycan torpaqlarına Ermənistanın nəzarət etməsi siyasi baxımdan da Tehran üçün əlverişlidir. Bu, Azərbaycanla İranın azərbaycanlılar yaşayan şimal-qərb bölgələri arasında "bufer zona"sı demək idi.

Rəsmi Tehran Bakını İsraillə əməkdaşlıqda ittiham edir. Lakin hər kəsə bəllidir ki, rəsmi Bakı ABŞ və İsraillə açıq strateji tərəfdaşlığını bir qədər tarazlaşdırıb, İranla normal mehriban qonşuluq münasibətlərini düşünüb. Tehran isə Bakının bu jestini heç vaxt dəyərləndirməyib. Əvəzində isə İran Azərbaycan ərazilərini işğal edən bir ölkə ilə ən sıx münasibətlər qurur. İranı Ermənistanla birləşdirən avtomobil və dəmir yolunun tikintisinə xüsusi əhəmiyyət verən Tehran Fars körfəzindən Qara dənizə, oradan isə Bolqarıstana çıxmaq imkanı əldə etmək istəyib, lakin bundan istifadə edərək, İrəvanı işğala son verməyə səsləməyib.

Dünya multikulturalizmin ünvanlarından biri olan Azərbaycandan fərqli olaraq İran hər zaman fərqli ölkələr üçün dini zəmində təhdid yaradıb. İranda hakimiyyətdə öz xalqına, dinc əhalisinə qarşı tərəddüdsüz silah işlədən istibdadçı, mürtəce molla rejimidir.

İranın azərbaycanlı əhalisi hətta ən elementar hüquqlardan belə amansızcasına məhrum edilib. Prezident İlham Əliyev, bu günlərdə Səmərqəndə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşündəki çıxışında xüsusilə vurğuladı ki, "Əfsuslar olsun ki, Azərbaycan dövlətinin hüdudlarından kənarda yaşayan 40 milyon azərbaycanlının əksəriyyəti öz ana dilində təhsil almaq imkanlarından məhrumdur. Türk dövlətlərindən kənarda yaşayan soydaşlarımızın öz ana dilində təhsil almaları önəmli məsələdir... Biz acı taleyin hökmü ilə Azərbaycan dövlətindən ayrı düşmüş soydaşlarımızın dilimizi, ənənələrimizi, mədəniyyətimizi qoruyub saxlamaları, azərbaycançılıq ideyalarına sadiq olmaları, öz tarixi Vətənləri ilə əlaqələrin heç vaxt kəsilməməsi üçün səylərimizi davam etdirəcəyik".

**Hazırladı:**
**Rüstəm Hacıyev**

# Ekspert: "Belə olan halda qəzaların baş verməsi qaçılmaz olur"

**Son günlər köhnə tikili binalarla yanaşı, yeni tikilmiş binalarda da litf problemi yaşanmasının şahidi oluruq. Qeyd edim ki, texniki cəhətdən o qədər də müasir olmayan liftlər 25- 30 il isifadəyə yaralı olur. Ancaq yeni liftlərdə 5-10 ildən sonra ciddi texniki problemlər yaranır. Son illərdə isə Bakı şəhəri üzrə ümumilikdə 1 206 lift yenisi ilə əvəzlənib.**



Bəs liftlərin texkini quraşdırılması zamanı nələrə diqqət etmək lazımdır ki, sonradan qəzalara yaşanmasın? Ümumiyyətlə liftdə baş verən qəzalara səbəb nədir?

Mövzu ilə bağlı Adalet.az-a təhlükəsizlik üzrə ekspert Elmar Nurəliyev danışıb. Ekspertin fikrincə, normadan artıq yüklənmə və elektrik sistemində nasazlıq olduqda qəzalar baş verir:

"Liftin quraşdırılması zamanı düzgün montaj olmadıqda xoşagəlməz hallar baş verir. İstismar müddəti bitən avadanlıq və mexanizmlər vaxtında dəyişdirilməyəndə bədbəxt hadisələr qaçılmaz olur. Liftlərin təhlükə dərəcəsi yüksək olduğu üçün, onların istismarı təhlükə potensiallı obyektləri siyahısındadır. Yəni liftlərin istismarı xüsusi icazələrlə həyata keçirilir. Onlara texniki baxışın keçirilməsi, servis xidməti sertifkatlaşdırılmış müəssisələr tərəfindən həyata keçirilir. İstər binalarda, istərsə də obyektlərdə liftlərin istismarı texniki təhlükəsizlik üzrə dövlət standartlarına, əmək mühafizə qaydalarına, fövqaladə hallardan müdafiə normalarına uyğun olmalıdır. Baş verə biləcək qəzaların qarşısının alınması üçün yük şaxtalarının tikintisi, onların quraşdırılması zamanı dövlət standartlarına və digər texniki normativ təhlükəsizlik standartlarına cavab verən sertifkatlaşdırılmış materiallardan istifadə edilməlidir. Ancaq təəssüflər olsun ki, bəzi yaşayış binalarında və obyektlərdə liftlərin texniki xidmətinə nəzarət yoxdur. Liflətin müntəzəm yoxlanılması, istismar müddətini bitirmiş avadanlıqların, detalların, mexanizmlərin dəyişdirilməsi texniki xidmət servisinə daxildir. Liftlərə vaxtında qulluq olunmazsa, təhlükəsizlik qaydalarına əməl edilməzsə, qəzaların baş verməsi qaçılmaz olar. Bu da insan həyatı üçün ciddi təhlükə deməkdir".

Elmar Nurəliyev bildirib ki, təkcə liftlərə cavabdeh olan şəxslər deyil, onlardan istifadə edən insanlar liftin təmizliyinə, qorunmasına nəzarət etməlidir:

"Liftlərdə təhlükə yaranmasın deyə, ciddi nəzarət mexanizmi olmalıdır. Məlum məsələdir ki, köhnə liftlərdə vəziyyət ümumiyyətlə ürəkaçan deyil. Liftin qırılıb şaxtaya düşməsi, artıq onun tam sıradan çıxması deməkdir. Liftdə həm qaldırıcı, həm qoruyucu troslar olur. Bunlardan biri qırılırsa, digəri avtomatik olaraq kabinanı saxlayır. Köhnə liftlərdə isə bu vəziyyət daha təhlükəlidir. Onların müasir standartlara cavab verməməsi müəyyən problemlərə gətirib çıxara bilir. Ancaq yeni model liftlərdə sürət artan kimi avtomatik olaraq əyləc sistemi işə düşür və tam təhlükəsiz dayanır. Liftdən istifadə edən hər kəsin bilməli olduğu məqamlar var. Liftin kabinasında yersiz hərəkətlər etmək, bir neçə düyməni eyni anda basmaq, tavana toxunmaq, qapılara toxunmaq, divara söykənmək bu kimi hallar qəti şəkildə yolverilməzdir. Valideynlər liftə minərkən uşaqları diqqətdə saxlamalıdır. Yaxşı olar ki, uşaqlar liftdən tək istifadə etməsinlər. Əgər liftin düymələri nasazdırsa, düymələr yerindəm çıxırsa, işıqları yanmırsa o liftə minmək olmaz. Demək olar ki, quraşdırılmış bütün liftlərdə güzgü var. Bu güzgülərdə də müəyyən təhlükəsizlik qaydalarını göstərən əlamətlər var. Həmin güzgülər çağırılan mərtəbədə liftin olmasına əmin olmaq üçündür. Yəni liftin qapısı açılanda insan özünü görəndən sonra əmin olur ki, lift çağrılmış mərtəbədə dayanıb.

**Hansı obyektdə lift quraşdırılıbsa, o obyektə liftlərin təhlükəsizlik istismarına dair cavabdeh məsul şəxslər olur. Həmin şəxslərin də vəzifə borcudur ki, təhlükəsizlik istismarına nəzarət eləsin. Liftdə yaranmış nasazlığın vaxtında aradan qaldırılması insanların rahat, sağlam və təhlükəsiz şəraitdə liftdən istifadəsini təmin edir".**

**Əntiqə Kərimzadə**

*Aqil ABBAS*

# HARDASAN, AY ABDULLA ÇATLI, GORUN ÇATLASIN...

*İstanbulda İstiqlal küçəsində törədilmiş terror aktında 6 nəfər həlak olub, 80 nəfərə yaxın insan yaralanıb. Əvvəl-əvvəl terroru ermənilərin ASALA təşkilatı boynuna götürüb, hələ bir Bakını da hədələdi. Lakin Türkiyənin daxili işlər naziri Süleyman Soylu açıqlama verdi və bildirdi ki, terroru törədən şəxs tutulub və bu vəhşilikdə PKK-nın əli var. Özü də Suriyadan Yunanıstana - Afinaya keçib, Afinadan da İstanbula. Yəni onu da bildirdi ki, bu işdə kimin əli varsa cavablarını alacaqlar.*



*İndi gələk ASALA-ya. Qaraçı filan yerini tərifləyən kimi, ASALA da bu terrordan yararlanmaq istədi və özünə piar düzəltməyə çalışdı. ASALA terror təşkilatı rəhmətlik Abdulla Çatlı tərəfindən darmadağın edilmişdi. Və onun Parisdəki iqamətgahı da Çatlı tərəfindən partladılmışdı. Bununla da ASALA demək olar ki, məhv oldu. Bir az tör-töküntüləri qalıb onların da əksəriyyətini müzəffər ordumuz 44 günlük müharibədə itin qılçına soxdu.*

*ASALA-nı məhv edən Abdulla Çatlı Susurluq qəzasında müəmmalı şəkildə həlak oldu. O vaxt baş nazir olan Tansu Çillər Abbulla Çatlıya sahib çıxmışdı və demişdi: "Türkiyə üçün güllə atan da, güllə yeyən də Türkiyənin şərəfidir".*

*İndi Türkiyəyə yeni Abdulla Çatlı və abdullaçatlılar lazımdır. Və Polad Ələmdar kinoda yox, həyatda fəaliyyət göstərməlidir. Onda terrorun qarşısı alınacaq.*

*Mən bir yazıçıyam və bütün terrorları lənətləyirəm. Amma mənim dövlətimə, millətimə terror edənlərə də elə terrorla cavab verməyin tərəfdarıyam.*

*Əhməd bəy Ağayev də, Kərim bəy Mehmandarov da böyük ziyalılar idi, amma məcbur olub "Difai" təşkilatını yaratmışdılar.*

*Nə isə... Çox şey yazaram, amma bəsdi. Anlayanlar üçün bəsdi.*
*Tanrı Türkü qorusun!*
*Türk də Tanrını qorusun!*

# NAZI DÜNYANI ABŞ-la RUSİYA ARASINDA NECƏ BÖLDÜ?!

***Ağcabədidə Nazim adında bir oğlan var, camaat onu şirin dilinə görə "Nazı" çağırır. Keçmiş Rayponun həyətindəki yeməkxananın müdiridi. Əli də şirindi, dili də. Duzdu başdan-ayağa.***

***Əvvəllər rayona hörmətli qonaq gələndə rəhbərlik onlara Nazimin yanında ziyafət verərdi. Bakıdan gələnləri təkcə Nazimin şəxsən hazırladığı ləzzətli yeməklərə deyil, həm də onun şirin dilinə, maraqlı söhbətlərinə qonaq edərdilər.***

***Rayonun polis rəisi Həsən Əliyevin Bakıdan qonağı gəlir. Qonağı səhər yeməyinə aparır Nazimin yeməkxanasına. Çörək yeyərkən Həsən müəllim deyir:***

***- Nazı, bu rayonun yiyəsi kimdi?***

***Nazim:***

***- Yayonun yiəsi kim olajax? Yəyis! Sən! Səndən böyük kim vay ki?***

***Günorta yenə Həsən müəllim qonağını aparır Nazimin yanına və prokurora da zəng edir ki, qonağım var, gəl Nazının yanına.***

***Nazim bunlara gözəl bir süfrə açır, yeməyin şirin vaxtında Həsən müəllim deyir:***

***- Nazı, səhər-səhər dedin rayonun yiyəsi kimdi?***

***Nazim baxır ki, prokuror da oturub, özü də ciddi görkəmdə, deyir:***

***- Yəyis, Ağcavədi böyük yayondu, yayısı sənin, yayısı da pyakyoyun. Buyda nə vay ki?***

***Axşam yeməyə gələndə rayon icra hakimiyyətinin başçısı Şamil Həsənov da gəlir. Yenə yeməyin şirin vaxtı Həsən müəllim soruşur ki, Nazı, dedin rayonun yiyəsi kimdi?***

***Nazim baxır ki, Şamil müəllim başda oturub, deyir:***

***- Yəyis, günoyta dedim də, Ağcavədi yekə yayondu, yayısı sənin, yayısı da pyakyoyun. İkiniz də biyləşib başçını saxlaya bilməyəysizsə, onda day niyə işdiyiysiz? Yayonun yiyəsi kim olajax, basçı!***

***Bu günlərdə yolum Ağcabədiyə düşmüşdü, getdim Nazimin yanına.***

***Zarafatla soruşdum ki, Nazı, rayonun yiyəsi kimdi?***

***Nazim əlini yelləyib dedi:***

***- Yəhmətliyin oğlu, nə yayon? Göymüysən, indi heş dünyanın yiəsi yoxdu. Ameykaynan Yusiya dünyanın yiəsi olmaq üçün biy-biyini qıyıy, ayada kasıblayınkı qıyılıy. Sən oxumuş adamsan, bu dünyada neçə dövlət vay?***

***- İki yüz.***

***- Ay sağ ol, bu iki yüz dövlət yüz-yüz bölünsünləy yayısı Ameyikanı saxlasın, yayısı Yusiyanı. Bunlay da biy-biyini qıymasın. Ukyaynlay yazıqdı. Sən oxumuş adamsan, dünyada neçə okean vay?***

***- Dörd dənə.***

***- Ay sağ ol. O okeanlayın da ikisini veysinlər Ameyikaya, ikisin də Yusiyaya.***

***- Bəs, qitələri necə bölsünlər? Qitə beş dənədi axı?***

***- Bə biz oxuyanda deyiydilər altı qitə vay.***

***- Biri Antraktidadı, heç kimə lazım deyil, buzdu başdan-ayağa.***

***- İkisi olsun Ameyikanın, ikisi də Yusiyanın. Biyini də qoysunlay adam kimi azad yaşasınlay.***

***- Hansı qitəni?***

***- Biz hansı qitədə yaşayıyıq, bax o qitəni.***

***Güldüm:***

***- Nazı, deyirəm sən Qutthereşin yerinə ən yaxşı namizədsən.***

***-Götteyeş kimdi, məllim?***

***- Birləşmiş Millətlər Təşkilatının baş katibi. Yəni dünyanın yiyəsi.***

***Nazim təəccüblə:***

***- Vay dədəm, vay. Mən elə biliydim dünyanın iki yiəsi vay Ameyika, Yusiya, bu Götteyeş haydan çıxdı? Özü də nə səfeh adı var, dilə də yatmıy. Adamın adı olay Aqil Abbas, Nazim, Fəxyəddin. Cəhənnəm, Məzahiy, yoxsa Götteyeş. Ona göyə dünya dağılıy ey.***

***Məzahir Nazimin rəqabət apardığı restoranın sahibidi. Fəxrəddin isə Nazimin ən yaxın dostudu, rayonun 2000-2005-ci illərdə başçısı olub.***

***Sonra Nazim deyir:***

***- Məllim, Fəxyəddin dedim, yadıma düşdü. Həsənov çoxdandı göyünmüy. Sənin qohumundu, göyüşüf eliyiysiz?***

***- Hə, arada görüşürük.***

***- Göyüşəndə deynən ki, dayıxmışam ondan ötəyi. Biy buyada gəlsin. Bu yeməkxana ona quybandı. Məllim, saa da etibay yoxdu ey, biydən dediklərimi gedif qəzetdə yazaysan, bu yeməkxananı tutuf əlimdən alaylay.***

*İradə TUNCAY*

# Dreyfus(un) işi



**Birinci Dünya Müharibəsində həlak olanların abidəsi. Strasburq, Elzas bölgəsi həmin müharibənin tam mərkəzində olub, qaynar nöqtəsi sayılıb. Həm almanlar, həm fransızlar tərəfindən savaşmağa məcbur olublar. Və 1936-cı ildə şəhər idarəçiləri əhaliyə müraciət edərək yardım istəyiblər memorialın hazırlanmasına. İanə yığılıb müharibədə əzizlərini itirən insanlardan. 50 frankdan tutmuş 50000 franka qədər pul verən olub. Sonradan bu siyahını dərc edirlər.**

"Canından keçənlərimiz" yazılıb monumentin üstündə... Ana can verən iki oğlunu bağrına basıb. Biri fransız, biri almandı övladları. Hər ikisi uniformasızdı, fərqlənməsinlər deyə. Əl-ələ verib ölürlər - biri Fransa, biri Almaniya tərəfə baxır.Uğrunda öldükləri torpaqlara. Ana isə öz dərdini belə bölüşür insanlarla. Kilsə ikonoqrafiyasında rast gəlinən ağı - pieta janrı. Məryəm ananın iki oğlu var burda. Fərq eləmir, müharibələrdə saysız-hesabsız analar və oğullar olub. Bu ağı onların hamısına deyilir...

***

İkinci Dünya Müharibəsindən sonra avropalıların işi pis getməyib. Amma o vaxtacan bizim indi yaşadıqlarımız onların da başına gəlib. Deyək ki, Prussiya-Fransa savaşları olub ki, tarixdə ad qoyub və hətta almanların torpaq itkisinə səbəb olub. Yəni tarix boyu müharibələr hər zaman labüddür, nəticələri də məlumdur.

Dreyfus işi hətta adını kriminalistika tarixinə salmış bir məsələdir... Alfred Dreyfus 1894-cü ildə casusluqda ittiham olunur və ömürlük həbsə məhkum edilir. Cəmiyyət bu həbsi birmənalı qarşılamır və iki qütbə bölünür. Bir qism Dreyfusun həbsini onun yəhudi kökləri ilə əlaqələndirir. İkinci qism də yenə milli köklərlə bağlayır - yəni yəhudilərin paralarıyla Fransanın maraqlarını Prussiyaya satdığını düşünürlər. Həmin dövr Avropada artıq azadlıq, insan haqları söhbətləri öz yerini tutmağa başlamışdı. Mətbuatın öz mövqeyi vardı və adamı milli köklərinə görə həbs etmək asan deyildi.

Günahı nə idi ? Fransız əks-kəşfiyyatının əlinə alman hərbi attaşesinə yazılmış fransız zabitinin məlumatları düşür. Güman olunur ki, bu məlumatları məhz Dreyfus göndərir. İstintaq başlanır və təbii ki, Dreyfus inkar edir xəbər ötürdüyünü. İnkara baxmayaraq, kapitan Dreyfusu Fransa Qvianasındakı adalardan birinə göndərirlər.

Maraqlı hadisələr isə bundan sonra başlanır, heç Dreyfusun xəbəri olmadan. Bütün mütərəqqi ictimaiyyət kapitanın müdafiəsinə qalxır və təbii ki, mətbuatın yardımı ilə. Son nöqtəni isə o dövrlərdə çox nüfuzlu Emil Zolya qoyur, "Orror" qəzetində yazdığı ("J'accuse") - "Mən ittiham edirəm " məqaləsi ilə. Avropada hər zaman mətbu sözün əhəmiyyətini biliblər, anlayıblar və əgər bu sözləri cəmiyyətin hörmətini qazanmış bir yazıçı yazıbsa, bu əhəmiyyətin xüsusi məqamı var təbii. Məqalə xüsusi olaraq prezidentə ünvanlanmış yazılır və üslubi keyfiyyətlərinə görə yeni bir janrın başlanğıcına rəvac verir . Maraqlansanız internetdə "Mən ittiham edirəm" məqaləsini oxuya bilərsiniz. Rus dilini bilirsinizsə təbii, yox, milli mövqeyiniz sizi narahat edirsə fransızca oxuyun. Fərqi yoxdu hansı dildə, təki oxuyun.

Məqalədə də əsas vurğu millət söhbətinin üstündə qurulur və mürtəce hərbçilərdən danışılır. Yəni bir məqalə ağır ittihamı, Vətənə xəyanət ittihamını Dreyfusun üstündən götürür. Zolya üçün də asan olmur bu yazıdan sonra - İngiltərəyə qaçır. Fransada gizlənir...

Yazı bütün Avropada geniş əks-səda doğurur.Yeni era başlanır ədalət və diskriminasiya savaşında. Prezidentə müraciətlə "Bizi bu xəcalət hissindən qurtarın"- deyir Zolya. "Sizin idarəçiliyinizdə belə ədalətsizlik olmasın" - deyir.

"İstədiyim yalnız həqiqətdi, bu əzabkeş, səadət haqqı olan bəşəriyyət üçün həqiqət! Bu qəzəbli etiraz - qəlbimin harayıdır. Məni də Andlılar məhkəməsinə çağırsınlar və məhkəmə açıq keçirilsin".

Hər bir halda Zolya Dreyfusa bəraət ala bilir. 1906-cı ildə başa çatır məhkəmə və Dreyfus bütün ittihamlardan azad olur.

Fikirləşdim , kaş biz də Fransada yaşayaydıq, bizim də yazılarımız kiməsə yardım edə biləydi... Amma sonra Fransa senatının verdiyi məşum qərarı düşündüm... Yenə milli mənsubiyyət məsələsi, yenə ikili standartlar, yenə ayrı-seçkilik... Axı sizin də torpağınızda savaş gedib, axı sizin də torpağınızda "Canından keçənlərimiz" abidəsi qoyulub... Sizin də ədəbiyyatınızda savaş mövzusu qırmızı xətt kimi keçir...

**Yəni uşaq deyiləm, bütün səbəbləri dərindən anlayıram... Amma çox təəssüf ... Hələ də irqçilikdən çıxa bilmir Fransa!!!**

# Milli Məclisdən Bəyanat

## Parlament hökumətə çağırış etdi

**Fransa Senatı noyabrın 15-də "Azərbaycana qarşı sanksiyaların tətbiqi və onun Ermənistan ərazisindən dərhal geri çəkilməsi, 9 noyabr 2020-ci il tarixli atəşkəs razılaşmasına riayət etməsi tələbi və iki ölkə arasında dayanıqlı sülhün bərqərar olmasına yönəlmiş bütün təşəbbüslərin təşviq edilməsi" adlı qətnamə qəbul edib. Milli Məclisin plenar iclasında deputatlar Fransa Senatının qəbul etdiyi qətnaməyə münasibətlərini bildiriblər.**

### *Siz türklərə və azərbaycanlılara xidmət edəndə xilas olursunuz*

**Parlamentin İnsan hüquqları komitəsinin sədri, Sosial Tədqiqatlar Mərkəzinin rəhbəri Zahid Oruc** bildirib ki, "Bu cür siyasi qətnamələrin sayı artdıqca, erməni xalqının sayı azalır".

Vətən müharibəsi təkcə hərbi meydanda deyil, həm də dövlətlərin siyasi simasını açdığına görə böyük qələbədir-deyən deputat bildirib ki, "Fransa Senatının dünənki qərarı da, 2020-ci ilin noyabrın 25-də Qarabağı tanımağa çağıranların 44 günlük müharibədəki məğlubiyyətidir. Qətnamənin preambulasında BMT Nizamnaməsinə istinad olunur. Baxın, dünya təhlükəsizliyinə cavabdehlik daşıyanlar millətləri necə birləşdirir?

Senatın qərarında ikinci bənd Türkiyədən qorxunu nümayiş etdirir. Yunanıstanda olduğu kimi, Ermənistanla sərhədlərə qoşun yığıb, Gümrüdən Rusiya hərbi qüvvələrini çıxarıb Qafqazı tutmaq istəyirlər. Xalqımız bilməlidir ki, dünən Fransa Senatında qərar çıxaranlar İstanbulun mərkəzində qanlı terrorun sifarişçiləri ilə eyni qüvvələrdir. Siz Şarli Hebdo qətlindən sonra Parisdə çiyin-çiyinə dayanan dövlətləri Türkiyə və Azərbaycanla bir sırada görməzsiniz. Lakin o qətnamələr Vətən müharibəsinin nəticələrini dəyişmir, əks, erməni xalqına növbəti zərbədir. Çünki ondan yalnız bir ovuc siyasi avantürstlər fayda götürür. Baxın tarixə, belə qərarların sayı artdıqca erməni xalqının sayı azalır.

Fransa Senatının Xankəndi ermənilərinin təmsilçisi adı ilə Ovanes Kevorkyanı da dəvət edib. Qərbin siyasi riyakarlığına baxın, sabah ölkəmizi insan hüquqları və demokratiya pozuntusunda qınayanları bir daha tanıyın".

Z.Oruc bildirib ki, ölkəmizə qarşı sanksiyalara çağıranlar avropalıları soyuqdan dondurmağa razıdırlar: "Yelisey sarayı ilə Strasburqun parlament binası arasında məsafə cəmi 460 km-dir. Lakin dünyaya demokratiya dərsi verənlər 296-dan 295 səslə-az qala 100 faizlə qanlı totalitar diktatura olduqlarını sübut etdilər. Avropa dövlətlərində vəzifələrə yerləşən erməni şəbəkəsinə əsaslanıb deyə bilərik ki, Ermənistan kiçik, Fransa Böyük Ermənistandır. İkinci dünya müharibəsindən sonra ataları Almaniyaya "təslimçilik aktını-sülh müqaviləsini imzalama, biz səni qoruyacağıq" deyənlərin övladları bizi təhdid edir. Faşizmi dirçəldən Yelisey sarayıdır. Lakin Levon ter Petrosyan son müraciətini yazır- o, 34 il əvvəl Parisdən başlanan



müharibənin növbəti qurbanlarını xəbərdar edir.

İki ay əvvəl, fransız müdafiə naziri Sebastyan Lekorno açıq bəyan etmişdi ki, biz Ermənistana qoşun yeritməliyik. Oktyabrın 6-da Praqada Prezident İlham Əliyev onun qarşısını aldı".

Komitə sədri vurğulayıb ki, çıxış yolu səfirliyə hücum etmək, yumurta və pomidor atəşinə əl atmaq deyil: "Ərzağa heyifdir. Total şirkətini Abşeron yatağından qovmaq da ölkəmizin iqtisadi izolyasiyasını istəyənlərin xeyrinədir, əksinə, kampaniyanın resurslarını Avropaya və Fransa elitasına qarşı yönəltmək gərəkdir. Cavab reaksiyamız Bolqarıstandan Ağdama, Praqadan Səmərqəndə qədər Qələbəmizi möhkəmləndirən Prezidentlə bir olmaq, eləcə də şərq və Azərbaycan qadınının etirazını ləyaqətlə ifadə edən Mehriban xanım Əliyevanın qərarına onlarla dövləti qoşmaqdır. Biz ermənilərə deməliyik: siz türklərə və azərbaycanlılara xidmət edəndə xilas olursunuz. Onları başa salmalıyıq- əsgərini hərbi meydanda, ticarətçisini birjada. Biz Fransa parlementinə Şuşada yeni bəyənnamələrlə cavab verməliyik. Çünki bizim müttəqilərimiz daha çoxdur!"

### *Fransa ilə diplomatik əlaqələr dayandırılsın*

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı** isə Azərbaycanın Fransa ilə diplomatik əlaqələrinin dayandırılmasını təklif edilib. O bildirib ki, Fransa riyakar siyasətini ortaya qoyur: "Vaxtı ilə müstəmləkələri olan Afrikada, xüsusilə Əlcəzairdə 1,5 milyon insanı qətl edən, amma II Dünya müharibəsi zamanı bir güllə atmayan Fransa indi Azərbaycana qarşı əsl simasını ortaya qoyur".

Partiya sədri söyləyib ki, Fransa Prezidenti Emmanuel Makron bir müddət əvvəl faşist Ermənistanı demokratik dövlət kimi qiymətləndirib. Fransa Senatı da bu siyasətin davamı olaraq belə qətnaməni qəbul edib: "Qətnamədə Azərbaycan neft və qazının Avropaya ixracını xüsusi diqqət edilir, bununla da Avropa İttifaqında problem yaratmağa cəhd göstərilir.

Zamanında Avropa İttifaqının nümayəndələri Azərbaycana gələrək cənab Prezident İlham Əliyevlə görüşüb, ölkəmizin neft və qazına xüsusi maraq göstəriblər, hətta müvafiq razılaşma da əldə edilib. 20-30 min erməniyə müstəqillik tələb etməklə Fransa absurda yol verir və bundan utanmır. Həmçinin Azərbaycanın Laçın dəhlizindən çıxmasını istəyir.

Son 30 ildə Ermənistanın yanında olan Fransa Makron dövründə daha da irəli gedib. Bu gün Markron Avropa İttifaqına, UNESCO-ya öz təsirini göstərir. Təsadüfi deyil ki, Mehriban Əliyeva bu yaxınlarda UNESCO-nun xoşməramlı səfir vəzifəsindən imtina edib. Bu, elə Fransaya, UNESCO-ya və Makrona zərbədir. Amma bunlar nəticə çıxaracaqmı? Mən inanmıram. Çünki başdan-ayağa faşist Ermənistanı dəstəkləmək yolu seçiblər. Mən təklif edirəm ki, Fransa ilə diplomatik əlaqələr dayandırılsın".

### *Fransa düşmən dövlət elan edilməlidir*

**Deputat Tahir Kərimli** isə bildirib ki, "Fransa düşmən dövlət elan edilməlidir".

O qeyd edib ki, fransızlar tarix boyu çoxlu qan töküb: "Düşmən necə olur?! Hesab edirəm ki, Fransa əsl düşməndir. Ona görə də Fransa düşmən dövlət elan edilməlidir. Düşmənçiliyin bundan artıq səviyyəsi olmaz. 1500 il bundan dünyanın əksər dövlətləri dünya üzərində yox idi. Bu nə ağıldır? Yalnız bir səbəb var ki, türk və müsəlmanlara qarşı ciddi nifrət var. Təklif edirəm ki, təcili şəkildə Fransada olan səfirimiz məsləhətləşmələr üçün bağlı geri çağırılsın. Azərbaycandakı Fransa səfirliyi, bütün diplomatik korpus hamısı bizə lazım deyil. Onların şirkətləri belə halda bizə lazım deyil.

Bu andan dövlətimiz ətrafında milli birlik yaratmaq lazımdır. Özünü demokratik elan edən Fransa bizlərə zülm edir. Ayıq olmalıyıq və vahid mövqedən çıxış etməliyik. Biz nə qədər ki, Fransanın məkrli planlarına qarşı çıxanlarla diplomatik və digər əlaqələri gücləndirməliyik. Tək öz qüvvəmizə inanıb düşməni zəif bilməməliyik. Düşmən astanamızdadır. Xalq bilməlidir ki, hər an başımıza iş gələ bilər".

### *Onların genetik kodunda insan öldürmək, soyqırım törətmək uyğunluğu var*

"Fransa nə üçün Ermənistana sevgi bəsləyir?! Tarixə nəzər yetirsək görərik ki, hər ikisi çoxlu qətllər törədib. Deməli, onların genetik kodunda insan öldürmək, soyqırım törətmək uyğunluğu var". Bu sözləri isə **Milli Məclis sədrinin müavini Fəzail İbrahimli** çıxışı zamanı deyib.

O qeyd edib ki, Fransa senatının qəbul etdiyi qətnamə təkcə erməni sevgisindən irəli gəlmir: "Bu, tarix boyu türk dövlətlərinin güclənməsinə qarşı çıxmaqdan qaynaqlanır. Bir atalar misalı var: "Dəyirman bildiyini edir, ancaq çak-çak baş ağrıdır". Güclü millətin zəfər addımı bütün dünyaya nümunə olmalı və lazımi nəticələr çıxarılmalıdır. Azərbaycan bu günə qədər həmişə özünün haqq səsini qaldırır və bundan sonra da öz torpaqlarını müdafiə edəcək".

Sədr müavini əlavə edib ki, Azərbaycanın Vətən müharibəsində qazandığı qələbə ilə türk xalqının regionda söz sahibinə çevrilməsi xristian qərb dövlətlərini narahat etməyə bilməz: "Təəssüf ki, bu sırada İran çox canfəşanlıq edir. Minlərlə insanın İranın gözü qabağında qətlə yetirilməsi, faciələr törədilməsi, Xocalı soyqırımının baş verməsi, məscidlərin murdarlanması və digər hallar məzh xristian dövlətlər tərəfindən törədilir.

Bütün bu əməllərdən xəcalət çəkmək əvəzinə ermənilərin yanında dururlar. İran parlamentinin bəzi üzvləri hövsələdən çıxıb bütün qırmızı xətti keçib məsləhətlər verirlər. Azərbaycan müstəqillik əldə edəndən başlarına daş düşüb.

Bütün varlıqları ilə sağdan-soldan Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirirlər. Bu gün İran orada baş verən hadisələrdən nəticə çıxarmalıdır. 30 milyonluq insanın hissləri ilə oynamaq olmaz. Hesab edirəm ki, İran parlamentinin deputatlarının özləri tarixə qayıdıb atdığı əməllərdən peşmanlıq çəkməlidirlər".

### *Fransa Senatını münaqişəni yenidən alovlandırmaq cəhdlərindən əl çəkməyə çağırırıq*

"Biz Fransa Senatını Cənubi Qafqazda baş verən hadisələrə qanunsuz müdaxilə etmək, xalqların taleyi ilə oynamaq, Ermənistanı təcavüz qurbanı kimi qələmə vermək, tarixə qovuşan münaqişəni yenidən alovlandırmaq cəhdlərindən əl çəkməyə çağırırıq". Bunu isə **Milli Məclisin sədri Sahibə Qafarova** parlamentin plenar iclasında deyib. S.Qafarova bildirib ki, "Şübhə yoxdur ki, yalançı erməni təbliğatının təsiri altında və siyasi devidentlər əldə etmək niyyəti ilə Fransa Senatının qəbul etdiyi qətnamənin mənfi nəticələri üçün məsuliyyət bütövlüklə Fransa tərəfinin üzərinə düşəcək".

### *Riyakarlıq...*

Sonda Milli Məclis **bəyanat** qəbul edib. Bəyanatda bildirilir ki, BMT-nin Təhlükəsizlik Şurasının daimi üzvü kimi beynəlxalq səviyyədə tanınmış ərazilərimizin 20 faizinin 30 ilə yaxın davam edən işğalına göz yuman, səs verdiyi qətnamələrin icrasını Ermənistandan tələb etməyən Fransanın delimitasiya olunmamış Ermənistan-Azərbaycan sərhədində baş verən silahlı toqquşmada Ermənistanın suverenliyinin pozulmasını iddia etməsi riyakarlıqdır.

Fransaya törətdiyi qətliamların və vəhşiliklərin bir qismini xatırladan bəyanatda Milli Məclis Hökumətə çağırış edib:

**1. Fransa Hökuməti tərəfindən bitərəflik təminatı verilməyənədək onun Azərbaycan ilə Ermənistan arasında normallaşma prosesi ilə bağlı təşəbbüs və fəaliyyətlərdə iştirakına imkan verilməməsi, bu məsələlər barəsində Fransa rəsmiləri ilə hər hansı müzakirənin aparılmaması.**

**2. Fransa rəsmilərinin Azərbaycanda hər hansı aktivlərinin aşkar edildiyi təqdirdə onların dondurulması.**

**3. Fransa şirkətlərinin Azərbaycan dövlətinin sifarişi ilə həyata keçirilən hər hansı layihədə iştirakına yol verilməməsi.**

**4. Fransa şirkətlərinin Azərbaycan tərəfi ilə enerji sektorunda əməkdaşlığına yenidən baxılması.**

**5. Azərbaycan Respublikası ilə Fransa Respublikası arasında mövcud olan siyasi və iqtisadi münasibətlərə yenidən baxılması.**

**6. Qoşulmama Hərəkatının sədri kimi, Fransanın müstəmləkəçilik siyasəti, insanlıq əleyhinə cinayətləri və hərbi cinayətləri ilə bağlı məsələlərin beynəlxalq təşkilat çərçivəsində qaldırılması.**

**7. Fransanın islamofobiya siyasəti məsələsinin İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində gündəliyə çıxarılması.**

**8. Fransanın türkofobiya siyasəti məsələsinin Türk Dövlətləri Təşkilatı çərçivəsində gündəliyə çıxarılması.**

**Nicat Novruzoğlu**

# Baydenin partiyası senatda çoxluğunu saxlaya bilər

**Noyabrın 8-də ABŞ -da nümayəndələr palatasına keçirilən seçkilərdə 435 yer uğrunda mübarizə davam edir.**

**The Associated Presin verdiyi məlumatlara görə, respublikaçıların mütləq qələbəyə inamı özünü doğrultmur. Demokratlar, respublikaçıların bir çox seçki dairələrində qalib gələcəyinə ümidlərini boşa çıxarmaqdadır.**

Düzdür, hələ ki, seçkilərdə respublikaçılar liderlik edirlər, lakin nəticələr onların hesabladıqları kimi alınmır. İlkin hesablamalara görə, demokratlar nümayəndələr palatasında özlərinə hələ ki, 172 yeri təmin edə biliblər, respublikaçılar isə 199. KİV-lərin təqdim etdiyi nəticələr də fərqlidir. Reuters agentliyi demokratların 173, respublikaçıların 198, CNN-in məlumatlarına görə isə fərq 178-199-dur. Pakatada üstünlüyün təmin edilməsi üçün tərəflərdən biri ən azı 218 mandat qazanmalıdır. Ona hörə də respublikaçıların qələbəsindən danışmaq hələki tezdir. Buna baxmayaraq respublikaçılarln palatadakı lideri Kevin Makkarti bəyan edib ki, nümayəndələr palatasındakı üstünlüklərini pərpa ediblər. Onun aşağı palatadakı demokrat rəqibi, palatanın hazırki spiketi Nensi Pelosi isə hələki məğlubiyyətlərini etiraf etmək istəmir. Senatda isə, 100 yerdən 35-i uğrunda mübarizə gedir. Respublikaçılara senatda nəzarəti ələ almaq üçün bir yer qazanmaları da kifayət etməlidir. Lakin, deyəsən onlar bu bir yeri də qazanmaq ümidlərini itirirlər. Pensilvanidə onlar artıq qalib gələ bilmirlər. Ona görə də, 35 yerdən qalan 4 yer uğrunda onlar ən azından ikisində qalib gəlməlidirlər. Bacaracaqlarmı? Bacarmasalar Baydenin partiyası yenə də senatda üstünlüyünü saxlayacaq.

**Rüstəm Hacıyev**

# "Göyçə Zəngəzur Respublikası"nın qurucularına açıq məktub



**Uzun müddətdir camaat arasında səslənən və çoxlarının mənə yönəltdiyi "Hoca, Göycə Zəngəzur Cümhuriyyətinin nə işi var" sualına fikir vermirdim, çünki məsələyə ciddi yanaşmıram.**

**Üzərində dayanmağa belə ehtiyac duymadığım mövzunu nə hüquqi, nə siyasi, nə də əxlaqi baxımdan qəbul etmirəm və adını əvvəllər heç vaxt eşitmədiyim üç-beş adamın xırda məşğuliyyəti sayıram. Bu məsələ, belə demək mümkünsə, yavaş-yavaş nəzarətdən çıxıb və hüdudlarını aşıb.**

**Azərbaycanın dövlət bütövlüyünü pozmaq üçün bu insanları müxtəlif mülahizələrlə təşkilatlandıran, bu işin öhdəsindən gəlməyə can atan insanlara rast gəlirəm. Və belələrinə açıq məktub yazmaq qərarına gəldim.**

**"Tarixi bilmədiyiniz üçün xəbərsiz ola bilərsiniz, odur ki, anlaya biləcəyiniz şəkildə izah etməyə çalışım (müəllim kimi peşə vərdişi);**

**Göyçə də, Zəngəzur da Can Azərbaycanın ayrılmaz və tarixi torpaqlarıdır.**

**Azərbaycan dövləti və milləti ilə dünyadakı bütün soydaşlarımızla bir yumruq olmaq strategiyasını həyata keçirərək uğurlu nəticələr əldə etdiyi bir vaxtda, maraqlıdır, Göyçə Zəngəzur Türk Cümhuriyyəti qurmaq iseyası kimdən və hardan gəlib?**

**Mənə çox maraqlıdır ki, Ankaranın gecəqondu məhəlləsində "elan edilən" qondarma Cümhuriyyət (!) Azərbaycanın adından və gücündən istifadə edərək kimə və nəyə xidmət edir?**

**Bu qondarma cümhuriyyəti quranlar, Göyçə və göyçəlilər və Zəngəzur və zəngəzurlulular adından danışmaq və çıxış etmək haqqını kimdən almısınız?**

**Həmin bölgələrin ziyalılarının rəyi dinlənilibmi?**

**Sorğu aparılıbmı?**

**Sizin bu addımınızın ən yüngül tərifi XƏYANƏTDİR.**

**Özü də təkcə Azərbaycana qarşı yox, "bir millət, iki dövlət" fəlsəfəsini Şuşa Bəyannaməsi ilə ittifaqa çevirdiyimiz Türkiyəmizdə fəaliyyətiniz İKQAT XƏYANƏTDİR!**

**Azərbaycan Türkiyə ilə bütün sahələrdə uğurla əməkdaşlıq edən, 23 min şəhid, 14 min yaralısə olan, bütün sahələrdə ayağa qalxmağı bacaran Qazi Vətəndir.**

**Sizin bu addımınızı ayağına daş dəyməsinə razı olmadığımız Türkiyədə atmağınıza icazə verməyəcəyik!**

**Bunu yaddaşınızda yaxşı saxlayın: Arazdan o yana, Zəngəzuru, Basarkeçəri, Astarası, Leriki, Qarabağı ilə Azərbaycanın şimalı və cənubu birdir, bütövdür.**

**Sapı özümüzdən olan baltalarla Qazi Vətənimi yaralamağa heç kimin haqqı yoxdur.**

**Birlik yolunda olanlara salam olsun.**

**Turan ellər var olsun.**

**Prof.Dr Aygün Əttar**
**Türkiyə Prezident Administrasiyasının Təhlükəsizlik və Xarici Siyasət Komitəsinin üzvü,**
**Türkiyə-Azərbaycan Dostluq Əməkdaşlıq və Həmrəylik Fondunun prezidenti**

## *Rauf Denkdaşın ruhu şaddır...*



**Şimali Kipr Türk Cumhuriyyətinin 39-cu ildönümündə mərhum qurucu lider Rauf Denkdaşı və Şimali Kiprin azadlığında əməyi olan Türk böyüklərini hörmətlə anırıq!**

**2005-ci ildə o vaxt çalışdığım "ƏDALƏT" qəzetinin xüsusi müxbiri kimi mərhum Rauf Denkdaşla müsahibə götürərkən onun nə qədər iradəli olduğunu və ölkəsinin tanınması üçün nə qədər əziyyətlər çəkdiyini, amma kutsal mübarizəsindən dönmədiyinin bir daha şahidi olduq.**

**Qərbin Türklərə qarşı ədalətsiz mövqeyi hər zaman görülmüşdür. Buna baxmayaraq Türkün gücü və birliyi bərpa olunduqca öz haqlı davamızda qalib olduğumuz günləri hamımız yaşamaqdayıq.**

**Şükürlər olsun ki, quruluşunun 39-cu ilində Şimali Kipr Türk Cumhuriyyəti Türk Dövlətləri Təşkilatında(TDT) müşahidəçi kimi iştirak etdi. Dəyərli TDT üzvü olan dövlət böyüklərbimizə bir daha təşəkkür edirik və arzu edirik ki, gələcəkdə müstəqil dövlət olaraq Şimali Kipr Türk Cumhuriyyəti də bu təşkilata əsl üzv olsun...**

**İqbal Alısoy**

*Naibə Qurbanova*

# Amerika belə dövlətdir



*İndiki Amerika səfirliyinin yerində köhnə məhlə varıydı, gəncəli Maya xala yaşayırdı orada uşaqlarıyla. Ərazini ondan almaq üçün yazığı vərəmlətdilər... Çox hadisələr baş verdi orada. Qəzetlərin manşetiydi. ANS-in müxbirləri olayı əzbərləmişdi, orada qeydiyyatda olanları adbaad tanıyırdılar.*

*Orada vaxtilə Milli Qəhrəman Şikar Şikarov da yaşamışdı. Sakinlər ərazidən çıxmamaq üçün şəhidin xatirə lövhəsindən istifadə etmək istədilər, xeyri olmadı.*

*Ərazidə Amerika səfirliyi üçün bina tikdilər, şəhidin xatirə lövhəsini də guya hörmət əlaməti olaraq binanın hasarına yapışdırdılar. Hasarın çöl tərəfinə. İçəri özlərinin ərazisi sayılır.*

*Əvvəl adamlar lövhənin böyür-başına skoçla gül yapışdırırdı, sonra ona da icazə vermədilər. Binanın hasarı da hasara alındığı üçün xatirə lövhəsinə də yaxınlaşmaq olmur daha.*

*Amerika belə dövlətdir.*

*Bizim qəhrəmanın yaşadığı yerin izini itirir, başqalarının isə olmayan faciələrinə göz yaşı tökür. Rusiya-Ukrayna müharibəsi başlayandan da Ukraynanın bayrağını hasarına həkk eliyib. Özü də hasarın çölünə. O müharibədən bizdə də olmuşdu, o uşaqlardan bizdə də ölmüşdü, o köçkünlərdən bizim də var... 44 gün ərzində bayrağımızı nə hasarın içində gördük, nə də çölündə.*

*O gün oxudum ki, səfirlik yeni bina tikmək üçün Bakıda torpaq sahəsi almaq niyyətindədir. Könül istərdi ki, onlara elə yerdə torpaq verələr, nə içi görünə, nə çölü.*



Faiq QİSMƏTOĞLU
faiqqismetoqlu@box.az

# Adamın lap əti tökülür ey!

...Bilmirik, zəmanədəndir, ya da başqa bir şeydən. Amma indi ölkəmizdə kimin əlinə mikrafon keçirsə, oxumağa başlayır və elə bilir ki, kişinin oğlu oxuyur. Amma oxumur ey, qarğa kimi səs çıxarır. Yadıma Molla Nəsrəddinin bir lətifəsi düşür: Molla Nəsrəddin bir gün gedir şahın yanına, deyir ki, padşah aləmi sağ olsun, mənim yaxşı səsim var! Şah da deyir:

- Oxu, qulaq asaq!

Molla:

- Hamam olsa, orda oxuyaram!

Padşah bir yerə baxır, bir də göyə və dillənir:

- Rəhmətliyin oğlu, indi hamımız gedib hamamda oturmalı və sənin səsinə qulaq asmalıyıq?!

Molla əlavə edir ki, hamam olmasa da yola vermək olar. Bir tuluğ gətirsinlər, o tuluğa başımı salım və oxuyum! O tuluğu gətirirlər, molla başını tuluğa salır və oxumağa başlayır.

Padşah görür ki, onun səsi qarğa səsinə bənzəyir və oxumaq da bir şey deyil, əsəbiləşir və hökm edir:

- Tuluğun suyu quruyana qədər mollanı şallaqla döyərsiniz! - deyib gedir.

Mollanı soyundururlar və başlayırlar şallağı suya salıb mollanın kürəyinə çırpmağa. Hər şallaq vurulanda molla səslənir:

- Allah, sənə şükür!

Şallaqçı soruşur ki, molla, Allaha niyə şükür edirsən?

O da qayıdıb bildirir ki, çünki hamamda oxusaydım, onun suyu qurtarmayacaqdı. Amma tuluğun suyu qurtaracaq, canımı bir daha xilas edəcəm!...

...O hadisədən sonra bir daha molla oxumağı dilinə gətirmir. İndi bizim "oxuyanlara" da bax, belə bir dərs vermək lazımdı. "Oxumaq, oxumaq, yenə də oxumaq". Bu sözləri Lenin deyib. Bizimkilər də elə başa düşür ki, mahnı oxumaq lazımdır. Bu gün əlinə mikrafon götürən, ağzı olan oxuyur. Aparıcı oxuyur... Aktyor oxuyur... Televiziyaya tamaşaçı kimi gələn oxuyur... Bir sözlə, kim efirə çıxırsa, hamısı oxuyur!... Onlar oxumurlar ey, xoruz kimi banlayır, qarğa kimi səs çıxarırlar!...

Şəbnəm Tovuzlu sanki qışqırır, rəhmətlik xalq artisti Əlibaba Məmmədov "Muğam" müsabiqəsində iştirak edənlərə deyərdi ki, ay bala, qışqırma, oxu! Oxumaq qışqırmaq deyil, qışqırmaq da oxumaq!

İndi yenə oxuyanların 80-90 faizi qışqırır və qarğa kimi səs çıxarır. Bunu da eşidəndə adamın lap əti tökülür. Şəxsən mən oxumağı gözdən saldıqlarına görə ən yaxşı müğənnilərə belə qulaq asmaq istəmirəm. Bir gündə bütün televiziya kanallarında səhərdən axşama qədər ancaq "oxuyurlar".

Manaf Ağayevin qəşəng bir sözü var: "İndiki oxuyanların 80 faizini o vaxtkı toylara heç kim aparmazdı. Çünki bizim də oxuduğumuz o toylarda ən azı 10-12 saat müğənni canlı ifa eləməli idi. İndikilər isə əksəriyyəti canlı ifadan qaçır, fonaqrama səsləndirir".

Mən dəfələrlə Manaf Ağayevin Füzuli toylarında yayın istisində 10-12 saat canlı oxuduğunun şahidi olmuşam. Bu müddətdə 3-4 köynək dəyişib və toyu axıra qədər çox gözəl aparıb. İndi bir çoxları Manafı qınayırlar. Düzdü, o, istəsə muğam da oxuya bilər, xalq musiqisi də, hətta estrada mahnıları da. Onsuz da oxuyur, amma sadəcə olaraq elə bilirlər ki, Manaf bu səviyyəyə asan yolla gəlib. Vallah, elə deyil, onun nələr çəkdiyini və hansı əziyyətlə yaşadığını mən görmüşəm.

Bax, indi oğul lazımdır, toylara gəlib onları aldadan və fonaqrama ilə oxuyan müğənniləri o toy sahibi ordan qovsun və bir ətək pul verməsin. Rəhman Məmmədli deyir ki, bir dəfə televiziyada reklam olunan bir qadın müğənnini özümlə toya aparmışdım. Daha doğrusu, toy sahibi demişdi ki, həmin müğənnini gətir! Toy başladı, müğənni fonaqrama oxudu. Toyun yiyəsi də bunu bildi və az qaldı gitaranı götürüb mənim başıma çırpsın. Dedi ki, ay rəhmətliyin oğlu, bu ki, oxuya bilmir, qarğa kim səs çıxarır! Bəs belə idisə niyə toya gətirirdin? Rəhman da deyib ki, günah məndə deyil. Sənin özün xahiş etdin ki, o müğənnini gətirim, mən də sənə xatırlatdım ki, bax, o canlı oxuya bilmir ha!

Görürsünüzmü, səsi olmayan müğənnilər hansı vəziyyətə düşür. Zaur Baxşəliyev də oxuyur, hətta onu tərifləyirlər ki, çox yaxşı oxuyursan. O, özünə və sənətinə hörmət etsə, əlinə mikrafon alıb böyük sənət adamlarının qarşısında mahnı oxumaz. Özləri bilər! Amma Zaurun yekə bir gopu da mənim yadımdan çıxmır. Deyir ki, bir dəfə zəng elədilər, məni toya aparıcı kimi dəvət elədilər. Mən də ağzıma gələn bir qiyməti dedim. Dedim ki, 50 min verin, gəlim toyu aparım! Toy sahibi də bildirdi ki, onda beh göndərirəm. Siz indi, inanırsınız ki, hansısa aparıcıya kimsə 50 min pul versin?! Bu gopdan və reklamdan başqa bir şey deyil. Onsuz da müğənnilərin və aparıcıların danışdıqları sözlərin çoxuna tamaşaçılar inanmır.

Gözəl mahnıları, gözəl musiqiləri və gözəl ifaları əlinə mikrafon götürüb səsi olmayan adamlar oxumasalar yaxşıdı. Çünki onlar oxumurlar ey, tamaşaçıların əsəbi ilə oynayırlar. Elə bilirlər ki, on milyonluq xalqın hamısı onlara tamaşa edir. Amma heç kim özünü aldatmasın. Ən yaxşı halda belə verilişlərə 600, 700 min adam baxa bilər! Çünki o verilişlərə baxanda şəxsən mənim bir tamaşaçı kimi ətim tökülür və musiqidən iyrənirəm. Siz Allah, camaatı və tamaşaçıları qarğa səsinizlə yormayın və incitməyin! O mahnıları da yazan bəstəkarların və şairlərin ruhunu narahat eləməyin!

## Mənzilinizdə istilik var?!



**Noyabrın 15-dən "Azəristiliktəchizat" ASC Bakı şəhərindəki yaşayış binalarına, sosial obyektlərə, məktəblərə və uşaq bağçalarına istilik verməlidi. Tərs kimi havalar da noyabrın 14-ü axşamından soyuyub və paytaxtda fasiləsiz yağış yağır. Təbii ki, belə havada mənzillər qızdırılmalıdır. Bəs əsl həqiqət necədir? Bakıda bütün mənzillərə istilik verilirmi?!**

Başqasını deyə bilmərəm, Suraxanı rayonunun Yeni Günəşli yaşayış sahəsinin "D" massivindəki binalara və o cümlədən bizim 13-cü binaya noyabrın 15-i olsa da, hələ ki istilik verilməyib. Ümumiyyətlə, həmişə bizim yaşadığımız binaya istilik noyabrın 21-dən sonra verilir. Əslinə qalsa, binalara istilik noyabrın 1-dən verilməlidi. Sovet dövründən qalma, qanuna görə isə istilik noyabrın 15-də verilir. Bu barədə açıqlama verən "Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən İlham Mirzəliyev bildirir ki, bu məsələ tezliklə həllini tapacaq. Mövsümün tez və yaxud gec başlanmasını təyin etmək təkcə bizim səlahiyyətimizdə deyil. Bu məsələyə müxtəlif dövlət qurumları kompleks yanaşmalı və geniş fikir mübadiləsi aparmalıdır. Amma bu məsələ bizim gündəmimizdədir.

Göründüyü kimi, hökumət və məlum qurum da çalışır ki, havalar soyuyan kimi əhalini istiliklə təchiz etsin. Təki belə olsun! Kor nə istər: iki göz - biri əyri, biri düz!

**Emil FAİQOĞLU**



Rza Rzayev,
Rejissor, aktyor

# Əsrimizin ən böyük şiəsi - Ərdoğan

**Böyük Ərdoğan: "Həzrəti Hüseynin safında durmuş kimi yezidcəsinə hərəkət etmək Quranın və Əhli Beytin ruhuyla asla və asla bağdaşmaz".**

İllər öncə məzhəblər haqda bir məqalə yazmışdım, sadə insanlardan tutmuş sayılan din alimlərimizə, millət vəkilimizə kimi zəng edəni, mesaj yazanı oldu, hamısı da təhlilin və yanaşmanın doğru olduğunu və bəyəndiklərini söylədilər.

Bu yazımda məzhəb məsələsinə toxunsam da, dərdim başqadır.

Dünyada yeni proseslər gedir, amma bu proseslər ən azı 30 il öncə müəyyən edilib və yönləndirilir.

Siyasət coğrafiyası deyilən anlayış var və banisi Ratzeldir. Amma ilk dəfə geopolitika terminini Rudolf Kjellen işlətmişdir və coğrafiyanın dövlətlərin var olmasında mühüm yer tutduğunu söyləmişdir.

Və müxtəlif adlarda klassik siyasət nəzəriyyələri və müasir siyasət nəzəriyyələri var, yeni dünyada gedən proseslər təsadüfi deyil, məqsəd üzrə yönləndirilir.

Liberalizm ilə sosializmin davası SSRİ-nin dağılması ilə bitdi, dünya yeni fikrə, yeni baxışlara ehtiyac duydu, yeni yeni savaşlara...

Soyuq müharibə bitdikdən sonra, yeni 90-cı illərin əvvəllərində yeni siyasi tezislər ortaya atıldı. Bunlardan ikisi - Fukuyamanın "Tarixin sonu" və Samuel Hantinqtonun "Mədəniyyətlərin savaşı" tezisləridir.

Hantinqtonun tezisi daha çox müzakirəyə səbəb oldu və zaman-zaman dünyada gedən proseslərdə özünü göstərdi.

Sözsüz ki, bu tezislər də məqsədli yazılıb, əsl gerçəklərin, məqsədlərin üstü torpaqlanıb və izi azdırmaq üçün içinə bir neçə gerçəklik qatılıb, yeni gələcəkdə baş verəcəklərdən bir neçəsini dəqiq yazıblar ki, yazılanlar gerçəklik kimi qəbul edilsin.

Hantinqtonun tezisinin əsasını təşkil edən ana xətt budur ki, ideoloji və iqtisadi müharibələr bitdi, bundan sonra mədəniyyətlərin (dinlərin, çünki mədəniyyətlərin əsasını dinlər təşkil edir) müharibəsi başlayır, dünyada bundan sonra 7-8 mədəniyyət qalacaq, onların içində Qərb üçün daha təhlükəlisi İslam ilə yanaşı Rus və Çin mədəniyyətləridir.

Və gəlin görək Hantinqton nə qədər düzünə danışır. Bu gün isə baş verənlər başqadır, Qərbin və Amerikanın əsrlərdir müəyyənləşmiş məqsədlərində üz dəyişikliyi olsa da, mahiyyət və məzmun dəyişməyib. Qərbin məqsədləri eyni qalıb. Bu gün böyük və güclü xristian dövlətlərinin (eyni mədəniyyəti bölüşənlərin) çoxu xristian dövləti olan Rusiyanı hədəf alıblar, Rusiyanı məhv etmək istəyirlər.

Bu dövlətlərin Rusiya ilə məzhəb ayrılıqları var, amma düşmənçiliyə səbəb məzhəb ayrılığı da deyil. Dünya gücləri bu gün Rusiya üzərinə hücumu həm də eyni məzhəb daşıyıcısı olan Ukrayna dövləti üzərindən təşkil ediblər. Ruslar ilə ukraynalıların eyni məzhəb daşıyıcısı olmaları belə onların arasında bu gün gedən mübarizəni, düşmənçiliyi ortadan qaldıra, önləyə bilmir, səbəb - milli və dövlət maraqlarıdır, yeri gələndə, din və məzhəb yada düşmür. Hantinqtonun tezisi işləmir.

Və İranın bir çox dövlətlər və Azərbaycan ilə arasında məzhəb bağlılığı var. Məzhəb eyniliyi olan başqa dövlətlər (məsələn Tacikistan, Suriya, İraq) Azərbaycan qədər İran ilə iç-içə deyil, çünki bugün İran adlanan dövlətdə əsl mənşəyi türk olan 40 milyona yaxın Azərbaycanlı yaşayır.

Və buna diqqət edək, dünya gücləri Rusiyanın qarşısını kəsmək üçün istifadə etdikləri taktikadan Azərbaycana qarşı da istifadə edirlər, eyni məzhəbdən olan dövləti üzərimizə salırlar.

İran uzun illərdir, yəni 90-cı illərin əvvəllərindən ermənilərə və PKK-ya dəstək verir, müsəlman Türkiyəsinə və məzhəb eyniliyi olan Azərbaycana qarşı durur, onları qonşuluğunda zəif salmaq istəyir.

Və İran (farslar) erməniyə (Türk düşməninə) verdiyi dəstəyə haqq qazandırmaq istəyir, bizi İsrail ilə əlaqədə suçlayır. Əslində isə Azərbaycan xalqı 1992-ci ildə Xocalı genosidi törədiləndə və torpaqlarımız işğal olunanda dəstəyi İrandan gözləyirdi, İsrail dövlətindən yox. O vaxt İran rəsmiləri Azərbaycan və Ermənistan rəsmilərini İranda görüşdürdülər, guya vasitəçilik edirlər və nəticədə Şuşa işğal edildi.

Və həmin zaman kəsimində İranın erməniyə satdığı Şuşa uğrunda sona qədər döyüşən, Şuşanı öz canı hesabına qorumağa çalışan və sonda şəhid olan yəhudi balası Albert oldu.

İndi biz müsəlmanı (Azərbaycanı) qoruyan İsraili (yəhudini) sevməliyik, ya Ermənistana (Türk və müsəlman düşməninə) dəstək verən İranı?!

Və İran niyə belə edir, qarnının sancısı nədir?

İslam dünyasına məxsus milli dövlətlər var və bu milli dövlətlərin milli maraqları və məqsədləri var, bu milli dövlətlər milli maraqlarını həyata keçirmək üçün, varlıqlarını qorumaq üçün fərqli məzhəb seçimi ediblər. Məzhəbləri siyasiləşdiriblər, dindən dövlət maraqlarını həyata keçirmək üçün istifadə edirlər, yəni dövlətləri din üçün deyil, din dövlətləri üçündür.

Siyasiləşmiş əsas məzhəblər, təriqətlər bunlardır, şiəlik (Cəfərilik - İranda), Sələfilik (vəhabizm - Səudiyyə Ərəbistanında), nurçuluq (FETÖ - Türkiyədə) və hər üçü də Türkə və Türkiyəyə qarşı siyasiləşdirilib, Türkiyəni zəif salmağa çalışıblar, gücləri çatanda havadarlarının hesabına Türkiyəni arxadan vurublar.

Və bir daha söyləyirəm, farslar milli dövlətlərini qorumaq üçün şiəlikdən istifadə edirlər, bu qaydadır (buna pis baxmaq lazım deyil). Bizim də milli dövlətimiz var, dövlət və milli maraqlarımız var, biz də maraqlarımızı qoruyuruq. Zaman, dövr gəlib, illərdir pozulan hüquqlarımızı, tapdanan haqlarımızı, itirilən ərazilərimizi bərpa etmək gücü qazanmışıq, bu gün (əslində həmişə) farslar ilə maraqlarımız üst-üstə düşmür, İran ilə üz-üzə qalmışıq.

İran da özünü Müaviyyə, Yezid kimi aparır, Həzrəti Hüseyn kimi haqqını arayan, haqq yoluna çıxan Azərbaycana xox gəlir. İran Müaviyyəni, Yezidi söyəsöyə Müaviyyə kimi, Yezid kimi yolumuzu kəsməyə çalışır, sərhədimizə qoşun yığır, təlim keçir, amma gec qaldığını anlamır.

Tofiq Fikrət demişkən,

"Zülmün topu var, gülləsi var, qəlpəsi varsa,

Haqqın da bükülməz qolu, dönməz üzü vardır".

İran müsəlman ölkələrinə liderlik etmək istəyindədir, amma bunun üçün heç bir əsası yoxdur, bu iddia yersizdir.

Birincisi, İrana (farslara) qarşı müsəlman dünyasında baxış birmənalı deyil, ikincisi, farsların İslam dünyasındakı yeri və etnik sayı buna imkan vermir, üçüncüsü farsların bunun üçün İslam tarixində öncələri yoxdur. Çünki Farslar İslamdan dövlət maraqları üçün istifadə edirlər, onları tək maraqlandıran budur, tarixdə ideoloji xətlərini dövlətlərini qorumaq üçün dəfələrlə dəyişiblər. Tarixdə şiəliyi daha çox yayan farslar deyil, şiəlikdən istifadə edənlər farslardır, şiəliyin daha çox yayılması da Türklərə bağlıdır, yəni Şaha.

Müsəlman ölkələrinə başçılığı tək Türkiyə haqq edir, İslam tarixində öncələri olan tək dövlət Osmanlı olmuşdur. Müasir Türkiyənin bunun üçün güclü, təcrübədən keçmiş ənənələri var. Sadəcə illərdir liderliyi iddia edən lider yox idi, amma bu gün O lider var və O, meydandadır.

Bir daha söyləyirəm, İranın şiəliyi təbliğ etməsi, farsların özlərini müsəlman edən ikinci Xəlifəyə nifrət yağdırması əslində Böyük Həzrət Əliyə, Həzrəti Hüseynə olan sevgidən doğmur, farsların milli və dövləti maraqlarından irəli gəlir. İran ənənəvi şiəliyi siyasiləşdirir, şiəlikdən istifadə edir, dövlət maraqlarını həyata keçirir, amma bu dəfə pis yerdə ilişib, ortada bütün dünya müsəlmanlarının haqqını qoruyan Böyük Ərdoğan var.

Və Böyük Ərdoğan mövcud Türkiyədən daha böyük olan Türkiyənin və daha Böyük Türkiyə üçün daha böyük olan İslam dünyasının davasını aparır.

Böyük Ərdoğan İslam dünyası ilə bərabər xristian dünyasının da haqq səsinə çevrilib. Nələr etdiyi göz önündədir. Sadalamağa ehtiyac duymuram.

Və Böyük Ərdoğan Həzrəti Əli, Həzrəti Hüseyn kimi haqqı tapdanan hər kəsin yanında var, dünya gücləri tərəfindən haqsız hücuma məruz qalan Rusiyanın, Rusiya tərəfindən haqsızlığa məruz qalan Ukraynanın yanında olur, yeri gələndə İranı da haqsız hücumlardan qoruyur, haqlı çıxış yolları arayır, xristian-müsəlman fərqi qoymur.

Osmanlı dönəmində osmanlıların etdikləri ən böyük səhv Cəfəri məzhəbini 5-ci məzhəb kimi qəbul etməmələri oldu. Nəticəsi hər birimizə məlumdur.

Amma Böyük Ərdoğan İslam dünyasının qurtuluşunun haradan keçdiyini dəqiq bilir. İslam və Türk dünyasının birləşə biləcəyi yeri də.

Böyük Ərdoğan şiəliyin müsəlman dünyası üçün nə qədər əhəmiyyətli olduğunu və kimlərin şiəlikdən dövlət maraqları üçün necə istifadə etdiyini dərindən dərk edir. Buna görə də uyğun zamanlarda bu barədə fikirlərini söyləyib.

İslam dünyasının qurtuluşu şiəlik (Şiə türklər) ilə sünniliyin (Sünni türklər) birləşməsi, bir əldə cəmləşməsindən keçir. Türkün etnik və mədəniyyət coğrafiyası buna imkan verir.

Qatı şiə olan bölgədə doğulmuşam, bu gün də qatı şiəyəm (Cəfərilik).

Bu haqda keçmiş məqaləmdə yazmışam, İrana qarşı olan haqlı hücumlar şiəliyə qarşı olmamalıdır, İran da haqsız hücumlara məruz qalanda müdafiəsinə qalxmışam, indi İran rəsmilərindən istədiyimiz odur ki, çəpərlərini tarixi yerlərinə çəksinlər, uzun illərdir etdikləri haqsızlıqdan əl çəksinlər, ədaləti bərpa edib qonşuluğu da adam kimi etsinlər.

Və Həzrəti Hüseyn İslamı və müsəlmanları xilas etmək üçün canından keçdi, müsəlmanların tərəfində durdu, Allahın yolunu tutdu.

Və Böyük Ərdoğan da bu gün İslamı xilas edir, məzhəb fərqi qoymadan müsəlmanların tərəfində durub, tərəfdara çevrilib, Allahın yolunu tutub.

Və bugün əsrlərdir heç bir müsəlman ölkəsinin liderinin şiələr üçün etmədiyini Böyük Ərdoğan edir.

**Və Böyük Ərdoğan etdikləri ilə sübut edir ki, dünya müsəlmanlarının ən böyük Şiəsi (tərəfdarı) Odur.**

# Dumanlı və yağışlı havalar...

**Belə havalarda avtomobilləri idarə etmək elə də asan deyil. Çünki həm görmə məhdudlaşır, həm də yollar sürüşkən olur. Xüsusən də respublika əhəmiyyətli avtomobil yollarında belə havalarda avtomobilləri idarə etmək dəfələrlə çətinləşir. Ən azından sükan arxasında olan sürücüdən yüksək təcrübə, səriştə və səbir tələb olunur. Ümumiyyətlə, səbri olmayan adam sükan arxasında əyləşməməlidir. Əyləşirsə deməli, hər an hər hansı qəzanın baş verməsi ehtimalı da artır.**

Baş Dövlət Yol Polisi İdarəsi Yol Patrul Xidməti Alayının 3-cü tağımının əməkdaşları da Bakı-Şamaxı-Yevlax avtomobil yolunda tez-tez mürəkkəb hava şəraiti ilə əlaqədar olaraq hərəkətin təhlükəsizliyini həyata keçirirlər. Yəni bu istiqamətdə payız və qış mövsümündə nəqliyyat vasitələrinin hərəkəti bir o qədər də asan olmur. Çünki tez-tez yağışların yağması, qışda yolların buz bağlaması istər-istəməz avtomobillərin hərəkəti üçün bu və ya digər dərəcədə problemlər yaradır. Amma bu problemləri 3-cü tağımın əməkdaşları əvvəlcədən görür və qabaqlayıcı tədbirlər gerçəkləşdirirlər. Bu tədbirlər ondan ibarətdir ki, qatı düman olanda və fasiləsiz yağış yağanda tağımın əməkdaşları sərt döngələrdə və hərəkətin digər mürəkkəb istiqamətində yolda xidməti gücləndirirlər. Çünki bəzi sürücülər metroloji şəraiti nəzərə almır və nəticədə ağır qəzalar baş verir.

Əgər düşünsək ki, Bakı-Şamaxı-Yevlax avtomobil yolunda sərt döngələr çoxdur, bax, onda həmin istiqamətdə yol polisinin xidmətinə və sürücülərin də maariflənməsinə çox böyük ehtiyac var. Yolları qatı duman alanda polis əməkdaşları sürücüləri saxlayır, onları maarifləndirir, işıq cihazlarından istifadə etməyi tövsiyə edir və ara məsafəsi saxlamağı məsləhət bilir. Yol Patrul Xidməti Alayının 3-cü tağımının komandiri, polis mayoru Ürfət Şükürov bildirir ki, metroloji şəraitə uyğun olaraq xidməti yüksək səviyyədə təşkil edirik. Sərt döngələrə və mürəkkəb şəraiti olan yerlərə əlavə naryadlar göndəririk. Ümumiyyətlə, sürücülər bu istiqamətdə hərəkət edərkən hava şəraitini və sərt döngələri mütləq nəzərə almalıdılar. Fikirləşməlidilər ki, bu istiqamətdə kifayət qədər sərt döngələr var. Dumanlı havada isə uzaq məsafədən bu sərt döngələr görünmür. Ona görə də sürücülər hava şəraitinə uyğun sürət həddi seçməli, ara məsafəsi saxlamalı və yol polisinin tövsiyələrinə əməl etməlidilər. Bir faktı da qeyd edim ki, həyata keçirdiyimiz qabaqlayıcı tədbirlər nəticəsində ölümlə nəticələnən ağır qəzalar azalıb və xəsarətalma halları aşağı enib. Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı, polis kapitanı Toğrul Nəsirli də metroloji şəraitlə bağlı sürücülürə bir daha öz tövsiyələrini və məsləhətlərini verib. T.Nəsirli bildirib ki, dumanlı və yağışlı havalarda təcrübəsiz sürücülər sükan arxasında əyləşməməlidilər. Belə havalarda bir qayda olaraq, sürücülər avtomobilin arxa və qabaq işıqlarını yandırmalı, bütün təhlükəsizlik tədbirlərini həyata keçirməlidilər. Hər bir sürücü mürəkkəb hava şəraitində sürət həddinə əməl etməlidir. Piyadalar da dumanlı və yağışlı havalarda yol hərəkətin qaydasını pozmamalı, yolu keçərkən təyin olunmuş yerlərdən, yerüstü və yeraltı keçidlərdən istifadə etməlidir. Bir çox piyadalar isə günün qaranlıq saatlarında daha diqqətli olmalı, yolu keçərkən nəqliyyat vasitələrinin hərəkətinə əmin olandan sonra bu addımı atmaq lazımdır. Bir sözlə, bizim tövsiyəmiz odur ki, hər bir hərəkət iştirakçısı diqqətli olsun, heç bir yol-nəqliyyat hadisəsi və piyadavurma halları baş verməsin!





**Havaların soyuması, yollarda dumanın yaranması və eləcə də sürüşkən şərait bir daha hərəkət iştirakçılarından daha diqqətli olmağı tələb edir. Çünki belə mürəkkəb havalarda hər bir hərəkət iştirakçısının yol hərəkəti qaydasını pozması bədbəxt bir hadisənin baş verməsinə münbit şərait yaradır. Həyatınızı qorumaq istəyirsinizsə, yol hərəkəti qaydalarına riayət edin və özünüzün təhlükəsizliyinizə tam əmin olun!**

**Faiq QİSMƏTOĞLU**

Aqil ABBAS

# FUTBOLÇULAR BAHALI QULLARDI...

*Guya dünyada quldarlıq ləğv olunub və indi qul yoxdu. Amma əslində elə deyil, bir adamı işlədirlərsə və onun gördüyü işlər müqabilində, hətta ailəsini dolandıra bilməyəcək qədər qəpik-quruş verirlərsə, bu da qul əməyidir. Dünyanın hər yerində də var.*

*Bir də var bahalı qullar, bunlar da futbolçulardı. İstədikləri pulları verirlər və onlardan qul kimi istifadə edirlər. Həftədə bəzən 3 dəfə yaşıl meydançaya çıxarırlar. Ona görə də son illər nə qədər futbolçu elə meydançada da həyatını itirib, ya infarkt olub, ya da aldığı xəsarətdən futbolu ömürlük tərk edib. Bəxti gətirənlər isə 6-7 ay, 1 il meydanlardan uzaq düşür və sonda da formasını itirib gedir "Bakkuş" satmağa.*





*Futbol gözəlliyini itirib. İndi çeviriblər qumara. Əvvəllər futboldan ləzzət alanlar indi əzab çəkirlər. Hətta ev-eşiyini satıb futbol qumarına qoyanlar var, sonda da müflisləşib intihar edirlər. Korrupsiya futbola da ayaq açıb. Qətərdə dünya çempionatının keçirilməsi də buna bir misaldır.*

*Fransanın o vaxtkı prezidenti Sarkozi Qətərə 15 milyard dollarlıq təyyarə satmaq üçün UEFA-nın prezidenti Platinini yanına çağırıb göstəriş vermişdi ki, 2022-ci il Dünya çempionatını Qətərə sal. İndi bu işdə Sarkozi və Platini nə qədər pul qazanmışdı, bir Qətərin prezidenti bilir, bir də özləri.*

*VAR da təzə hoqqadır, guya hakim səhvini düzəldəcəklər. Amma artıq VAR-ın da necə "ədalətli" olduğu haqda müzakirələr gedir.*

*Və sonda. Azərbaycan çempionatı niyə keçirilmir? Niyə deyilmir Azərbaycan çempionatı? Niyə "Misli" çempionatı deyirlər?*

*La Liqa, Premyer Liqa, Bundes Liqa və bizdə də "Misli" Liqa...*

*Ötən il "Topaz" Liqa idi, bu il "Misli" Liqa, yəqin ki gələn il də "Poz Qazan" Liqa olacaq.*

Nicat Novruzoğlu



# ZARAFATSIZ, MÜDİR, BU İRAN BİZDƏN NƏ İSTƏYİR?

*Bizim müdir oxumuş adamdı. Özünün yazdığı kimi, "Tarixi-Nadir"i də axıradək oxuyub, Yunus Oğuzun "Nadir şah" romanını da iki dəfə oxuyub. Hələ bu azmış kimi Eminqueyin şeirlərini də əzbər bilir.*

*O gün aparıram Milli Məclisə, maşında da məni danlayır ki, sürücü deyilsən, yavaş sür, sağa dön, arxadan gələn maşına yol ver... Həmişə belədi. Mən də söhbəti fırlatmaq istədim. Dedim:*

*- Zarafatsız, müdir, bu İran bizdən nə istəyir?*

*Hirsləndi:*

*- Ə, zəhləmi tökmə, maşınını sür.*

*- Yox da, müdir, bir sözdü soruşuram da, oxumuş adamsan. Özü də iki dəfə öz maşınınla çerez İran Naxçıvana getmisən.*

*Yaralı yerinə toxunmuşdum. Bilirdim ki, hər iki səfərində İran sərhədçiləri ona çox əziyyət vermişdilər. Hətta dalaşmaq istəmişdi.*

*- Ə, İran canına azar istəyir. Görür ki, şimaldakı azərbaycanlılar adam kimi yaşayır, qorxur ki, cənubdakı azərbaycanlılar da adam kimi yaşamaq istəyər, ayağa qalxıb haqlarını tələb eləyər. Görürsən də indi qalxıblar, qarşısını ala bilmirlər. Özü də təkcə azərbaycanlılar yox, kürdlər də, farslar da day işgəncə altında yaşamaq istəmirlər. Peyğəmbər deyir ki, ya Əli, cənnət ananın ayaqları altındadı. Nə peyğəmbəri eşidirlər, nə də Əliyə biət edirlər. Anaların ayaqları altındakı cənnəti cəhənnəmə çeviriblər. Mollalar da Sovet liderləri kimi özləri kefdədi, əxlaqsızlığın adını da siğə qoyublar.*

*- Yox ey, müdir, bunları bildim. Bizdən nə istəyirlər?*

*- Ə, indicə dedim də. Bizim adam kimi yaşamağımızı gözləri götürmür. Görürlər ki, Azərbaycan gündən-günə inkişaf edir, dünyada söz sahibinə çevrilir. Görürlər ki, Qarabağı öz gücümüzə azad etdik, onların narkotrafikini bağladıq. Qarabağın sərvətlərini daşımağa mane olduq. Bacıları Ermənistanı məhv elədik. Day Ermənistana, Qarabağa silah-sursat daşıya bilmir.*

*- Müdir, İran müsəlman dövləti deyil?*

*- Xalq müsəlmandı, amma xalqı idarə edənlər müsəlmançılıqdan çox uzaqdı. Bir dövlət ki özünün nəinki müsəlman qardaşlarını, hətta məzhəb qardaşlarını qoyub Yezidin, Şümürün tərəfini saxlayırsa ona müsəlman demək olmaz.*

*- Müdir, bizdə bir çıqq olan kimi Amerika, Fransa tumanını çırmayır, gəlir üstümüzə. Niyə İrana da bir söz demirlər?*

*- Ə, dedim yavaş sür. Bir az kitab oxu da, tarix oxu. Xomeyni hakimiyyətə Fransadan gəlməmişdi? Şahı İrandan Amerika qovmamışdı? Üzdə düşmən olduqlarına baxma, gecə Amerikayla, Fransaylı bir yerdə yatırlar.*

*Çatdıq Milli Məclisə. Maşından düşəndə dedim:*

*- Müdir, icazə ver bir söz də soruşum.*

*- Ə, səfeh, guya əvvəl soruşduqlarından icazə istəmişdin ki? De görüm nə istəyirsən.*

*- Müdir, sən oxumuş adamsan da. De görüm İran dağılacaq, yoxsa yox?*

*- Dağılır dana. Amerika, Fransa, Rusiya mane olmasa lap bu yaxınlarda İran beş yerə parçalanacaq. Sovet hökuməti yetmiş il yaşadı, İran da uzağı qırx dörd il yaşaya biləcək. Qırx dörd ili də gələn il tamam olur.*

*P.S. Müdir özünəməxsus tərzdə, müdiri tanıyanlar yaxşı bilir o tərz nədi, danışırdı, məcbur olub ya gərək nöqtələr qoyardım, ya da redaktə edərdim. Ona görə də mən də belə oğlanam da, müdirin danışdığını redaktə elədim.*

## Yağışlar yağanda...

**Bakıya yağış yağanda bir qayda olaraq şəhərin müxtəlif yerlərində yaranmış gölməçələrin və su toplantısının əlindən tərpənmək mümkün olmur. Belə havalarda həddindən artıq su toplanmış yerlərdən avtomobillər keçə bilmir və hətta bəzi avtomobillər o gölməçənin içərisində qalaraq xarab olur, salona su dolur. Üstəlik də, bu cür mürəkkəb şəraitdə tıxacların da baş verməsi qaçılmazdır.**

Ona görə də Bakı bu cür mürəkkəb hava şəraitinə hazır olmalıdır. Dirinaj xətlər və kanalizasiya sistemləri normal işləməlidir ki, fasiləsiz yağan yağış sularını çəkib aparsın.

Amma təəssüf ki, biz hər yağış yağanda bunun əksini görürük, kanalizasiya sistemlərinin normal işləməməsi nəticəsində küçələrdə gölməçələr yaranır, su toplanır və bu zaman da hər dəfə gördüyünüz hadisələr yenidən təkrarlanır.

Ondansa ən çox əziyyət çəkənlər sürücülər və hərəkət iştirakçılarıdır. Aidiyyatı qurumlar vaxtında gəlib problemi aradan qaldırsalar, vəziyyət düzəlir, qaldırmasalar avtomobillər gölməçələrin içərisində xarab olub qalır.

**Emil FAİQOĞLU**

## Həyatımı xilas etdilər

**Neçə aydır ki, özümü çox pis hiss edirdim. Çünki mən diabet və yüksək təzyiq xəstəsiyəm. Üstəlik də, qalxanabənzər vəzim çıxarılıb. Belə bir vəziyyətdə yaşamaq o qədər də asan deyil. Ona görə də kömək məqsədilə Füzuli Rayon Mərkəzi Xəstəxanasının direktoru Elçin Qurbanovun yanına getdim və mənə köməklik göstərməsini xahiş etdim. O, məni çox hörmətlə qarşıladı və sona qədər dinlədi və sonra da dedi ki, nə lazımsa sənə kömək göstərəcəyik. Hətta çətin tapılan dərmanları əldə edib müalicəni edəcəyik. Bu məqsədlə o, məni terapiya şöbəsinin müdiri Nuranə Abbaszadəyə tapşırdı.**




Müalicələrim başladı və yavaş-yavaş özümü yaxşı hiss etdim. Hiss etdim ki, o dava-dərmanları qəbul edəndən sonra vəziyyətim normallaşır. Hətta bir qədər özümü əvvəlkindən qıvraq bildim. Bütün bunlar onu göstərirdi ki, həkimlərin mənə etdiyi müalicə öz müsbət effektini göstərir. Bir sözlə, məni onlar həyata qaytardılar. Çünki xəstəxanaya gedəndə çox zəif idim, təzyiqim və şəkərim yüksək idi və özümü də pis hiss edirdim. Amma müalicə kursu başa çatandan sonra özümü yaxşı hiss etdim. Hələ mən indiyə qədər heç vaxt belə təmənnasız həkim qayğısı və diqqəti görməmişəm. Ona görə də qərara gəldim ki, xəstəxananın direktoru Elçin Qurbanov və terapiya şöbəsinin müdiri Nuranə Abbaszadə başda olmaqla, bütün həkim personallarına və tibb bacılarına öz təşəkkürümü bildirim. Onu da qeyd edim ki, mənim müalicəm Füzuli Diaqnostika Mərkəzində olub və orda xəstə kimi yataraq şəfa tapmışam. Tibb bacılarından Eyzangül Eyvazovaya, Günel Allahverdiyevaya, Telli Sarıyevaya, Səidə Allahverdiyevaya, Gülgün İbişovaya, Gülçöhrə Qurbanovaya, Tərlan Əliyevaya, Günel Əhədzadəyə, Samirə Əhədzadəyə, Mehparə Rzayevaya, Aynur Əliyevaya, Pərvanə Mehdiyevaya və başqalarına bir daha təşəkkürümü bildirirəm. Orda 30-a yaxın tibb bacısı mənə qayğı və diqqət göstərib.

**Bir daha məni həyata qaytardıqlarına görə, göydə Allaha, yerdə də Füzuli Rayon Mərkəzi Xəstəxanasının və Diaqnostika Mərkəzinin həkimlərinə və tibb bacılarına öz minnətdarlığımı bildirirəm.**

**Rəhman Əvəz oğlu Əliyev,**
**Füzuli rayonunun Böyük Bəhmənli kənd sakini,**
**ehtiyatda olan zabit**

## İsveç gözlənilən addımı atdı



**İsveç Parlamenti Türkiyənin Stokholmun NATO üzvlüyünü ratifikasiya etmək üçün əsas tələblərindən biri olan daha sərt "antiterror" qanunlarının qəbulunu mümkün edən konstitusiya dəyişikliyini qəbul edib. Adalet.az xəbər verir ki, İsveçin 349 yerlik parlamentində 278 səslə qəbul edilən düzəliş "terrorizmə qarışan və ya dəstəkləyən birliklərin birləşmək azadlığını məhdudlaşdıran" yeni qanunlar qəbul etməyə imkan verir.**

Qanunvericilərə təklifi təsdiq etməyi tövsiyə edən parlamentin konstitusiya məsələləri daimi komissiyasının fikrincə, qanun "terror təşkilatında iştirakın daha geniş şəkildə cinayət məsuliyyətinə cəlb edilməsini və ya qadağan edilməsini" nəzərdə tutur.

Dəyişiklik yanvarın 1-dən qüvvəyə minəcək.

Ötən həftə Ankaraya rəsmi səfər edən İsveçin baş naziri Ulf Kristersson konstitusiya dəyişikliyini "böyük addım" kimi qiymətləndirib.

Kristersson prezident Rəcəb Tayyib Ərdoğanla birgə mətbuat konfransında deyib:

**"İsveç ilin sonuna və gələn ilin əvvəlinə qədər İsveçin hüquqi orqanlarına terrorla mübarizədə daha çox güc vermək üçün böyük addımlar atacaq".**

**Əntiqə Kərimzadə**

## Vahid Qazi: "Düşündüklərini içində boğursansa, daxilin duyğu qəbirstanlığına çevrilir"

***Öz əsərlərində oxucunu özüylə birgə dünyanı qarış- qarış gəzdirən insandır Vahid Qazi. Bir yeri heç vaxt görməyən adama oranı yurd kimi göstərib sevdirməyi, məsələn "Ruhlar şəhəri" kimi, öz nisgilini xəfif bir mehə çevirib oxucularının ürəyinə sərməyi bacaran insandır Vahid Qazi. Onunla söhbətimizdə qürbəti nə qədər gözəl təsvir etsə də, danışdığı xatirələrin hamısında söhbətimizin "əli-qolu" Azərbaycana, Qarabağa, Ağdama uzanırdı.***

**- Mən Ağdamı görməmişəm. Vahid Qazi mənə Ağdamı necə təsəvvür edə bilər? Yazınızla "Ruhlar şəhəri" demisiniz, bəs indi?...**

-Qəfil sual qəfil də cavab istəyir. Bu suala düşünüb cavab vermək üçün çox uzaq keçmişə getmək lazımdır. Amma qəfil cavab belədir: Ağdam fərqli, hətta deyərdim, bir-birinə zidd xarakterli insanların, konqlomerat sosial icmaların harmoniyada yaşadığı yer idi. Təsəvvür edin, müxtəlif yerdən gəlmiş adamlar Ağdamda, kimya diliylə desəm, tez bir zamanda "həll olur"du, "ağdamlaşır"dı. Sonra isə ağdamlı olmağıyla fəxr edən təəssübkeşə çevrilirdi. Məsələn, redaktorunuz Aqil Abbas kimi.

**- Ağdam ən çox nə ilə yadınızda qalıb?**

- Müəllimlərimlə. Elə birini deyim, tarix müəllimimiz Asif Əsədovla. Elə səviyyəyə, elə ağıla malik idi ki, indi də onu dünyanın ən qabaqcıl ali məktəblərinin müəllimləri ilə eyni pillədə görürəm.

**- Vahid müəllim, belə bir deyim var: "Ağdam bir qeyrətli qardaş kimi gözəl Şuşanın qeyrətin çəkir" doğru bənzətmədir?**

- Ağdamın bir hissəsi Şuşadan gələnlərdir. Yaxud əksinə, Şuşanı salanların arasında indiki Ağdam ərazisindən gedənlər çoxluq təşkil edib. Elə Seyidli məhləsini anamgilin Seyidli kəndindən gedənlər salıb. Dünyada belə şəhərlər var ki, onlar bir-birinə çox doğmadır. Şuşayla Ağdam da belədir. Şuşalılar ağdamlılara çox qaynayıb-qarışmışdılar. Şuşanın bir tərəfi Laçın, bir tərəfi də Ağdamdır.

Mənim atam şuşalı idi. Ağdamda dayımla nərd oynayırdılar. Öz aralarında zarafat edirdilər. Dayım deyirdi ki, biz ağamlılar siz qalalılara sərçəni rəngləyib bülbül əvəzinə satardıq. Atam da deyirdi ki, sizə salam verəndə gərək barmaqlarını sayasan, biri əskik gələ bilər (gülür). Bu cür xoş xatirəyə çevrilən zarafatların səbəbi isə yaxınlıq, doğmalıq idi.

**- Lap əvvələ qayıdaq. Mətbuata gəlişinizdən danışaq...**

- Bizim nəsildə jurnalist yox idi. Əksər qohum-əqrəba ticarətçi idi. Atamgil məni hüquqşünas, alınmasa, ticarətçi görmək istəyirdilər. Ancaq orta məktəbin son illərində hiss elədim ki, yazı-pozu məni çəkir. Sənədlərimi jurnalistika fakültəsinə vermişdim. Əmimgildə qonaqlıq vaxtı qohumlar atamın "saqqızın oğurladılar" ki, jurnalist nədir, "ya yurfaka, ya da narxoza versin"! Mənsiz qərar qəbul etdilər.

Tezdən yüyürdüm Aqilin *(red: Aqil Abbas)* yanına, bizə hamilik edirdi onda.Dedi ki, jurnalist olmaq istəyirsən? Dedim, hə. "Ondan sənədlərini geri götürmə, de ki, verdim yurfaka. Get imtahanını ver, gir jurnalistikaya, sonra səni öldürməyəcəklər ha".

Qərar verməyimdə Aqilin böyük rolu olub. Sonra jurnalist kimi işə də "Ədalət"də başladım. Məqalə, reportajlarla yanaşı "Gənc publisistin düşüncələri" adlı silsilə yazılar yazdım. Mənə ən ləzzət verənsə "Müxbirimiz Vahid Qazıyev cəbhə bölgəsindən xəbər verir" başlıqlı yazılar idi. Ağdamdakı 5-54-50 nömrəli telefonumuzla göndərdiyim xəbərlər səhəri günü qəzetdə çap olunurdu. Zarafatla anama deyirdim ki, telefon pulunu qonorar alanda verəcəm.

**-Nədənsə davam etmədiniz...**

- Hadisələr elə gətirdi ki, Prezident Aparatında işləməyə başladım. Ondan sonra "Musavat"ın mətbuat xidmətində çalışdım. Sonra da uzun illər QHT sektorunda işlədim.



Amma bütün bunların fonunda yazıdan ayrı düşmədim. Daha çox publisistik yazılara kökləndim, xüsusilə də İsveçdə köçəndən sonra. Həm mühit, həm də vaxt buna şərait yaratdı. Neçə il Bakıda yarımçıq qalan "Çöl Qala" romanını da orada bitirdim.

**-Biraz da qürbət...**

-Hə, qürbətin də öz təsiri var. Yaxşı mənada adamı yazıya kökləyir.

**-İsveçdə daha çox vətənsizliyin ağrısını hiss edirdiniz? Axı 2020-ci ilə qədər ata yurdunuz işğal altında idi.**

-Ağrı üçün məkanın önəmi yoxdur. Ağrı anlamında İsveç Qarabağdan elə Bakı uzaqlıqdadır. Ancaq fərqli bir məqam var. Orda sən soyuqqanlı düşünə bilirsən. Burda hadisələrin içindəsən, orada isə olanlara kənardan baxırsan. Hər şeyi bir qədər fərqli görürsən. Biri var duyğuları emosional şəkildə ifadə etmək, biri də var ki, sən o dərdi başqasının yaşantısı kimi göstərirsən, yəni tək özününküləşdirmirsən, həm də bəşəriləşdirirsən. Mənim düşüncəmdə bu, oxucuya daha inandırıcı təsir bağışlayır.

**- Bir izləyici kimi müasir mətbuatdan razısınız?**

- Jurnalistikanın ilkin şərti yaradıcılıq azadlığıdır. Bizdə artıq o yoxdur.Azad düşünə bilməyən insan azad yaza bilməz. "Yaratmaq azadlığı" yazısında azadlığı olmayan yaradıcı insanın ağrısını balasını çətin doğan ananın sancısına bənzətmişdim. Tapsanız, oxuyun.

"İnsanın xoşbəxtliyi içindəkini sevərək dünyaya çıxarmaq azadlığındadır. Sevdiyi ərdən bala doğan ana kimi, istədiyi romanı yazan yazıçı, simfoniyanı bəstələyən bəstəkar, tablonu çəkən rəssam, rolu oynayan aktyor kimi...

Yaradıcı adamın faciəsi o deyil ki, istədiyini yaratmağa qoymurlar, azadlığı alınıb. Dərd odur ki, qəlbindəkinin əvəzinə sən başqasının tələb etdiyini yaratmağa məcbur edilirsən! Özü də yaratdığının əsərə yox, bala yerinə doğulan qan laxtasına bənzədiyini bilə-bilə!"

Düşündüklərini içində boğursan, boğursan, bir də baxırsan, daxilin duyğu qəbirstanlığına çevrilib.

Rəsmi şəkildə senzura olan dövrdə jurnalistlər daha azad yazırdılar. Amma indi rəsmi senzura olmasa da jurnalist bilir ki, nəyi yaza bilər, nəyi yox. Yəni artıq senzura onun beynində formalaşıb.

**-Bu qorxudur, yoxsa ehtiyat?**

-Əvvəl qorxu ilə başlayır. Sonra vərdiş halını alır. Yəni öyrəşirsən, yaşam tərzinə çevrilir. Qorxu qədər insanı pis mənada dəyişən hiss yoxdur. Onun adamı bir anda qəhrəmana çevirən halı da var, ondan danışmıram. Qorxu sağqalma instinkti formalaşdırır adamda. Təbiətin xassəsidir - uyğunlaşa bilməyən çıx-daş olur.

Cəmiyyətdə isə total qorxu total yaltaqlıq yaradır və bu uzun çəkirsə, tədricən adi həyat normasına çevrilir. Rüşvət "hörmət" olduğu kimi, pişiklənmək də "ehtiram" əlaməti sayılır.

İnsanın ən ağır anı vicdanı ilə imtahana çəkildiyi andır. Bu imtahandan "kəsilənlər" səhnədən çəkildilər.

Bu baxımdan Azərbaycanda "uyğunlaşa bilməyən yazı-pozu adamı"nın obrazını daha faciəvi görünür.

**- Bizim məmləkətdə yazıçı olmaq çətindir?**

- Sən bir əsər yazırsan. Həmin əsəri öz pulunla nəşr etdirirsən, onun reklamı, satışı ilə də özün məşğul olursan. Bu, normal haldırmı? Belə yerdə yazıçı olmağın özü bir qəhrəmanlıqdır. Bəlkə də dəlilikdir.

Məsələn, İsveçdə bunu başa düşməzlər. Mən İsveç Yazıçılar Birliyinin üzvü olanda tədbirlərə çox gedirdim. Orda yazıçıların başqa bir peşəsi də var: yazıçı-kulinar, yazıçı-jurnalist, yazıçı-arxitertor və s. Bunun üstünlüyü ondadır ki, gəliri yazıçılıqdan yox, başqa işdən əldə edirsən. Söhbət kitabları milyonlarla tiraj çap olunanlardan getmir. Yəni yaradıcılıqları ilə "al-ver" etmirlər. Amma biz yaradıcılıqla "al-ver" edirik. Sovetdən qalmadır bu. Yazıçı əsərini oxucuya satmaqdan daha çox onu dövlətə satmaq haqda düşünür. Bu, kədərli hal indi də davam edir.

Biz jurnalistikaya gələndə böyük ümidlərlə gəlmişdik. Ağlımıza belə gəlməzdi ki, hər şey belə adiləşəcək. Mən jurnalistikanı dünyanın ən gözəl peşəsi hesab edirəm. Dünyanın başqa ölkələrində yenə də belədir, ancaq bizdə daha belə deyil.

İsveçdə yazıçı və ya jurnalist böyük hörmət sahibidir. Mənim İsveç dilində kitabım nəşr olundu. Ondan sonra getdiyim yerlərdə özümə qarşı daha çox diqqət və xüsusi bir hörmət görürəm.

Bakıda Avropadan gəldiyimi bilən taksi sürücü əvvəl mənə xüsusi hörmətlə, "müəllim" deyərək müraciət etdi, yazı-pozu adamı olduğumu biləndə maraqsızlaşdım onun üçün, zəng edib telefonda kimləsə gap eləməyə başladı.

**-Yəni yaradıcı sənətə maraq ölüb...**

-Bizdə ehtiramın ünvanı varlı adamlardır. Fərqi yoxdur o pulu nə yolla qazanırsan. Əsas odur ki, varlısan və ona görə hörmətlisən.

Pandemiyanın dilimizə saldığı bir söz var - "sosial məsafə". Yaradıcı adamın problemi cəmiyyətin onunla sosial məsafə saxlamasından başlayır. Bu, təkcə jurnalistikada, ədəbiyyatda belə deyil, kino, teatr, musiqi, başqa mədəniyyət sahələri də eyni vəziyyətdir. Yaradıcı adamlar cəmiyyətin aparıcı gücünə çevrilə bilməyəndə kütlələrin axarına qarışır, qələbəlikdə itib-batırlar.

Fikirlərim bir qədər pessimist alındı, üzrlü sayın.

**Əntiqə Kərimzadə**

## Yaddaşımda xoş təəssüratı qalan prokuror

*İnsan həyatı yaşanan illərlə deyil, həm də ictimai faydalılığı ilə, yəni cəmiyyətə, millətə, torpağa olan faydası və təması ilə həmişə diqqət mərkəzində olur. Bu mənada dünyasını dəyişən hər kəs haqqında düşünəndə məhz söylədiyim o özəl nüanslar göz önünə gəlir...*

*Mən onunla ilk dəfə Beyləqanda görüşmüşəm. Onda Sovet dönəmi və 1989-cu il idi. Necə deyərlər, Dağlıq Qarabağda hadisələr artıq qızışmağa başlamışdı və bu hadisələrin fonunda, həm də bütün Azərbaycanda bir gərginlik, bir rahatsızlıq yaşanırdı. Hər kəsdə nə baş verdiyini və nədən baş verdiyini təxmin etməyə, özü bildiyi səviyyədə, özü bildiyi müstəvidə yozmağa çalışırdı. Mən də ezamiyyətə getmişdim Beyləqana. Təbii ki, həmin dövrün yazılmamış qanununa uyğun olaraq öncə Rayon Partiya Komitəsində qeydiyyatdan keçdim, gəlişimin səbəbini söylədim və sonra raykomun əməkdaşı ilə birlikdə o vaxt Jdanov adlanan Beyləqanın Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədov adına olan kolxozuna getdik. Kolxoz sədri rayonun sayılıb-seçilən ağsaqqallarından idi. O həm də Sosialist Əməyi Qəhrəmanı adın, Lenin ordeni almış təsərrüfat rəhbərlərindən olduğundan həmişə adı da, işi də ön sırada, ön yerlərdə olmuşdu.*



*Təsərrüfatda mətbuat üçün maraqlı olan məsələlərlə bağlı faktları aldıqdan sonra kolxoz sədri Əlibala Şirinovun təkidi ilə çörək kəsdik, yəni onun qonağı oldum. Söhbət ailədən, uşaqdan, nəsildən, eldən-obadan düşdü. Təbii ki, Azərbaycan mentalitetinə uyğun olaraq və həm də yaxın rayonlar olduğumuzdan müəyyən tanışlıq, hətta uzaq qohumluq münasibətləri də ortaya çıxdı. Bu da münasibətimizə bir az da istilik qatdı. Bax, elə həmin o söhbət zamanı Əlibala Şirinov bildirdi ki, oğlu rayon prokurorudu və ilk dəfə mən onda İxtiyar Şirinovun adını eşitdim...*

*Beyləqana növbəti səfərim təqribən 1 il sonra oldu. Bu dəfə rayon prokuroru İxtiyar Şirinovla bir şikayət məktubu əsasında görüşdüm. Şikayətçinin iştirakı ilə məsələ çözüldü və sonra biz Qarabağ məsələsini müzakirə etməyə başladıq. Prosesin necə baş verdiyini və bundan sonra nələr ola biləcəyini bildiyimiz bir şəkildə bölüşdük. Mən onun ziyalılığını, sadəliyini, həm də səmimiyyətini çox rahatlıqla qəbul etdim. Elə bil ki, rayon prokuroru vəzifəsində çalışan bir insanla yox, adi Azərbaycan ziyalısı ilə söhbət edirdim. Tam səmimi deyim ki, o vaxta qədər qarşılaşdığı prokurorlar içərisində belə bir sadə, səmimi insana rast gəlməmişdim. Nə onun danışığında, nə davranışında tutduğu vəzifənin zabitəsi, hökmü, ümumiyyətlə, cizgiləri görünmürdü, hiss olunmurdu...*

*Həyat bizi 1990-cı il hadisələrində yenidən qarşılaşdırdı. Bu mənim İxtiyar Şirinovun rayon prokuroru işlədiyi dövrdə qarşılaşdığım, həmsöhbət olduğum ikinci məqam idi. Bu dəfə artıq tanış adamlar kimi görüşdük, dərdləşdik. Sonra məlum hadisələr baş verdi və İxtiyar Şirinov müstəqil Azərbaycanın mərhum Murad Babayevdən sonra ilk baş prokuroru oldu...*

*Onun öz vəzifəsini necə icra etdiyi, siyasi arenada hansı nüfuz sahibi olduğu hər kəsə məlumdur. Necə deyərlər, o necə işlədi, hansı işləri gördü, bilənlər bilir. Amma mən onu bir insan kimi, Azərbaycanın bir vətəndaşı kimi, tanıdığım, həmsöhbət olduğum andan yaddaşıma köçürmüşdüm və elə yaddaşımda da o cür qalıbdır. Sadə, səmimi, təvazökar və mehriban bir insan. Həm də hüquqşünas kimi barəsində işlədiyi rayonda heç vaxt ürək bulandıran, insanı qıcıqlandıran fikirlər eşitməmişdim. Ona görə də onun dünyadan köçmə xəbərini eşidəndə xatirələr baş qaldırdı və mən də bir zəhmət adamının, bir torpaq adamının övladı olan İxtiyar Şirinovun ölümünə təəssüfləndim.*

*Düşünürəm ki, cəmiyyətimizdəki fikir prüalizmi imkan verir ki, kimin kim olduğunu və kimin hansı səviyyədə, hansı nöqtədə nələri özündə ehtiva etdiyini ifadə etmədən sadəcə bir insan kimi haqqa qovuşanların arxasınca bir rəhmət duasını dilə gətirmək heç də pis olmaz. Ən azından bu dünyada qalan xatirələr, izlər, bunu bizdən tələb edir. Bu haqqı bizim boynumuza qoyur. Deməli, İxtiyar Şirinovla birlikdə çalışanlar, onunla çiyindaş olanlar, istər onunla qarşı-qarşıya gələnlər, istər bütövlükdə dost, qohum, qonşu, el-oba, bir sözlə, hər bir insan bir ömrə borclu olduğunu düşünərsə, onda dilindən, qəlbindən heç vaxt duanı yəqin ki, kəm etməz. O duanın qəbul edilib-edilməməyi isə Allahın ixtiyarındadı.*

*Bəli, mən həyatda ikicə dəfə qarşılaşdığım və həmin dövr üçün çox önəmli olan hadisələr barəsində söhbət etdiyim İxtiyar Şirinovu bir ziyalı kimi, bir hüquqşünas kimi tanımışam, yaddaşıma köçürmüşəm və bu gün də onun haqqa qovuşmasına təəssüflənirəm. Ona görə də həmin haqq-salamın işığında ona Allahdan rəhmət, doğmalarına səbir diləyirəm.*

*Əbülfət MƏDƏTOĞLU*

## Özlərini karlığa, korluğa və lallığa qoyurlar



*Zərdüşt Əlizadə*

**Erməni əhalisinə Azərbaycanda status verilməsi məsələsinin arxasında ilk növbədə xarici qüvvələrin marağının güdüldüyünü yalnız tam sadəlövh insan anlamaz.**

Bu status məsələsini qabardan siyasilər, alimlər və ictimai fəallar adətən statusun lüzumunu Azərbaycanda etnik azlıqların haqqını daim yeyən hakimiyyətin səlahiyyətlərini hüquqi üsullarla məhdudlaşdıran, etnik azlıqları daha səmərəli qoruyan mexanizm kimi təqdim edirlər. Deyirlər ki, əgər hüquq müstəvisində tanınan status olmasa, erməniləri Azərbaycandan sıxışdırıb çıxaracaqlar. Bu isə azlıqların hüquqlarına həssas olan Rusiyanın və Qərbin incə qəlblərini zədələyəcək.

Soruşanda ki, bəs sizin bu həssas qəlbiniz yarım milyon azəri türkünün Ermənistandan bir əsr boyu mütəmadi və ardıcıl olaraq sıxışdırılıb çıxarılmasından niyə zədələnmədi, özlərini karlığa, korluğa və lallığa qoyurlar. Niyə? Çünki ədalətli və açıq söhbət onların xəbis siyasi nəqşələrinin üstünü aça bilər. Bu korluq, karlıq və lallıq yalnız rus imperialistlərinə deyil, həm də istisnasız olaraq bütün Qərb imperialistlərinə aiddir. Onlardır indi çırmanıb Cənubi Qafqaz dağlarını və çöllərini siyasi cıdır meydanına döndərənlər.

Bu xəbis nəqşələri artıq külli-Qafqaz əhalisi görür və anlayır. Hətta erməni xalqının əksəriyyəti anlayıb ki, "can-can" deyən xarici dostları onların deyil, öz mənfəətlərini güdürlər.

Azərbaycan qanlı müharibədən sonra öz qanuni hüquqlarının tanınmasını tələb edir. Lakin dünya yenə ikibaşlı "status" mətləbini ortaya atır. Rusiya və Qərb yenə ermənilərin qırılma və qovulma təhlükəsinin qarşısını ala biləcək statusun vacibliyindən danışır.

Status möhtəkirliyinin qarşısını ala biləcək yeganə çarə status məfhumunun mahiyyətini açmaqdır.

**1.** Status erməni azlığının hüquqlarını təmin edə biləcək sehirli çubuqdurmu? Yəni hansısa qara qüvvə məsum erməni azlığının üzərinə getmək istəsə, status sözünü eşitcək, status sənədini görcək kor-peşiman niyyətindən əl çəkəcəkmi?

Məgər münaqişə başlayanda, Azərbaycanda erməni azlığının Dağlıq Qarabağ Muxtar Vilayəti (DQMV) adlanan statusu yox idimi?

Var idi və 120 000 erməninin rəhbərləri bu statusdan gen-bol istifadə edib DQMV-də etnik azlıq olan azərbaycanlıların hüquqlarına qara qəpiklik hörmət qoymurdu.

Buğda yeyib cənnətdən çıxmış əksər azərbaycanlılar bu DQMV statusu barədə qanunu heç görməyib, nəmənə olduğunu heç bilmir. Sizin həqir bəndəniz isə bu qanunu nəinki görüb, hətta bu qalın sənədi diqqətlə oxuyub. Oxuyub və görüb ki, sovet hakimiyyəti bu qanunla erməniləri Qarabağın tam ağası etmişdi.

Qarabağın erməni əhalisi bu qanunun gücü ilə bu ərazidə bütün iqtisadi, mədəni, dini, inzibati məsələləri özü həll edə bilirdi və heç vaxt Bakı məmurlarının icazəsinə ehtiyac duymurdu.

Lakin! Erməni daşnaklarına və onların xarici ağalarına əslində zavallı ermənilərin hüquqlarının müdafiə edən status deyil, özlərinin Cənubi Qafqaz üzərində ağalıqlarının təmin edilməsi lazım idi. Buna görə onlar mövcud olan və erməni azlığına geniş səlahiyyətlər verən DQMV statusuna tüpürüb "miatsum" hərəkatına başladılar. Hərəkatın başlanması barədə icazə və göstərişi isə bilavasitə sovet quruluşunun süqutuna vargücü ilə can atan Qorbaçovdan aldılar.

Nə isə, hadisələr hamının gördüyü və bildiyi məcrada cərəyan etdi və nəticədə Ermənistan Respublikasının ordusu Azərbaycan Respublikasının Qarabağ bölgəsini işğal etdi, oradakı qeyri-erməni əhalinin hamısını qovdu. 120 000 erməninin təhlükəsizliyini təmin etmək məqsədilə 600 000 azərbaycanlını didərgin saldılar.

Daşnakların ülvi arzusu - türklərsiz Qarabağ - çin oldumu? Bu türklərsiz Qarabağda erməni əhalisi erməni cənnəti yarada bildimi?

Heyhat! İnsan hər şeydən qaça bilər, yalnız özündən, öz zatından, öz taleyindən qaça bilməz. Erməni əhalisi "turkes"i Qarabağdan qovandan sonra girişdi ən mütərəqqi meyarlara cavab verə biləcək demokratik erməni dövləti qurmağa. Çox çalışdılar, çox əlləşdilər, tikdilər, qurdular, 25 il keçəndən sonra gördülər ki, nümunəvi faşist dövləti qurublar.

Bu dövlətdə sıravi erməniləri sıravi olmayan paqonlu ermənilər əzişdirib sındırır, bir ovuc tüfeyli mütərəqqi Avropanın zəngin vətəndaşlarının səviyyəsində keflə yaşayır, əhalinin əksəriyyəti isə Ekvatorial Afrikanın geridə qalmış ölkələrinin bədbəxt əhalisinin kökündə həyat sürür.

Bəlli oldu ki, türklərdən qurtulmuş ermənilər öz mahiyyətlərindən, öz erməni mədəniyyətindən, şüurundan heç cür xilas ola bilməyiblər. Zülm, korrupsiya, dərəbəylik tək müstəqil Azərbaycanın deyil, həm də müstəqil Ermənistanın, həm də "müstəqil" Qarabağın bəlasıdır. Bəlli oldu ki, dərin qarşılıqlı nifrətə baxmayaraq, biz mahiyyətcə çox yaxın xalqlarıq.

Bizi tək dolma, xaş, zurna-balaban, "Sarı gəlin" deyil, həm də cəmiyyətdə hakim mövqe tutan dəyərlər yaxınlaşdırır.

**2.** Erməni qələbəsini legitimləşdirən Bişkek protokolunun imzalanmasından keçən 25 ildə azərbaycanlı sülhpərvərlər erməni cəmiyyətində özünü sülhpərvər sayan həmkarları ilə yüzlərlə görüş keçirib dünyada olan və olmayan bütün muxtariyyət statuslarını müzakirə etdilər.

Tirol statusunu istəyirsiniz? Heç vaxt!

Şimali İrlandiya statusunu istəyirsiniz? Əbəda!

Tatarıstan statusunu istəyirsiniz? Yox!

Aland adalarının statusunu istəyirsiniz? Biz qalib müstəqil dövlətik, nə üzlə siz, məğlub tərəf, bizə müstəqillikdən imtina edib hansısa miskin muxtariyyət statusu ilə razılaşmağımızı təklif edirsiniz? Yox və bir də yox!

25 il "yox" və yalnız "yox"!

Yox? Di gəldi!

44 günlük müharibədən sonra erməni tərəfi "qroqqi" vəziyyətinə düşdü. Nədir bu vəziyyət? Boks döyüşü zamanı güclü zərbə almış boksçu yıxılmasa da, müvazinətini itirir, gicəllənir və başlayır ləngər vurmağa, dəxi özünü müdafiə edə bilmir. Rəqib döyüşçü bir zərbə ilə onu yerə sərə bilər. İnsaflı peşəkar hakim bu anda döyüşü saxlamalı, "qroqqi" vəziyyətinə düşmüş boksçunun tam məğlub olduğunu elan etməlidir.

Lakin bizim müharibədə hakim rolunu insaflı və tərəfsiz dövlətlər deyil, münaqişədən hədsiz maddi və siyasi mənfəət götürən dövlətlər icra edirdi. Məhz onlar "qroqqi" vəziyyətinə düşmüş Ermənistana "nokaut" saymadılar və fasilə elan edib öz siyasi oyunlarına davam etdilər.

İndi Ermənistan da, onun xarici hamiləri də Qarabağ erməniləri üçün status tələb edirlər. Bu status kimə verilməlidir? Son müharibədən sonra təcili olaraq bütün Ermənistandan süpürülüb-yığılmış, avtobuslarla Stepanakertə daşınmış 50 min erməniyəmi? Sovet vaxtı 120 000 erməniyə verilmiş yüksək "DQMV" statusu bu xalqa təhlükəsizlik və səadət gətirmədisə, 50 000 erməniyə veriləsi naməlum status onlara bu arzuedilən əmin-amanlığı və səadəti təmin edəcəkmi?

Təbii ki, indi Qarabağ erməniləri üçün status tələb edən dövlətləri erməni əhalisinin gerçək əmin-amanlığı və rifahı əsla maraqlandırmır. Onları status tələbini Azərbaycana sırıyandan sonra "erməni əhalisinin təhlükəsizliyinə "zamin duracaq dövlətlərin bölgədəki "status"u maraqlandırır.

Vəziyyət həqiqətən mürəkkəb və dolaşıqdır. Həm erməni xalqı, həm Azərbaycan xalqı çətin seçim qarşısındadır. Düşmənçiliyi davam etdirib yad qüvvələrin əlində alət olaraq qalmaqmı? Yaxud indi ağlasığmaz görünən, lakin əslində yeganə həqiqi çıxış yolu olan barış yolunu seçib çağırılmamış hakimlərə və münsiflərə "sağ olun, səlamat qalın" demək, oturub bu mürəkkəb düyünü birgə səylə açmaq, itirilmiş əmin-amanlıq kələfinin ucunu birgə tapmaq?

Məndən soruşan olsa, lap elə rəhmətlik dostum Georgiy Vanyan kimi, deyərdim ki, "Ermənistan Respublikasının bir nömrəli müttəfiqi Azərbaycan Respublikası olmalıdır və erməni xalqının əmin-amanlığı və səadəti Azərbaycan xalqı ilə səmimi əməkdaşlıqdan, etimaddan, etibardan, dostluqdan keçir".

Beyni ədavətdən zəhərlənmiş, gözü bəlalardan tutulmuş, haqqı nahaqdan seçməyi unutmuş bu iki qonşu, fəqət çox yaxın xalqlar bu sadə tənliyi öz xeyirlərinə həll edə biləcəkmi?

**Oxucum, bu tənliyin həlli həm də şəxsən sizin tutacağınız mövqedən asılıdır. Həlledici məqamdır, heç kəs kənarda durub "bu, mənim işim deyil" deyə bilməz.**

*Aqşin Yenisey*

## Kütlə "Qara dəliy"ə bənzəyir



*Fransız sosioloqu Bodriyar kütləni "Qara dəliy"ə bənzədir. Kütlə xalqın, cəmiyyətin "qara dəliy"idir. Bu "qara dəlik" necə yaranır? Heç bir özəlliyi olmayan insanların, onları heyran edən "ortaq dəyər"lərinin kəşfi və təbliğiylə. Əsas məsələ bu "ortaq dəyəri" tapmaqdır. Bu "ortaq dəyər" tək halda heç kim olduğunu hiss edən insanlara bir kimlik bəxş edən, Nitsşenin sözləri ilə desək, onları öldürməyib, gücləndirən psixoloji-mistik varlıqlar da ola bilər, Vladimir İliç Lenin də.*

*Din dayaq nöqtəsi olaraq ən günahsız, çarəsiz, yetim insanı seçir, kommunizm dayaq nöqtəsi olaraq ən yoxsul insanı önə çıxarır. Demokratiya ən hüquqsuz vətəndaşı "ortaq dəyər"ə çevirir, feminizm ən qaragünlü qadını öz bayrağının sapına keçirir və s. Çünki eqo özündən güclüyə qorxu, özündən zəifə mərhəmət adlı emosional bir bağla daha tez bağlanır.*

*Beləliklə, "ən axırıncılar" onları "ortaq dəyərə" çevirib kimlik qazandıran özlərinin "ən birincilərini" yaradırlar və onun simasında, əslində, özlərinə heyran olurlar. Buna sosiologiyada "kütlə narsisizmi" deyilir.*

*Bu gün Azərbaycan xalqı televizorlarda ancaq onun özünü göstərən verilişlərə baxır, onun öz zövqünü ifadə edən mahnılara qulaq asır. Onun özünün sözünü deyən, onun özü kimi düşünən insanları ilahiləşdirir.*

*Televizorlarda, sənətdə, sosial şəbəkələrdə özünə heyran olan narsist kütlə, Bodriyarın dediyi o "qara dəlik" bir-bir fərdləri udur. Bu dəliyə düşməmək üçün müqavimət göstərənlər lənətlənir. Bəzən şəxsi uğursuzluqlarının qisasını cəmiyyətdən almaq istəyən farmazonlarımız da düşməyənləri bu "qara dəliyə" düşməyə həvəsləndirir.*

*Halımızı əldəqayırma əndamında belə bizi özümüzün heyranına çevirən müğənnimiz daha səmimi ifadə edir:*

*"Zülm, zülm, zülm, qaqa, zülm, zülm, zülm!"*



Əbülfət MƏDƏTOĞLU

# Gerçəkləşdirilən sevgi obrazı

## Bu səhnəni qarşılaşdırdığım şeirlərdən yaratdım

**İnsan xəyalla özünü hər yerə, hər kəsə daha tez çatdırır, daha tez qovuşur. Yəni xəyalın surəti,mənə elə gəlir ki, səsin də surətindən itidir. Ona görə də xəyalən getdiyin, gəzdiyin, gördüyün hər yerdə, heç kəs adamı tək qoymur. Onu özü ilə götürüb gedir və yaxud da ona doğru gəlir. Bu mənada ruh adamlarının xəyalı məncə daha da surətlidi. Çünki onlar təkcə xəyal qurmurlar, həm də o xəyala nəfəs verirlər, ömürlərindən ömür qatırlar. Məhz bu səbəbdən də şairin, bəstəkarın, rəssamın, bir sözlə, ruhu, duyumu dipdiri olan hər kəsin xəyalı ayrı bir dünyadı, ayrı bir aləmdi...**

**Mənim üçün xəyalı dipdiri olan və sahibini, yəni onu yaşayanı, yaradanı tək qoymayan, istədiyi yerə, istədiyi məqamda çatdıran bir DOST var! Bu dostum həm SÖZ adamıdı, həm SƏS adamıdı, həm NOT adamıdı, həm də ÜRƏK adamıdı. Bu xüsusi vurğuladığım, söz, səs, not və ürək bir adamda elə bir-birinə hopub ki, onları bir-birindən ayrı təsəvvür etmək mümkün deyil. Heç təsəvvür etmək fikrim də yoxdu. Çünki onu Allah belə yaradıb və onu yaradan Allahın iradəsi ilə ona qoyulan ad da həmin o dediklərimi özündə ehtiva edib, özü də artıqlaması ilə...**

**Yəqin söhbətin kimdən getdiyini təxmin etdiniz. Ardını da mən deyim. Bugünkü "Bir şairin bir şeiri" layihəmdə Zəka ilə söhbət edəcəm. Zəka Vilayətoğlu ilə!**

**Dostumun son kitabı, yəni "50 ilin zəkası" masamın üstümdədi. Gözüyumulu səhifəni açıram və qəribədir ki, ürəyimdən keçən duyğuların ifadəsini mənə söz şəklində çatdıran şeirlə qarşılaşıram. Şeirin adı da "Gözəldir". Bunu mən demirəm, bunu həmin o ruh doğmam Zəka Vilayətoğlu deyir, həm də yazır oxuyanlar üçün, bilmək istəyənlər üçün. Mən də qoşuluram ona və onun yazdığını özüm üçün içində dinləyən üçün pıçıldayıram:**

***Nə qədər göylərdə qanad çalsa da,***
***Sona gümüş gözlü göl də gözəldir.***
***Şahanə duruşlu, hürkək baxışlı,***
***Ceyran meşələrdə, çöldə gözəldir!***

**Təbii ki, bu, bir ruh adamının sözlə çəkdiyi tablodu, rəsm əsəridi və siz də mənə qoşulub tamaşa edirik, seyrinə dalırıq bu mənzərənin, bu tablonun. Baxdıqca da şairin rəssam fırçasına əl uzatdığının şahidinə çevrilirik. Görürük ki, o fırça eyni zamanda qələmin də işini görür, yəni həm yazır, həm də şəkli çəkir, gölün də, o göldəki sonanın da, meşənin də, ormanın da, ceyranın da, cüyürün də. Hələ üstəlik mən onun ifasını da eşidirəm. Onun mənə doğma səsi həmin misraları nəğmə kimi səsləndirir. Bax, onda mən də köhnə xatirələrin sifarişçisi olan xəyalımın ətəyindən tutub arxaya boylanıram. Necə deyərlər, bu xəyal da məni qanadlandırır və deyirəm ki:**

***hər səhər özümün nağıllarımla***
***təzə-tər günlərə qapı açıram.***
***günlər çiçəklərdi, mən isə arı -***
***çiçəkdən-çiçəyə doğru uçuram.***

**Yəqin ki, siz də mənim misralarımın ahəngində bir az kövrək notların, bir az nisgilli cizgilərin işartılarını gördünüz. Baxmayaraq ki, təzə günlərə, təzə və tər çiçəklərə tərəf boylanıram. Amma bütün hallarda mənim çəkdiyim arı zəhməti hələ ki, boylanmaqdan, içində qovrulmaqdan başqa bir şeyə dəstək olmur. Bu da qarşılığı olmayan duyğuların bir lövhəsidi, bir anıdı. Yaxşı ki, həmin o anın davamlı olmasını Zəka Vilayətoğlunun qələmi, səsi imkan vermir. O qələm, o səs gözəldi dediyi mənzərəni bir az da yaxından tanıdır mənə və oxuculara. Həmin tanıtım əslində həm də bitib-tükənməyən sevginin aurasını da sərgiləyir. Onda yalnız seyr etmək yox, həm də sevgini yaşamaq istəyi baş qaldırır içində. Çünki Zəka Vilayətoğlu belə yazıb:**

***İpək saçlarını daradıqca meh,***
***O qızın hüsnünə oluram valeh.***
***Gecənin gözündən damcılayan şeh,***
***Çiçəkdə gözəldir, güldə gözəldir!***

**Zənnimcə, hüsnünə vurulduğun, valeh olduğun, nəfəsinlə saçlarını daradığın o qızın gözəlliyini tamamlayan, həm də çiçəklərin üstündəki şeh. Bu şeh əslində gülün yanağındakı gözəlliyi bir az da artırmaqla yanaşı, həm də şairin nəzərində qız yanağında donmuş busənin və yaxud da xalın oxşarıdı. Ona görə də onu bütöv şəkildə görmək yalnız böyük sevginin gücü daxilindədi. O sevgi də Zəka Vilayətoğlunun gecənin gözündən qopartdığı nurdan süzülüb gəlir. Kaş ki, hər kəs gecənin özündən, gözündən nur dərə biləydi. Bax, onda mənim də içimə hakim kəsilmiş həsrətin, ağrı-acının ömrümə çaldığı baltanın boş bir cəhd olduğuna inanarsınız. Axı hər kəsi, səni də, məni də, onu da, bütövlükdə hamını sevgiyə aparan ümidin özü də sevgidi. Ona görə də:**

***dilimdə nəğmələr, könlümdə həvəs***
***ömrün hər anına sənlə baxıram.***
***məni üfüqlərə aparan nəfəs,***
***mən sənin adınla yola çıxıram.***



**Həqiqətən məqsəd, məram, istək insanı kökləyir, onu elə bil ki, bütünlüklə, yəni ayaqdan başa qədər səfərə, döyüşə, mübarizəyə, dözümə hazırlayır. Bax onda çıxdığın yol da, onun çətinlikləri də, qarşılaşacağın hər bir çətinlik və surprizlər də səni dayandırmır, durdurmur.**

**Çünki yol da müqəddəsdi, amal da, istək də. Bax elə Zəka Vilayətoğlu da etiraf edir ki, onun çıxdığı yol aşiq yoludu, eşqə susayıb. Deməli, bu yolda döndü! - yoxdu. Və yaxşı ki, bu döndü fikri heç Zəkanın da, mənim də ağlımın ucundan gəlib keçməyibdi. Nəticəsi isə gözəl bir şeirin yaranmasında, gözəl bir duyğunun şeirə çevrilməsində özünü təsdiqləyibdi. Yazı boyu bəndlərini təqdim etdiyim "Gözəldir" şeirində deyildiyi kimi:**

***Mən ki, bir aşiqəm, eşqə susayan,***
***Bu şirin şərbətdən çətin ki, doyam.***
***Zəka, sənin adın, o pıçıldayan,***
***Dodaq da gözəldir, dil də gözəldir!***

**Bu bənddən sonra nəsə deməyə, nəsə yozmağa, nəmə yazmağa zənnimcə çox da böyük ehtiyac yoxdur. Çünki sevdiyim, sənin adını dodağına yaraşdırıbsa, layiq bilibsə, bundan gözəl nə ola bilər ki?!**

**Mən də elə o gözəlliyin bütün istiliyini, soyuqluğunu özümə təkcə hiss kimi, duyğu kimi yox, həm də həyatımın özü kimi hopduraraq az qala bütün səsimlə, bütün nəfəsimlə Sənə, eləcə də bütün dünyaya təbii ki, bütün dinləyib anlayanlara demək istəyirəm:**

***arzumun özüdü, sevgimin canı***
***sökülən dan yeri, üzümə boylan.***
***günəşdən əvvəl mən döydüm qapını -***
***dur, sarıl boynuma, mələyim, oyan!***

**Hə, bu bir gözəlliyin vəsfi yox, mənə görə həm də yaşam səhnəsi idi. Onu canlı şəkildə, obrazın özünün dilində və cismində sizə çatdırmağa çalışdım. Yəni bu şeir mənim zənnimcə oxucu qarşısında səhnələşdirilmiş bir yaşam oldu. Zəka Vilayətoğlu ilə hər birimiz öz obrazımızı, yəni ruhumuzdan, qəlbimizdən süzülüb şeirə çevrilən sevgini canlı şəkildə sizə göstərdik. Bu, alqış üçün yox, həm də yaşamaq üçün təqdim edilən sevgi səhnəsi idi. Gerçək obrazların timsalında...**

# Bir ömrün cizgiləri

**İnsan dünyaya gəlişi ilə təkcə bir varlığın həyatda olduğunu təsdiq etmir, o həm də b həyatda yeni bir başlanğıcın ifadəçisi olur. Yəni hər doğulan insan özü ilə yeni bir yaşam gətirir bu dünyaya. Bax, o yeni yaşam da dünyanın yeni naxışına, yeni cizgisinə çevrilir. Açılan cığır, salınan yol da bax, elə həmin andan başlayır.**

Doğrudur, bu yolu, bu cığırı hərə bildiyi kimi, hərə öz taleyinin yazısı kimi yaşayır. Və bir də, o da doğrudur ki, cığırı yol etmək də hər adama nəsib olmur. Yəni hər doğulanla yeni , böyük bir yol açılmır. Bir az da dərinə getsək, onda görərik ki, yalnız Allahın seçdikləri, dəyər verdikləri cığırı yola çevirir. Onu öz başlanğıcından davamlı və bitməz bir sonluğa aparır. Bu mənada ,indi barəsində fikirlərimi bölüşəcəyim bir alim, bir ziyalı, bir söz sərrafı və nəhayət, bir dəyərli Azərbaycan vətəndaşı həmin o dediyim parametrlərə uyğun olaraq başlanğıcdan cığırı yola çevirməyə başladı. Özü də zəhmətlə, elmlə, yuxusuz gecələrlə, böyük zəka ilə və nəhayət, inad və inancla. Çünki o, qarşısına qoyduğu məqsəd üçün hər şeyə hazır idi. Və bir də o, məqsədinin aliliyinə də, halallığına da, vacibliyinə də həmişə inanırdı.

Bəzən deyirlər ki, həyat beş gündü və o beş günün özünə görə o qədər problemləri var ki, onu necə yaşamaq, onu necə dəyərləndirmək çətin olur. Bu, bir normal düşüncədi. Amma həyatda elə adamlar da var və olublar ki, onlar həmin o beş günün beşini də bu xalq üçün, bu dövlət üçün, bu torpaq üçün yaşayıblar və ona görə də indi onların həmin o beş günlük həyatları bitib-tükənmir, davam edir. Çünki o həyatda onların yolları var, özlərinə aid yolları. Bu yolla da o yola dəyər verənlər gedirlər. Deməli o yol da davam edir. Bax, həmin yollardan birini Azərbaycanın gözəl guşələrinin birində dünyaya gəlmiş və həmin o ünvanı özünün xidmətləri ilə bir az da şərəfləndirmiş Ənvər Mustafa oğlu Həmidovdan yazmaq istəyirəm indi. Əslində bu yazının qələmə alınmasını onun dostları, onunla çiyin-çiyinə işləyənlər, onu yaxından tanıyanlar istəyiblər. Mən də onların söhbətlərini və istəklərini öz içimdə ipə-sapa düzüb yazıya çevirməyə çalışmışam. İstəmişəm ki, tanınmış həkim, publisist, dəyərli ziyalı, həm də bir alim kimi tariximizdə, yaddaşımızda yaşayan Ənvər Mustafa oğlu Həmidovun xatirəsini bu yazı ilə bir az da yaddaşlarda təzələyim, bir daha onun ruhunu sevindirim...

Ənvər həkim Şəkidə dünyaya gəlmişdi. Azərbaycanın bu gözəl guşəsində doğulan, ibtidai təhsil alan və orta məktəbi də uğurla başa vuran Ənvər həkim doğulduğu sənətkarlar ailəsində öz diribaşlığı, hazırcavablığı, həm də məntiqi düşüncəsi ilə müəllimlərinin və doğmalarının diqqətini özünə çəkə bilmişdi. Bu da onu yaşıdlarından fərqləndirmiş və artıq öz çevrəsindəkilərdən önə çıxmasına stimul vermişdi. Orta təhsilini əla qiymətlərlə bitirən Ənvər həkim elə həmin ili də o vaxtkı



Dövlət Tibb İnstitutunun (indiki Dövlət Tibb Universitetinin) müalicə-profilaktika fakültəsinə qəbul olunmuşdu. Ali təhsilini fərqlənmə diplomu ilə başa vuran Ənvər Həmidov təyinatla doğulduğu şəhərə, daha doğrusu, Şəkidəki Rayonlararası Mərkəzi Xəstəxanaya həkim-cərrah vəzifəsinə göndərildi. Qısa bir zaman içərisində o, xəstəxanaya müraciət edənlərin sevimlisinə, ümid yerinə çevrilə bildi. İndi ona üz tutanlar əsl loğman məsləhəti ilə qarşılaşırdılar.



Pasientlərin, həmçinin həmyerlilərin sevgisi, diqqəti gənc həkimi daha da ruhlandırır və onu seçdiyi peşəyə daha çox bağlayırdı.

Bir müddətdən sonra gənc həkimin təşəbbüskarlığı, savadı, xəstələrlə işləmək qabiliyyəti aidiyyatı qurumların diqqətini çəkdi və xəstəxanada travmatologiya şöbəsi yaradıldı. Həmin şöbəyə rəhbərlik də Ənvər Mustafa oğlu Həmidova tapşırıldı. Şöbə müdiri kimi indi o bir az da artıq məsuliyyətlə, bir az da artıq inadkarlıqla çalışır və bu da Şəkidən, eləcə də ətraf rayonlardan Bakıya müalicə üçün üz tutan xəstələrin sayının azalmasına səbəb olurdu. Şöbənin və həkimin nüfuzu artdıqca, buraya üz tutanlar da, ümid yeri kimi baxanlar da artırdı. 6 ilə yaxın Ənvər həkim burada həm işlədi, həm şöbəni idarə etdi, həm də özü üzərində çalışmağı da unutmadı. O, təkcə həkim olmaqla kifayətlənmək istəmirdi. O həm də çalışırdı ki, tibb elminin dərinliklərinə üz tutsun, insanların sağlamlığı üçün vacib olan müəyyən prosedurları, müalicə üsullarını öyrənsin. Ona görə də 1968-ci ildə Moskvaya üz tutdu. Akademik N.Piroqov adına Elmi-Tədqiqat Mərkəzi Travmatologiya və Ortopediya İnstitutunda sümük patalogiyası üzrə aspiranturaya daxil oldu və 1971-ci ildə sümük şişlərinə dair dissertasiya mövzusunu müdafiə edərək elmlər namizədi adını aldı. Bu yüksək uğurdan sonra vətənə qayıdan Ənvər həkim artıq paytaxtda ona təklif edilən sahə üzrə fəaliyyətini davam etdirdi. Bunu da ona görə seçdi ki, o, həm də elmi yaradıcılığını davam etdirməkdə qərarlı idi. Bakı Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunda kiçik elmi işçi, baş elmi işçi, Elmi Şuranın katibi və gənc alimlərin elmi şurasının sədri vəzifələrini də məhz bundan sonra icra etməyə başladı. Saydığımız bu məqamlar Ənvər həkimi həm həkim-cərrah, həm də bir alim kimi paralel olaraq həyata keçirtdiyi vəzifənin göstəricisidi. Demək bu nüanslardan bir daha aydın olur ki, Ənvər həkim seçdiyi yolda qərarlıdır. Onu bu yoldan döndərmək mümkün deyil.

Bəli, zamana diqqət yetirəndə aydın olur ki, Sovetlər Birliyinin ən böyük elm mərkəzi olan Moskvadan nailiyyətlə, uğurla geri qayıdan Ənvər Həmidov Bakıda da yeni-yeni nailiyyətlər üçün yuxusuz gecələrini, xoş istirahətlərini qurban verməkdən çəkinmirdi. Yəni o hər anını, hər dəqiqəsini boşa verməmədən tibb elmi üçün çalışır, bu sahənin inkişaf etdirilməsinə öz töhfələrini təqdim edirdi.

Məhz bu görülən ağır işlərin nəticəsidir ki, artıq 80-cı illərdə Ənvər həkim respublikanın Travmatologiya-Ortopedilər Elmi Cəmiyyəti idarə heyətinin məsul katibi seçilmişdi. Üstəlik o, Zaqafqaziyada bu sahə üzrə keçirilən dördüncü qurultayda da təftiş komissiyasının sədri seçilmiş, onun çıxışı maraqla qarşılanmışdır.

Hər dəfə etdiyi məruzələr, çıxışlar, auditoriyada söylədiyi mühazirələr, böyük maraq doğuran Ənvər Həmidov 70-dən çox elmi əsərin, 5 monoqrafiyanın müəllifi idi. O, təkcə SSRİ məkanında deyil, onun hüdudlarından kənarda da bir alim-həkim kimi tanınmışdır. Elmi məqalələri xarici ölkələrdə, xüsusilə ABŞ-da çap olunmuşdu. Qazanılan elmi uğurları təcrübədə gerçəkləşdirmək üçün o, təkcə təşkilatçılıq yox, həm də peşəkar həkim qabiliyyətini də hər zaman ortaya qoya bilirdi.

Yəni paytaxtın 3 saylı Klinik Xəstəxanasında şöbə müdiri olanda da, 26 saylı Bakı şəhər Birləşmiş Şəhər Xəstəxanasına baş həkim təyin ediləndə də o, öz sevimli işindən, həyatını həsr etdiyi həkimlikdən, loğmanlıqdan ayrılmırdı. Özü əməliyyatlarda iştirak edir, məsləhətlərini verir, müayinələr aparırdı. Ona görə də Ənvər həkimin adına, ünvanına gələnlər hər gün artır, ona güvənənlərin sayı isə çoxalırdı. Bu, təvazökar insanın, bu qayğıkeş həkimin xidmətləri təbii ki, yüksək dəyərləndirilmiş, ona fəxri fərmanlar, diplomlar, SSRİ Səhiyyə əlaçısı adı və medalı verilmişdir. Bütün bunlar dəfələrlə paytaxtın İcraiyyə Komitəsinə deputat seçilməsində də öz təsirini göstərmişdi.

Burada bir məqamı da xüsusi qeyd etmək olar ki, bu da Ənvər həkimin bədii yaradıcılığı ilə bağlıdır. Həmin bədii yaradıcılığın mayasında da səhiyyə, tibb dayanırdı. Belə ki, o, hələ gənclik illərindən maraq göstərdiyi xalq təbabətimizlə bağlı həmişə araşdırmalar aparır, materiallar toplayırdı. Ona görə də onu böyük maraq və həm də xüsusi peşəkarlıqla yığıb topladığı həmin bilgilər 1991-ci ildə"İşıq"nəşriyyatında çap olunmuş "Loğmanlar yurdu" kitabında özünü təsdiqlədi. Həmin kitabla bağlı öz münasibətini bildirən xalq şairi Bəxtiyar Vahabzadə vurğulamışdı ki, ""Loğmanlar yurdu" kitabı Azərbaycan təbiblərinin ensiklopediyasıdır". İlk kitabından sonra Ənvər həkim 2008-ci ildə "Nurlan" nəşriyyatında növbəti uğurlu bir kitaba da müəllif oldu. Həmin kitab da "Loğmanlar" adlanırdı. Qeyd edim ki, Ənvər həkim kitablarını Ənvər Mete imzası ilə çap etdirirdi. Adını xatırlatdığım növbəti kitab Azərbaycanın tanınmış göz həkimi, akademik Zərifə xanım Əliyevanın 85 illiyinə həsr edilmişdi.

Ümumiyyətlə, Ənvər Metenin istər əvvəlki iki kitabı, istər "İntellektual ekologiya termininin izləri"", istərsə də "O torpağın övladları" kitabları birmənalı olaraq xalq yaddaşından gələn bilgiləri təqdim etməklə oxucu marağı qazanmışdı. Bu gün Tanrı dərgahında olan Ənvər Metenin kitabları tibb işçiləri üçün dəyərli bir vəsaitdir. Onun əsərlərini həm tələbələr, həm elm yaradıcılıqla məşğul olanlar, həm də sıravi oxucular böyük maraqla öyrənirlər, mütaliə edirlər.

**Bəli, bu gün barəsində dostlarının, onun tanıyanların xatirələrini və bir də müalicə etdiyi insanların xoş sözlərini dinləyərəkən gözəl ailə, üç övlad sahibi olmuş Ənvər Metenin bir alim, bir ziyalı, bir həkim və bir vətəndaş kimi əbədiyaşarlıq hüququ qazandığına inandırdı. Ruhu şad olsun!**

**Əbülfət MƏDƏTOĞLU**

# Hacı Məhəmmədin başçılığı ilə 1837-ci il Quba üsyanı

***Minlərlə yeni-yeni***
***şəhidlər verdi,***
***yeni şəhidlərin***
***ruhları ilə yenidən***
***silahlandı AZƏRBAYCAN !***

**Azərbaycan Rusiya ilə İran arasında ikinci dəfə bölüşdürüldükdən sonra çar hökuməti Şimali Azərbaycanda xanlıqları ləğv etdi. Şimali Azərbaycan Rusiya dövlətinin qanunları ilə idarə olunmağa başladı. Yurdumuza çar Rusiyanın ağır zülmü dövrü başlandı. Şimali Azərbaycan torpaqları 6 əyalətə bölündü. Əyalətlər isə mahallara bölünürdü. Hər əyalət bir rus zabiti idarə edirdi. Bu zabit komendant adlanırdı. Mahalları isə naiblər idarə edirdi. Onlar komendantın əmrlərini yerinə yetirirdilər. Komendantlara çox böyük ixtiyarlar verilmişdi. Onlar bəy torpaqlarını zəbt edə və paylaya bilərdilər. Komendant istədiyi xanı və bəyi sürgünə göndərə bilərdi. Komendantlar vergilərin bölüşdürülməsi və toplanmasına başçılıq edirdilər. Bu cür idarə üsuluna komendant idarə üsulu deyilirdi. Dövlət işləri rus dilində aparılırdı. Azərbaycan dili amansızlıqla sıxışdırıldı. Ticarətdə ancaq rus pulu işlənirdi. Ləğv olunan xanlıqların və getmiş xanların mülkləri, torpaqları çar hökumətinin əlinə keçmişdi. Bunlar dövlət və ya xəzinə torpaqları oldu. Bu torpaqlarda yaşayan kəndlilər də dövlət (xəzinə) kəndliləri adlanmağa başladılar. Çar hökuməti onların üzərinə ağır vergilər qoymuşdu. Komendantlar bu kəndlilərdən vergiləri yığır və dövlətin xəzinəsinə verirdilər.**

Rəislərin əhalidən topladığı vergilər xəzinəyə daxil edilmədikdə, dövlət həmin vergini verilməmiş hesab edir və camaatdan yenidən vergi alınırdı. Ölkədə komendantlıların özbaşınalığı baş alıb gedirdi.

Çar hökuməti müsəlman əhalini öz dinindən döndərməyə çalışırdı. Komendantlar müsəlmanları, onların dini iradələrini sıxışdırırdılar. Məsələn, Quba əyalətinin komendantı bir neçə il dalbadal məscidə çatası zəkatı mənimsədi. Buna görə də məscidlər və buradakı məktəblər lazımi tədbirlərdən ötrü pul tapmırdılar. Beləliklə, Şimali Azərbaycanda əhaliyə ağır dini zülm edilirdi. Əhali məcburi surətdə, haqq verilmədən yollar çəkilişinə, tikinti işlərinə aparılırdı.

Xalq dili, dini yad olan zülmkarların buyruğunu yerinə yetirməyə zorla məcbur edilirdi. Bütün bunlar azmış kimi 1837-ci ilin əvvəllərində Quba əyalətində qara xəbər yayıldı. Varşavadakı müsəlman süvari alayına atlılar toplanmalı idi. Süvari dəstələri əhalinin hesabına yaradılmalı idi. Bu hadisə komendantın özbaşınalığından cana doymuş əhalinin narazılığını daha da artırdı. Bəzi yerlərdə kəndlilər süvari dəstələri göndərməyə etiraz etdilər. Həyəcan bütün əyalətə yayıldı. Kəndlilər tələb edirdilər ki, onları süvari əsgər verməkdən azad etsinlər. Həmçinin onlar dövlət vergilərini azaltmağa, komendantın vəzifəsindən götürülməsini və bəzi çar qulluqçularının sürgün olunmasını tələb edirdilər. Hərəkatın böyüməsindən qorxan çar hökuməti komendant və onun iki işçisini vəzifələrindən götürdü. Kəndlilərin əsas tələbi isə ödənilmədi.

1837-ci ilin yayında Quba əyalətində yeni kəndli çıxışları başladı. Kəndli Yarəlının başçılıq etdiyi üsyançı dəstəsi 50 nəfərlik çar qoşun hissəsini əsir aldı və onu tərk-silah etdi.

Üsyançılar Xudat məntəqəsini tutdular. Üsyan 14 mahaldan 13-nü bürüdü. Üsyanda kəndlilərdən başqa şəhər əhalisinin də bir hissəsi iştirak edirdi. Üsyanın başçısı kəndxuda Hacı Məhəmməd idi. Üsyançılar onu xan elan etmişdilər. Avqustun 30-da 12 minlik kəndli ordusu Quba qalasını mühasirəyə aldı.

Üsyançıların hərbi şurasında qalanı qəti hücumla tutmaq qərara alındı. Üsyançılar şəhər əhalisi ilə gizli əlaqə yaratdılar. Onlar öz qüvvələrini 3 hissəyə böldülər. Hər hissədə 4 min adam vardı. Sentyabrın 4-dən 5-nə keçən gecə iki dəstə Quba qalasına hücum etdi. Üçüncü dəstə düşmənə arxadan zərbə vurmalı idi. Bu dəstəyə Yarəli özü başçılıq edirdi. Şəhərlilərin köməyi ilə üçüncü dəstə şəhərə daxil oldu. Qızğın döyüş başlandı. Lakin üsyançıların ayrı-ayrı dağınıq dəstələri çar qoşunlarına qarşı davam gətirə bilmədilər. Onlar axşama yaxın sıxışdırılıb şəhərdən çıxarıldı. Çar hököməti üsyanı yatırmaq üçün əlavə qoşun hissələri göndərdi. Şirvan komendantının göndərdiyi 1000 nəfərlik qoşun Quba əyalətinə daxil olan kimi əhalini ucdantutma qarət etməyə başladı. Bu xəbər üsyançılara çatdı. Hacı Məhəmməd üsyançıları evlərinə buraxdı. Ələ keçən Hacı Məhəmməd edam olundu.

Yarəli isə dağlara çəkildi.

Üsyan amansızlıqla yatırıldı. O, yerli əhalinin çar hökümətindən, onun komendantlarının zülmündən narazılığının artdığını göstərirdi. Bu narazılıq o qədər artmışdı ki, əhali silahlanaraq üsyana qalxmış, çar qoşunu ilə açıq-aşkar vuruşmağa başlamışdı. Odur ki, çar hököməti bir qədər sonra komendant idarə üsulunu ləğv etməyə məcbur oldu. Deməli, üsyançıların mübarizəsi, axıdılan qanlar hədər getməmişdi.

Şimali Azərbaycan Rusiyaya qatıldıqdan sonra ölkəmizdə yadelli işğalçılara qarşı baş vermiş ən qüvvətli xalq üsyanlarından biri 1837-ci il Quba üsyanı idi. Bu dövlətdə yurdumuzun başqa yerlərində də çar cəlladlarına qarşı üsyanlar baş verdi.

**Xalqımız yadelli işğalçılara boyun əymək istəmirdi.**

**Şixəmməd Seyidməmmədov,**
**Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialının "Təbiət elmləri" kafedrasının baş müəllimi**

# C.Yellenin təklifi Hindistanı "yoldan" çıxartdı



**Ötən həftə ABŞ Maliyyə Naziri Canet Yellen Hindistan üçün cəzbedici açıqlama vermişdi. O bildirmişdi ki, ABŞ Hindistanın Rusiya neftini Qərb şirkətlərinin xidmətlərindən istifadə etmədən qiymət limitindən yüksək almasına qarşı deyil.**

Yellenin bu açıqlamasından sonra artıq Hindistan ən yaxşı tərəfdaşı olan Rusiya ilə əlaqələri azaltmaq fikrinə düşüb. Adalet.az qərb mətbuatına istinadən xəbər verir ki, Hindistan AB-nin sanksiyaları səbəbindən Rusiyadan neft alışını müvəqqəti dayandıracaq. Məlumata görə, Hindistan neft emalı kompleksinin operatoru "Reliance Industries" dekabrın 5-dən sonra Rusiya neftinin yüklənməsi üçün sifarişlərin icrasını təxirə salmaq qərarına gəlib.

Qeyd edək ki, sanksiyalardan sonra Yaponiyanın ən böyük neft şirkəti olan "Eneos Holdings" , Böyük Britaniyanın transmilli neft-qaz şirkəti "British Petroleum, Çinin dövlət şirkətləri, Almaniya, ABŞ və bir sıra dünya ölkələri Ukraynaya hücumla əlaqədar Rusiyadan neft-qaz idxalını dayandırıb.

***P.S.** Qərb ölkələrinin Rusiyaya zərbə vurmaq məqsədini Rusiya təmkinlə qarşılayır və adi hal hesab edir. Amma özünə dost və tərəfdaş bildiyi ölkələrin qərb ölkələri ilə eyni sırada durmağını bağışlamayacağı dəqiqdir. Bildiyimiz kim, Rusiyanın Hindistandakı səfiri Denis Alipov bu ilin martında jurnalistlərə açıqlamasında bildirdi ki, yaxın zamanda Hindistanın Korva şəhərindəki müəssisədə "Kalaşnikov AK-203" avtomat silahı istehsal ediləcək.*

***Beləki, "AK-203"ün istehsalının nəzərdə tutulduğu zavod Hindistan-Rusiya birgə müəssisəsidir. Maraqlıdır ki, 2019-cu ilin martında Hindistanın Baş naziri Narendra Modi "Kalaşnikov" avtomat silahının istehsalı ilə bağlı Hindistan-Rusiya birgə müəssisəsinin yaradıldığını elan etmişdi. Beləcə Rusiyanın dost və tərəfdaşları tükənmək üzrədir.***

# "İstəyirəm ermənilər evinə - Kəlbəcərə getsinlər" - Ağababyandan FOTO və PAYLAŞIM



**Əvvəlki, sosial şəbəkə paylaşımlarında "Ermənilər 26 il Qarabağı dağıtdı, amma Bakı 20 ay içində bu dağıntılar üzərində şəhərlər, kommunikasiya, yüksək səviyyəli yollar, körpülər tikə bildi" yazaraq soydaşlarını qınayan Ermənistanın Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Alvina Ağababyan yenə də paylaşım edib.**

Adalet.az xəbər verir ki, Ağababyan sosial şəbəkə hesabında növbəti dəfə sərsəm arzularından yazıb. O, foto paylaşaraq bildirib ki, istəyirəm bir gün 2 il bundan qabaq Ermənistana gələn maşınlar ard-arda əks istiqamətdə - evə, Kəlbəcərə, Qarabağa getsinlər: "2020-ci ilin bu günlərində ermənilərin Kəlbəcərdən köçü baş verdi. Başsız, çarəsiz qalan ermənilər evini, torpağını tərk etmək və ölülərini də özü ilə aparmaq məcburiyyətində qaldı. 2 il sonra Nerkin And kəndinin də əhalisi artıq azalıb. Zəngəzur, Vayots Dzor və Qeqarkunik kimi çoxsaylı yaşayış məntəqələri köçmək riski altındadır. 2 ildir ki, vətənimizin daha böyük bir hissəsini, yüksəkliklərimizi, yollarımızı itirmişik, yüzlərlə yeni ölülərimiz, itkinlərimiz, əsirlərimiz, dəfn edilməmiş cəsədlərimiz var…

S.Malxasyanın izahlı lüğətində ilğım sözü belə şərh olunur: "Aldatma, fırıldaq" . Türklər bizimlə dinc yaşamaq istəmir. Türklərlə barışmaq ilğımdır. İstəyirəm bir gün 2 il bundan qabaq Ermənistana gələn bu fotodakı maşınlar ard-arda əks istiqamətdə - evə, Kəlbəcərə, Qarabağa getsinlər".

Qeyd edək ki, Ağababyan demək olar ki, bütün çıxışlarında, eyni zamanda sosial şəbəkə paylaşımlarında erməni xalqını Qarabağı sevməməkdə ittiham edib: "Bilirsiz niyə belə oldu? Çünki biz bu torpaqları sevmirik, azərbaycanlılar isə sevir və bunu sübut edirlər. Şuşada möhtəşəm körpü inşa olunub, ikincisi isə yaxın vaxtlarda tikiləcək. Şuşaya gedən yolda isə elə bağ salınır ki, onu hətta kosmosdan da görmək mümkün olacaq. Bütün bunlar 20-21 aya olunub. Biz isə 26 il ərzində Qarabağda yaşayan erməni əhalisi üçün strateji və həyati əhəmiyyətli 80 kilometrlik yolu inşa edə bilməmişik"

***P.S.** Bir bəşər övladı nə qədər həyasız olmalıdır ki, 30 il əvvəl işğal etdiyi Azərbaycan torpağını öz vətəni adlandıra, o torpaqların əhalisini soyqırım edərək yurd-yuvasından qovub-çıxara. Sonra da deyəki, "ermənilər evlərinə dönsün" . Anlaşılan odur ki, bu toplum bəşər övladı deyil, tərtəmizcə şeytan balalarıdır…*

**Əntiqə Rəşid**

# Şimali Koreya qısa mənzilli ballistik raket buraxıb



**Şimali Koreyanın Yapon dənizi istiqamətində yeni qısa mənzilli ballistik raket buraxdığı bildirilir.**

Adalet.az xəbər verir ki, raket sınağı Şimali Koreyanın xarici işlər naziri Ço Son Huinin regionda müdafiə sahəsində əməkdaşlığı gücləndirmək barədə razılığa gələn ABŞ-Cənubi Koreya-Yaponiya ittifaqını hədəf alan bəyanatının "təhdid" kimi şərh edilməsindən dərhal sonra baş verib.

Keçən aydan bəri ardıcıl raket sınaqları ilə Koreya yarımadasında və ətrafında təhlükəsizlik narahatlıqlarını artıran Şimali Koreyadan yeni bir silah sınağı gəldi. Cənubi Koreya ordusundan verilən açıqlamada Pxenyan rəhbərliyinin yerli vaxtla saat 10:48 radələrində Qanqvon əyalətinin Vonsan bölgəsindən Yapon dənizinə doğru yeni qısa mənzilli ballistik raket atdığı bildirilib.

47 kilometr yüksəklikdə 240 kilometr yol qət edən raketin səsin 4 qatı Mach 4 sürəti ilə uçduğu, Cənubi Koreya və ABŞ qüvvələrinin ətraflı araşdırmalarını davam etdirdiyi açıqlanıb.

Yaponiya hökuməti də raket sınağını təsdiqləsə də, ilkin təsbitlərə görə raketin ölkənin müstəsna iqtisadi zonasından kənara düşdüyü hesab edildiyi açıqlanıb.

**Əntiqə Kərimzadə**

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

№ 44 (2318) 19 noyabr 2022-ci il

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Böyük Zəfərimizin müəllifi

**Artıq dünyada hər kəsin bildiyi və qəbul etdiyi gerçəkliklər var. O gerçəkliklər həm siyas-iqtisadi mühitdə, həm ictimai dairədə müzakirələr mövzusu olur və bu gün də olmaqda davam edir. Baxmayaraq ki, zaman və tarix öz işini görür, hadisələrin axarı öz işindədi. Biz təkcə öz regionumuzda baş verənləri diqqətə gətirəndə onda söylədiklərimizin çox önəmli bir dayaq nöqtəsi olduğuna şübhə yeri qalmır. Və biz də həmin o böyük dayaqdan, yəni ərazi bütövlüyümüzdən, Ali Baş Komandanımızdan, Ordumuzdan və Zəfərimizdən yararlanaraq öz həqiqətimizi təsdiqləməkdə davam edirik. Bunun üçün kimlərinsə razılığını və fikirlərini əsas götürmürük. Sadəcə olaraq 30 illik bir tarix bizə və bütün dünyaya göstərdi ki, ədalət gec-tez Zəfər çalır. Necə ki, böyük Zəfərimizdə bir daha biz bunun iştirakçısı və şahidi olduq.**

Tarixə səyahət etsək, onda görərik ki, Azərbaycan Prezidenti, Ali Baş Komandanımız, cənab İlham Əliyevin Azərbaycanı idarə etdiyi bu illər ərzində biz çox böyük mübarizələrdən, qarşıdurmalardan siyasi iradəni təsdiq etməklə peşəkar siyasətçi kimi qalib çıxdı. Yəni Azərbaycan dövlətinin rəhbəri yürütdüyü daxili və xarici siyasət sayəsində bütün dünyaya sübut etdi ki, biz torpaqlarımızı azad etməyə qadir xalqıq və bunu da hər kəsin gözü qarşısında birmənalı şəkildə reallaşdırdıq. Ona görə də Azərbaycan həqiqətləri dünyanın diqqətini özünə çəkdi. Hər kəs anladı ki, Azərbaycan adlı dövlət var, onun ərazisi var, onun coğrafiyası məlumdur və onun qətiyyətli, uzaqgörən prezidenti, Ali Baş Komandanı var.

Biz həmin söylədiyimiz tarixi proseslərə bir az da yaxından nəzər salanda onu da görürük ki, təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da Azərbaycan reallığı və bu reallığın müəllifi olan cənab İlham Əliyevi hər gün nüfuzu, bir dövlət rəhbəri kim reytinqi yüksəlməkdədir. Təbii ki, bunun da şərtlərindən biri 44 günlük Vətən müharibəmizdəki Zəfərdir. Məlumdur ki, hakimiyyətdə olduğu bu illər ərzində Azərbaycan Prezidenti ölkəmizi etibarlı tərəfdaş, regionda və dünyada müstəqil xarici siyasət yürüdən bir dövlət kimi tanıdıbdır. Ona görə də ölkəmizin beynəlxalq əlaqələri günbəgün güclənir, genişlənir. Cənab İlham

Əliyevin prinsipiallığı, yenilməz iradə nümayiş etdirərək Azərbaycan xalqının milli maraqlarını

qətiyyətlə müdafiə etməsi, məqsədyönlü və ardıcıl siyasət yürütməsi tarixi Qələbəmizin əsas şərtlərindən biri olubdur. Həm siyasi, həm də hərb meydanında parlaq Qələbələr əldə edib və bu gün də həmin Qələbələr silsiləsi böyük qayıdışda özünü ifadə etməkdədi.

Bir məqamı xatırlatmaq yerinə düşər ki, məhz Ali Baş Komandanın iradəsi və uzaqgörənliyi nəticəsində üç rayonumuz - Ağdam, Kəlbəcər və Laçın bir güllə belə atılmadan, şəhid vermədən Azərbaycana qaytarıldı. Təkcə həmin rayonların coğrafiyasını göz önünə gətirsək, onda Ağdamı, Laçını, Kəlbəcəri işğalçılardan azad etmək üçün nə qədər canlı qüvvə və silah-sursat gərək olduğunu təxmin etmək yəqin ki, çətin olmaz. Üstəlik, o torpaqların uğrunda verəcəyimiz şəhidlərin də sayını təsəvvür etmək yəqin ki, mümkündür. Bax, güllə atmadan azad etdiyimiz bu torpaqların həm coğrafi məkan kimi önəmi, həm də şəhidsiz şəhid vermədən azad edilməsi bizim üçün son dərəcə önəmlidir. Həm də burda bizim qazandığımız bir gerçəklik də var, o da Azərbaycan əsgərinin önəmidi, ona verilən qiymət, ona göstərilən qayğıdır. Ölkə Prezident idə bunu öncədən hesablamış, necə deyərlər, bütün variantları nəzərdən keçirib, məhz bir güllə atmadan bu torpaqların azad edilməsi variantını qəbul etmişdir. Təkrar vurğulamaq istərdim ki, itki vermədən torpaqların geri qaytarılması dünya tarixində az rast gəlinən təcrübədir ki, bu, Prezident İlham Əliyevin praqmatik, düşünülmüş və uzaqgörən siyasəti nəticəsində əldə edilmiş möhtəşəm bir uğurdur.



Ölkə rəhbərinin diplomatik məharəti, prinsipiallığı, dəqiq və məqsədyönlü siyasəti

nəticəsində qazandığımız tarixi qələbə həm də dünyaya sübut etdi ki, artıq Azərbaycanla güc dilində danışmaq dövrü arxada qalıb. Çünki ölkə başçımızın prosesi yüksək peşəkarlıqla,

çevikliklə idarə etməsi, zəruri müdaxilələri və korrektələri diplomatik masada da bizi düzgün

hədəflənmiş uğura doğru bu gün də aparır. Azərbaycanın iqtisadi-siyasi potensialı bütün müstəvilərdə Ermənistanın işğalçılıq siyasətinin ifşa edilməsinə yönəldildi. Əgər diqqət yetirsəniz, görərsiniz ki, cənab Prezident özünün bütün çıxışlarında hər zaman qeyd edir ki, məhz işğal siyasətinə görə Ermənistanı bütün regional layihələrdən təcrid edilib. Ona görə də Ermənistan heç bir perspektivi olmayan dalan dövlətə çevrilibdir. Bu da onu göstərir ki, Azərbaycanın qazandığı bu Qələbə, sadəcə, 44 günlük müharibənin nəticəsi deyil, bu, həm də İlham Əliyevin hakimiyyətdə olduğu illərin birmənalı bəhrəsidi, nəticəsidi. Yəni Prezidentimizin düşünülmüş şəkildə yürütdüyü siyasət nəticəsində münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli ilə bağlı hüquqi baza məhz bu illərdə yaradıldı, dünyada da Azərbaycan haqqında obyektiv fikir formalaşdırıldı.

Bu, bir tarixi həqiqətdir ki, 44 günlük müharibə dövründə erməni təcavüzkarları insanlığa

yad olan, heç bir norma və əxlaqa sığmayan vasitələrə əl atmış, xalqımıza qarşı növbəti

vəhşiliklər törətmiş, cəbhə xəttindən, döyüşlər gedən ərazilərdən çox-çox uzaqlarda yerləşən

şəhər və kəndləri, yaşayış obyektlərini, mülki əhalini qadağan olunmuş silahlarla, ballistik

raketlərlə, toplarla atəşə tutmuş, 100-ə yaxın dinc sakin həlak olmuş, dörd yüzdən çox mülki

vətəndaş yaralanmış, minlərlə binalar dağıdılmış, infrastruktur obyektlərinə ciddi ziyan

dəymişdir. Bu, qadağan edilmiş silahlardan istifadə, dinc sakinlərin atəşə tutulması kimi hallar da Prezidentimizin işğaldan azad edilmiş bölgələrimizə səfərləri zamanı həm telekanallar vasitəsilə, həm də medianın, eləcə də bölgələ olan xarici nümayəndələrin özlərinin vasitəsi ilə dünyaya çatdırılmışdı. Yeri gəlmişkən onu da vurğulayaq ki, xarici səfirliklərin, media təmsilçilərinin, parlament üzvlərinin, dövlət adamlarının Füzuli, Cəbrayıl və Ağdam rayonlarına səfərlərinin təşkilində də məhz gerçəkliyi yerindəcə dünya ictimaiyyətinə təqdim etmək, görüntüləri yayımlamaq, artıq aparılan təbliğat işimizin əsas xətlərindən birini təşkil edir. Biz bu vasitələrdən istifadə etməklə erməni vandallarının iç üzünü böyük dünyaya göstəririk.

**Təbii ki, bu siyasi təbliğat işinin qurulmasında, aparılmasında Azərbaycan iqtidarının, xüsusilə Prezidentimizin böyük əməyi özünü birmənalı şəkildə büruzə verir. Hər kəs bir daha görür ki, düşmən bu torpaqlarda mina əkmək, vandallıq etmək, bir sözlə, daşı daş üstünə qoymamaq prinsipi ilə müvəqqəti yaşadığını bilibdir. Ona görə də bu gün Ermənistana havadarlıq edənlər, Qarabağ mövzusunu yenidən gündəmə gətirməyə çalışanlar kor gözlərini açıb ermənilərin əməllərinin mənzərəsinə diqqət yetirsələr, daha yaxşı olar. Həqiqət nə qədər acı olsa da, real vəziyyət özü-özlüyündə bir daha sübut edir ki, ermənilər Azərbaycan torpaqlarında özlərini cani kimi, vəhşi kimi aparıblar və biliblər ki, gec-tez bu torpaqların sahibi onları işğal etdikləri ərazidən iti qovan kimi qovacaqlar. Çünki bu torpağın sahibi də, onun dəmir yumruğu da var.**

**Əbülfət MƏDƏTOĞLU**

AZƏRBAYCAN RESPUBLİKASININ MEDIANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ



# Topçu Ağabala

## Yaxud bu Prokuror dəlidirmi?..

**Avqust 1993-cü il. Qarabağın dağlıq hissəsini zəbt etmiş erməni faşistləri "sülhsevər" və "cəfakeş" erməni xalqını gələcək təhlükələrdən qorumaq məqsədi ilə "bufer zona " yaratmaq üçün, ətraf ərazilərin işğalına başlamışdılar. 23 iyul 1993-cü ildə Ağdam şəhəri,23 avqust 1993-cü ildə Cəbrayıl və Füzuli şəhərləri işğal olundu.Ayın 24-də erməni silahlı birləşmələri 5 tank,3PDM,300-ə yaxın döyüşçü ilə böyük strateji əhəmiyyət kəsb edən Cəbrayıl-Qubadlı-Zəngilan yoluna nəzarəti ələ keçirmək üçün Füzuli rayonunun Əhmədbəyli kəndinə hücuma keçdilər.Bundan əvvəlki döyüşlərdə böyük təlefat verən və əlavə kömək almayan briqadanın 2 taboru geri çəkilərək Əhmədbəyli kəndini tərk etdi.Düşmən arxayınlıqla boşalmış kəndə girməyə hazırlaşarkən qarşısında qala kimi dayanmış ,canını vətən yolunda sipər etmiş igidlərlə rastlaşdı.100 mm-lik 19KS markalı topun komandiri 3 nəfər döyüşçü ilə düşmənə fasiləsiz sarsıdıcı zərbələr endirir,onların canlı qüvvəsini və texnikasını -2 tankını,1 PDM-ni,1 UAZ markalı maşınını məhv edir.Döyüşün həlledici anında Rövşən Əkbərovun komandiri olduğu 777 saylı hərbi hissənin döyüşçüləri köməyə gəlir və düşmən 1 tankını döyüş meydanında qoyaraq qaçır.Errməni komandir top atəşlərinin sərrastlığından kiminlə qarşılaşdığını hiss edir və hücumu dayandırmaq əmri verir.Ermənilər tutduqları mövqelərdən10 km geri çəkilməyə məcbur olurlar.Bununla da 12 kənd işğaldan qurtula bilir. Düşməni qorxuya salan və geri çəkilməyə məcbur edən Topçu Ağabala idi.**

### *Kimdir topçu Ağabala?*

Quliyev AĞABALA Qubad oğlu 13 fevral 1958-ci ildə Füzuli rayonunun Mahmudbəyli-2 kəndində anadan olmuşdur.Orta məktəbi bitirdikdən sonra 2 il sovet ordusu sıralarında qulluq etmişdir.Hərbi xidməti başa vuran Ağabala 1978-ci ildə ADU-nun hüquq fakültəsinə daxil olub 1983-cü ildə həmin fakültəni fərqlənmə diplomu, K.Marks təqaüdü ilə bitirmişdir. Təyinatla prokurorluğa qəbul edilən Ağabala Quliyev 1983-1987-ci illərgə Naxçıvan MR Culfa rayon prokurorluğunun müstəntiqi, 1987-1990-cı illərdə Naxçıvan MR prokurorunun köməkçisi vəzifələrində işləmişdir.1990-1992-ci illərdə Azərbaycan Respublikası Prokurorluğunun Mülki İşlər üzrə məhkəmə qərarlarının qanuniliyinə nəzarət idarəsində böyük prokuror,1993-cü ilin yanvar-mart aylarında Baş Prokurorluğun Təşkilat- nəzarət idarəsinin analitik informasiya şöbəsinin rəisi,aprel-sentyabr aylarında Sumqayıt şəhər prokuroru vəzifələrində işləmişdir.1993-cü ilin sentyabr ayından 1994-cü ilin oktyabr ayına kimi Azərbaycan Respublikası Prokurorluğunun Mülki İşlər üzrə məhkəmə qərarlarının qanuniliyinə nəzarət idarəsində böyük prokuror , 1994-cü ilin oktyabr ayından 1995-ci ilin may ayına kimi Salyan rayon prokurorunun müavini vəzifələrində işləmişdir.1995-ci ilin may ayından 2018 ci ildə təqaüdə çıxana qədər Baş Prokurorluğun Təşkilat -analitik idarəsində böyük prokuror-metodist vəzifəsində işləmişdir.

Xocalı soyqırımından sonra bir çoxları kimi Ağabala Quliyevə də aydın olmuşdu ki,bu münaqişənin sülh yolu ilə həlli yoxdur.1992-ci ilin mart ayında ermənilər" Alazan" və "Kristal" raketləri ilə Füzuli şəhərini bombaladılar.Bu xəbəri eşidən Ağabala müəllim Baş prokuror Murad Babayevə müraciət edərək, döyüşən orduya getmək istədiyini bildirdi.Vətənin müdafiəsi üçün göstərilən cəhdləri müsbət dəyərləndirən Murad müəllimin razılığı ilə döyüş sərgüzəştləri başlayan Ağabala Quliyev 25 mart 1992-ci ildə 839 saylı hərbi hissədə bölük komandiri və taborun qərargah rəisi vəzifəsinə təyin edildi və bu vəzifədə 19 iyul 1992-ci ilə qədər işlədi.Bir müddət prokurorluq fəaliyyətinə qayıdan Ağabala Quliyev Ağdam şəhəri işğal olunduqdan sonra 23 iyul 1993-cü ildə Sumqayıt şəhər prokuroru vəzifəsində işləyərkən, yenidən döyüşən ordu sıralarına qatılmış və 24 yanvar 1994-cü ilədək 702 saylı hərbi hissədə top komandiri vəzifəsində qulluğunu davam etmişdir.

Ağabala müəllimin saysız- hesabsız şücaətləri komandanlıq tərəfindən yüksək qiymətləndirilmiş,2 dəfə ona "Azərbaycanın Milli Qəhrəmanı"adı verilməsi barədə məsələ qaldırılmş,lakin hər iki halda müxtəlif səbəblərdən vəsadətlər nəticəsiz qalmışdır.

702 saylı hərbi hissənin komandiri,podpolkovnik N.K.Piriyev və qərargah rəisi podpolkovnik A.G.Məmmədovun imzası ilə 11 oktaybr 1993-cü ildə Azərbaycan Respublikasının Baş Prokuroru Ə.Ömərova və surəti Sumqayıt şəhər İH-nin başçısına ünvanlanmış təqdimatda Ağabala Quliyevin döyüşlərdə göstərdiyi igidliklər sadalanır və ona "Azərbaycan Milli Qəhramanı"adı verilməsi barədə dövlət başçısı qarşısında vəsadət qaldırmaq xahiş olunur.Həmin təqdimatı həyacansız oxumaq mümkün deyil.

"702 N-li hərbi hissəsin komandanlığı adından dərin məmnuniyyət və minnətdarlıqla Sizə məlum edirəm ki,Sumqayıt şəhər prokuroru,baş leytenant/ədliyyə müşaviri/ Ağabala Qubad oğlu Quliyev briqadamızın 6-cı taborunun komandirinin müavini, 100 mm-lik 19-KS markalı topun komandiri kimi erməni hərbi hissələri birləşmələri ilə aparılan müharibədə qəhrəmanlıqla vuruşur, öz qəhrəmanlığı ilə döyüşçülərə ilham verib, onları qələbəyə ruhlandırır.



A.Q.Quliyev 1992-ci ilin mart ayının 25-dən may ayının 27-nə kimi 2-ci taborun 3-cü bölüyünün komandiri,mayın 27-dən iyulun 19-a kimi taborun qərargah rəisi vəzifəsində xidmət etmişdir.Bu zaman o,özünü cəsur komandir, mahir topçu kimi göstərmiş, topla dəfələrlə düşmənə ağır zərbələr vuraraq onların xeyli canlı qüvvəsini, ağır hərbi texnikasını, yaşayış məntəqələrini,dayaq nöqtələrini məhv etmişdir.O,dəfələrlə təkbaşına düşmənin bir neçə topu və tankları ilə duelə çıxıb həmişə qalib gəlmiş, düşmənin atəş nöqtələrini susmağa məcbur etmişdir.O, 28.06.92-ci ildə Tuğ istiqamətində gedən döyüşdə yaralanmışdır." Təqdimatda daha sonra oxuyuruq.

"A.Q.Quliyev Vətənin ağır günlərində 23.07.93-cü ildə yenidən könüllü surətdə Füzuliyə-briqadamıza qayıtmışdır.Keçən müddət ərzində A.Q.Quliyev öz qəhrəmanlığı ilə briqadanın komandir, zabit və şəxs heyəti, həmçinin yerli əhali arasında özünə böyük şöhrət və hörmət qazanmışdır. A.Q.Quliyevin qəhrəmanlığı özünü bariz şəkildə 07.08.93 və 24.08.93-cü illərdə göstərmişdir.Avqustun 7-də o, topla Füzuli şəhərinin yaxınlığındakı strateji cəhətdən əhəmiyyət kəsb edən Mengələnata yüksəkliyindən düşmənin dayaq məntəqələri darmadağın etmiş, nəticədə həmin yüksəklik 72 N-li və 839 N-li taborun döyüşçüləri tərəfindən heç bir təlafat verilmədən alınmışdır.

Təqdimat bu sözlərlə yekunlaşır:

***"Briqadamızın bütün şəxsi heyəti A.Q.Quliyevlə fəxr edir, belə bir cəsur,qeyrətli oğul, işçi yetişdirdiyinə görə,tərbiyə etdiyinə görə respublika prokurorluğunun aparatına briqadamızın komandanlığının dərin minnətdrlığını bildirməyinizi rica edirəm."***

Adətən novatorluğu ilə fərqlənən Baş Prokuror Əli Ömərov hansı səbəbdənsə təqdimata baxılmasını Kadrlar idarəsinin rəisi Şahmalı Məmmədova tapşırır.Nəticədə Baş prokurorun əmri ilə Ağabala Quliyevə təşəkkür elan edilməklə bir aylıq əmək haqqı məbləğində(28 şirvan) pul mükafatı verilir.

Qeyd:Komandanlığın diqqsizliyindən Ağabala Quliyev rəsmi əmrlə hissənin siyahisinə daxil edilməmişdi.Məhz bu səbəbdən də müraciət Baş Prokurora ünvanlanmışdır.

Ağabala Quliyevin döyüş dostu,zenit raket taqımının komandiri Əhmədov Taleh Famil oğlunun dediklərindən: -24 avqust 1993-cü il Füzulilər üçün ağır günlər idi.Bir gün əvvəl Füzuli şəhəri işğal olunmuş,vahid komandanlıq olmadığından insanlar həyacan içində evlərini tərk etmişdilər.Ağabalanın topu Əhmədbəyli kəndinin yaxınlığlndakı təpədə tək qalmışdı.Həmin topu Ağabala bir gün əvvəl hissələrlə traktora yükləyib Şükürbəyli kəndindən gətirmişdi.Mənim taqımım 500 metrlik məsafədə aşağıda mövqe tutmuşdu.Aramsız atəş açırdıq.Ağabala düşmənin iki tankını vurdu.Düşmən qüvvələri pərən-pərən olub geri çəkilməyə məcbur oldular.

1-ci və 2-ci Qarabağ müharibəsinin iştirakçısı, "Cəsur döyüşçü","Xocavəndin alınması","Füzulinin alınması"medalları ilə təltif olunmuş,1966-cı il təvəllüdlü Qurbanov Əbülfəz(Amil) Qənimət oğlunun dediklərindən: - Ağabala müəllimlə ilk dəfə 1992-ci ildə tanış olmuşam.O Tuğ kəndi ilə qonşu olan Kovşanlı kəndinə gəlmişdi.Onun gəlişi döyüşçülərdə ruh yüksəkliyi yaratmışdı.Ağabala müəllim haqqında çox danışmaq olar.

06 may1992-ci ildə "Qanlı dağ" deyilən yerdə ermənilərlə açıq döyüşə girdik. Ermənilərin ratsiya ilə danışığından məlum oldu ki,onların 35 əskər və zabiti öldürülüb.Həmin döyüşdə Ağabala müəllim ağır top mərmilərini çiynində yüksəkliyə qaldırırdı. Döyüş bizim qələbəmizlə başa çatsa da şəhidlərimiz var idi.Taqım komandiri xalqımızın igid oğlu Mahir Məmmədovun ölümü hamımızı sarsıtmışdı.Ağabala müəllimin təşəbbüsü ilə cənazəni Bakı şəhərinə gətirib,Baş prokurorluğun yaxınlığında vəxri qaravul təşkil edildi və sonra şəhidlər xiyabanında dəfn etdik.Dəfn mərasimində Ağabala müəllimin ailə üzvüləri də iştirak edirdi.

28 iyun 1992-ci il döyüşlərində Ağabala müəllim yaralansa da həkimləri aldadaraq bir başa döyüş meydanına qayıtmışdı.

Döyüş yoldaşları Ağabalanın özünün demədiyi bir qəhramanlığı barədə də danışırdılar. 24.08.93-cü ildə Niva maşını ilə hərəkət edən briqada komandirinin müavini podpolkovnik Muxtarov və taqım komandirini əsir götürmək üçün ermənilər UAZ markalı maşınla onları təqib edirdilər. Bu səhnəni uzaqdan görən Ağabala Quliyev sərrast top atəşi ilə UAZ-ı vurub düşmənin canlı qüvvəsini məhv edir.

Ağabalanın mahir atıcı olması təsadüfi deyildi.Sovet ordusu sıralarında xidmət etdiyi hərbi hissənin yerləşdiyi şəhərin adı məxviçilik naminə xəritəyə salınmamışdı.Məhz bu xüsusi təyinatlı hərbi hissədə Ağabala topçuluq sənətinin ihcəliklərinə yiyələnmişdi.

28 iyun 1992-ci il tarixini Ağabala müəllim həmişə kədərlə xatırlayır.Füzulidə yerləşən "N" saylı hərbi hissə xeyli miqdarda canlı qüvvə və ağır texnika toplayaraq (onlarla tank və digər zirehli maşınlar) Tuğ-Qırmızıbazar istiqamətində hücuma keçdilər.Hücumun məqsədi Martuni-Hadrut rayonlarını düşməndən təmizləmək və bununla da Şuşanın işğaldan azad etmək idi.Lakin ağır xəyanət nəticəsində tankların heç biri yerindən tərpənmədi.Döyüşçülər top atəşinin köməyi ilə hücuma keçdilər.Hücumun istiqamətini əvvəlcədən bilən düşmən qüvvələri döyüşçülərimizi tezliklə mühasirəyə aldılar və ordumuz ağır tələfat verərək geri çəkilməyə məcbur oldular.

Taqım komandiri,cəsur döyüşçü,peşəkar hərbçi Rasim İbrahimov da(ölümündən sonra Milli Qəhrəman adı verilib)həlak olanlar arasında idi.Rasim İbrahimov ölümündən bir müddət əvvəl Ağabala Quliyevə Milli Qəhraman adı verilməsi barədə komandanlığa müraciət etmişdi.Lakin komandanlığın səhlənkarlığı üzündən Müdafiə Nazirliyi qarşısında məsələ qaldırılmamışdı.

***Haşiyə:*** Həmin döyüşdə şəhid olanlardan 30 yaşlı mayor Rasim İbrahimov ailənin tək öğlu,iki uşaq atası idi.Arif Abdullayev Xocalı faciəsindən sonra döyüşlərə qatılmışdı.Ələkbər Musayev 3 qardaşı ilə ermənilərə qarşı birgə döyüşürdü Cəbhəyə könüllü gələn Firidun Mehdiyev tələbə idi.Sahib Qarayev atasız böyümüşdü.Anasının yeganə ümüdü idi.Saleh Balaca oğlu və Mahir Əliyevdə qeyrətlə vuruşub şəhid olmuşdular.Həmin döyüşdə sağ qalanlar arsında Ağabalanın dostu,mühüm işlər üzrə müstəntiq Yusif Ağayev də var idi.(Onun haqqında gələcək yazılarımızda məlumat verəcəyik)

Heç kimə sirr deyildir ki,müharibə şəraitində satqınlıqla yanaşı şəxsi mənfəət dalınca qaçan,faydalanlara da təsadüf olunur.Prokurorluğunu unutmayan Ağabala Quliyevin təşəbbüsü ilə bir nəfər vəzifəli şəxsin mənimsəmə faktı aşkar olunmuş və haqqında Baş prokurorluq tərəfindən cinayət işi başlanmışdı.

Ağabala müəllimin qəhramanlığı barədə çox yazılıb.

Sabir Özgünün "Adını eşitdiyim igid"povesti və "Topçu Ağabala əfsanəsi"poemasını misal göstərmək olar.

Famil Süleymanovun "Qana Boyanmış Quran"kitabında Ağabalanın ata-babası və özü haqqında maraqlı fikirlər var.

Eynal Əliyevin "Azərbaycan Respublikası Prokurorluğu tarixindən səhifələr"kitabında da Ağabala Quliyevin adı qeyd olunmuşdur.

Dövrü mətbuatda da Ağabala müəllim haqqında çox yazılar dərc olunub.

Mayis Kazımov "Topçu-Prokuror" "Qayıdış"qəzeti 31 avqust 1998-ci il.

Elşad Mehdi "Vətən içimizdəki qisas yanğısından başlayır,prokuror!"-"Hüquqşünas", qəzeti 17 noyabr 1998-ci il.

1993-cü ildə "Femida"qəzetində Ağabala müəllimin döyüş yolundan bəhs edən"Prokuror dəlidirmi?"başlıqlı silsilə yazılar.

Mayis Kazımlı "Prokuror dəlidirmi?.."-"Ədalət "qəzeti 7 may 1997-ci il.

**Qeyd: Mayis Kazımlı həyatını,karyerasını,hətta yaxınlarını təhlükə altına qoyaraq, prokuror kreslosunu düşünmədən səngərlə əvəzləyən Ağabala Quliyevə həsr olunmuş bu yazısınıda ona qarşı olan ədalətsiz münasibətin səbəbini araşdırmağa çalışır." Evini vətən,həyətini ölkə, ailəsini millət hesab edənlər" Ağabala kimi əsl insanı əlbəttə başa düşə bilməzdilər!**

**Ağabala müəllim həmin günləri xatırlayaraq deyir:**

**-Kəndlərdə heç kim qalmamışdı.Ərzaq sarıdan korluq çəkirdik. Döyüşçülər yemək tapmaq üçün boşalmış kəndlərə gedir,təndirlərdən kütə getmiş çörək qırıntılarını toplayıb qidalanırdıq.**

**Mən, Mayis Kazımlı ilə həmfikir olaraq bir əlavə etmək istəyirəm.**

**(ardı var)**

# Əbədi şölə saçan elm məbədinin 60 illiyinə

**Bu danılmaz faktdır ki, "hər bir ali təhsil müəssisəsinin özünəməxsus keçmişi, bugünü və gələcəyi vardır". O cümlədən bu günlərdə 60 yaşını qeyd edəcək Sumqayıt Dövlət Universitetinin də. Ömrünün ahıl çağını yaşayan bu böyük elm, təhsil, tərbiyə ocağının ölkəmizdə ali təhsilin və elmin tərəqqisində əvəzsiz xidmətləri olub və bu gün də davam etməkdərir. Burada böyük iftixar hissi ilə qeyd etmək istərdim ki, SDU-nun son illərdəki naliyyətləri həqiqətən diqqətəlayiqdir. Üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gələn SDU-nun bu günki nailiyyətlərindən, uğurlarından söz açmazdan əvvəl qısaca olaraq tarixinə nəzər salmaq yerinə düşərdi.**

Əvvəla qeyd edim ki, Sumqayıtda belə bir elm-təhsil ocağının açılması zəruriyyətdən irəli gəlirdi. Çünki 1960-cı illər həm paytaxt Bakıda, həm də Sumqayıtda fəaliyyətdə olan neft və kimya zavodlarının ali təhsilli kadrlara ehtiyacı var idi. Ona görə də əvvəlcə Sumqayıtda Azərbaycan Neft və Kimya İnstitutunun tədris məntəqəsi yaradıldı və "bir il sonra 1962-ci ildə bu tədris məntəqəsi Azərbaycan Neft və Kimya İnstitutunun filialı kimi fəaliyyət göstərməyə başladı". Sonralar fəaliyyətini genişləndirərək Universitet səviyyəsinə qalxdı.

Belə ki, Ulu öndər H.Əliyevin "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 13 iyun 2000-ci il tarixli Fərmanı ilə Azərbaycan Sənaye İnstitutunun bazasında Sumqayıt Dövlət Universiteti yaradıldı".

Bu çox doğru fikirdir ki, "Universitetlər öz siması ilə tanınır". SDU-nun da son illərdəki fəaliyyətinə nəzər saldıqda ilk olaraq diqqətimizi onun milli kadrların hazırlanması, yeni elm sahələrinin formalaşması, dünya təhsil məkanına inteqrasiyası və digər sahələrdəki uğurları, nailiyyətləri cəlb edir. Çünki, SDU məhz bu son illərdəki fəaliyyəti ilə həm zəka, həm də mədəni mərkəzlərdən birinə çevrilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 6 mart 2014-cü il sərəncamı ilə görkəmli alim, professor Elxan Bahadur oğlu Hüseynov SDU-nun rektoru təyin edildi. Beləliklə, tez bir zamanda SDU-da bir çox ilklərə imza atıldı. Məsələn, SDU- nun tarixində "ilk dəfə olaraq 2014-cü ilin fevral ayında Elmi Hissə yaradıldı". Hər bir ali təhsil ocağı, elm mərkəzi görkəmli, istedadlı alimləri ilə diqqəti cəlb edir. SDU-da rəhbərlik yüksək elmi və elmi-pedaqoji kadrların hazırlanması və müasir dövrün tələblərinə uyğunlaşdırılması üçün ilk olaraq təhsilin keyfiyyətini yüksəltmək məqsədilə tədris işləri istiqamətində bir çox islahatlar apardı. Yeni kafedralar, labaratoriyalar, H.Əliyev mərkəzi, Tədris Metodik Mərkəz, Karyera Mərkəzi, Əlavə Təhsil Mərkəzi və Təhsildə Keyfiyyət Təminatı şöbəsinin yaradılması təhsil prosesinin təkmilləşməsinə səbəb oldu. Bu gün SDU-da 7 fakültə, 29 kafedra, 1 elmi-tədqiqat mərkəzi, onun nəzdində 5 elmi tədqiqat laborotoriyası, 29 tədtis laboratoriyası fəaliyyət göstərir. Hazırda universitetdə müxtəlif təhsil istiqamətlərində bakalavr pilləsinin əyani şöbəsində 47, qiyabi şöbəsində isə 23 ixtisas, magistratura pilləsində isə 32 ixtisasda 60 ixtisaslaşma üzrə 6000 mindən çox tələbə təhsil alır. Onların təhsili, təlimi ilə 400-dən artıq professor-müəllim heyyəti məşğuldur.

Ən əsası Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 yanvar 2015-ci il sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" SDU-da daha mühüm işlərin görülməsinə yol açdı. Məhz bu sərəncamdan sonra "Sumqayıt Dövlət Universitetində 2015-2025-ci illəri əhatə edəcək təhsilin inkişaf strategiyası" hazırlandı. Hər bir elm ocağında aparılan elmi-tədqiqatların təbliği və tədqiqində respublika və beynəlxalq aləmdə keçirilən elmi konfranslar, çap olunan elmi jurnallar çox mühüm rol oynayır. Hazırda SDU-da da "Elmi xəbərlər" jurnalı ildə dörd dəfə, iki bölmə üzrə çap edilir. Bura daxildir Sosial və humanitar, təbiət və texniki elmlər bölməsi. Elmi jurnal Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə elmi nəşrlər siyahısına daxil edilib və 2019-cu ildən jurnalın hər iki bölməsi üzrə elektron versiyası yaradılıb. 2019-2022-ci illər ərzində "Elmi xəbərlər"də əksər məqalələr rus və ingilis dil lərində çap edilib.

2019-cu ildə SDU-nun "Elmi xəbərlər" jurnalının hər iki bölməsi üzrə elektron versiyası yaradılmışdır. ISSN Beynəlxalq Mərkəzi tərəfindən 26.09.2019-cu il tarixində SDU-nun "Elmi xəbərlər" jurnalının elektron versiyasına ISSN 2706-719X (Online) Beynəlxalq Standart Seriya Nömrəsi verilmişdir.

"SDU-nun Elmi xəbərləri" jurnalı 2019-cu ilin dekabr ayından etibarən RİNÜ (Rossiyskiy indeks nauçnoqo üitirovaniə - Rusiya Elmi İstinad İndeksi- REİİ) Beynəlxalq Məlumat Bazasına daxil edilmişdir.

Bundan başqa universitet tərəfindən "Elmi xəbərlər" jurnalının Elsever şirkətinə məxsus olan SCOPUS beynəlxalq məlumat bazasına daxil edilməsi məqsədilə müraciət olunub. Növbəti mərhələdə Clarivate Analitics şirkətinə məxsus olan Web of Science məlumat bazasına Sumqayıt Dövlət Universitetinin "Elmi xəbərlər" jurnalının hər iki bölməsinin daxil olması planlaşdırılır.

SDU-nun Beynəlxalq DOI Fondunun Crossref rəqəmsal sənədləşdirmə agentliyi ilə 30 noyabr 2021-ci il tarixli müqaviləyə əsasən Universitetdə nəşr olunan bütün elmi əsərlər üçün 10.54759/ DOI prefiksi alınmışdır. Hazırda redaksiya tərəfindən Elmi xəbərlər jurnalında dərc olunan hər bir məqaləyə fərdi elmi identifikasiya nömrəsi verilir.

2020-ci ildə Sumqayıt Dövlət Univerditetində keçirilən elmi konfransların "Konfrans materialları toplusu" (Conference proceedings) yaradılmış və eyni adlı sayt təsis olunmuşdur. ISSN Beynəlxalq Mərkəzi tərəfindən SDU-nun elmi konfranslarının Konfrans materialları (Conference proceedings) toplusuna 18.08.2020-ci il tarixində ISSN 2708-955X (Print) və 23.11.2020-ci il tarixində ISSN 2709-6033 (Online) Beynəlxalq Standart Seriya Nömrələri verilmişdir. Bundan başqa SDU-da hər il keçirilən Respublika və Beynəlxalq elmi konfransların materialları mütəmadi olaraq toplunun rəsmi saytında və Rusiyanın RİNÜ e-library məlumat bazasında yerləşdirilir.



"Elmi xəbərlər"in daima beynəlxalq standartlara cavab verməsi üçün SDU rəhbərliyi bir çox əmr və sərəncamlar imzalayıb. Məsələn, SDU-nun rektoru prof. E.B.Hüseynovun 16.03.2021-ci il tarixli R-13/1 saylı əmrinə əsasən cari ilin aprel ayının 13-də etibarən 2 ay müddətində SDU-nun əməkdaşları üçün PİNÜ e-ibrary.ru elektron məlumat bazasından istifadə qaydaları üzrə təlimlər keçirilmişdir. Həm bu təlimlərdə fərqlənən əməkdaşlar, həm də yüksək səviyyəli elmi məqalə müəllifləri SDU-rəhbərliyi tərəfindən mükafatlandırıldı.

Ümumilikdə universitet haqqında hər gün www.sdu.edu.az. saytında azərbaycan, rus, ingilis dillərində xəbərlər yerləşdirilir. Bu informasiyalar, məlumatlar, mühüm xəbərlər SDU-nun fəaliyyətini geniş şəkildə operativ olaraq ictimaiyyətə catdırır. Burada SDU-nun mətbuat və ictimaiyyətlə əlaqələr xidməti şöbəsinin rəhbərliyinin və əməkdaşlarının əməyi danılmazdır. Bu gün çəkinmədən demək olar ki, SDU dünyanın əksər tanınmış, aparıcı elm ocaqları ilə mütamadi olaraq əməkdaşlıq edir, elm və təcrübə mübadiləsi aparır. Universitetdə müntəzəm olaraq beynəlxalq və respublika səviyyəli elmi konfranslar keçirilir. Belə elmi beynəlxalq konfranslardan biri də 2021-ci ilin son ayında SDU ilə Türkiyənin Yıldız Texniki Universetinin birgə təşkilatçılığı ilə onlayın formatda keçirilib. "İnformasiya cəmiyyətində iqtisadiyyatın davamlı inkişaf problemləri" adlı konfransa Türkiyə, Qazaxıstan, Çin, Özbəkstan və digər ölkələrin bir qrup iqtisadçı-alimləri də qoşulmuşdur. Konfransı giriş sözü ilə açan SDU-nun rektoru prof. E.Hüseynov elm və təhsil sahəsindəki naliyyətlərdən bəhs etdikdən sonra, 44 günlük Vətən müharibəsi dövründə qardaş ölkənin hər tərəfli xüsusən də siyasi, mənəvi dəstəyini yüksək qiymətləndirərək böyük türk xalqına təşəkkür etmişdir.

Yeri gəlmişgən qeyd edim ki, SDU bu gün yalnız ölkəmizin aparıcı ali təhsil ocağı deyil, o həm də Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan bir məbəddir. Xalqımızın, dövlətimizin taleyüklü məsələlərində, milli-mənəvi dəyərlərimizin yaşanmasında, qorunmasında, gənc nəslin öz soyuna-kökünə, Vətəninə, torpağına bağlı böyüməsində SDU rəhbərliyi son illər üzərinə düşən şərəfli vəzifəni layiqincə yerinə yetirilməsində əsl vətəndaş mövqeyini nümayiş etdirir. Xüsusən də 44 günlük Zəfər qələbəmizdən sonra SDU-da bu mövzuda müntəzəm olaraq tədbirlər, konfranslar, görüşlər, ekskursiyalar keçirilir. SDU rəhbərliyi müəllim və tələbə heyəti ilə bir-neçə dəfə Bakıda yerləşən Hərbi Qənimətlər Parkına ekskursiya edib, şəhid ailələri ilə görüşüb və s.

Əlbəttə SDU-da görülən bütün bu işlər, həyata kecirilən layihələr ilk növbədə universitetdə elmi yeniliklərin artırılmasına, Azərbaycan elminin beynəlxalq elm məkanına inteqrasiyasının sürətlənməsinə, yüksək ixtisaslı kadrların hazırlanmasına yönəldiyi üçün öz bəhrəsini də verməyə başladı. "2016-cı ildə ilk dəfə olaraq bir neçə ixtisasdan elmlər doktoru proqramı üzrə doktorantura və dissertanturaya universitetin 7 nəfər əməkdaşı qəbul olundu". Bu sahədə daha böyük uğurlara imza atmaq üçün SDU rəhbərliyi bir ilkə də imza atdı. Belə ki, 2018-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə ilk dəfə SDU-nun nəzdində 3337.01 - "İnformasiya- ölçmə və idarəetmə sistemləri (sahələr üzrə)və 3303.01 -"Kimya texnologiyası və mühəndisliyi" ixtisasları üzrə fəlsəfə doktoru dissertasiyalarının müdafiəsinin təşkili üçün FD.02.193-Dissertasiya Şurası yaradılmış və uğurlu fəaliyyət göstərmişdi. Bu gün bu uğurların davamı olaraq, Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 27.12.2019-cu il tarixli qərarı ilə SDU nəzdində 6 ixtisas üzrə fəlsəfə doktoru dissertasiyasının müdafiəsinin təşkili üçün Dissertasiya Şurası yaradılıb. FD-2.23 Dissertasiya şurası (2306.01- "Uzvi kimya", 2314.01- "Neft kimyası" ixtisasları üzrə); FD-2.24 Dissertasiya Şurası (5706.01- "Azərbaycan dili; 5716.01- Azərbaycan ədəbiyyatı ixtisasları üzrə) və FD-2.25 Dissertasiya Şurası (3337.01 - "İnformasiya ölçmə və idarəetmə sistemləri", 3338.01- "Sistemli analiz, idarəetmə və informasiyanın işlənməsi" ixtisasları üzrə). Burada bir faktı da qeyd etmək lazımdır ki, SDU-nun tarixində ilk dəfə 2017-ci ildən başlayaraq elmlər doktoru proqramı üzrə mütəxəssis hazırlığı aparılır. Elmlər Doktoru Proqramı üzrə mütəxəssis hazırlığı Kimya, Texnika və Filologiya elmi sahələri üzrə həyata keçirilir. 2017-ci ildən bugünə kimi Elmlər Doktoru Proqramı üzrə dokturanturaya 31 nəfər qəbul olunub.

Uzun illərin təcrübəsi göstərir ki, hər bir təhsil, elm ocağında yüksək keyfiyyətli və səmərəli təhsil ilk olaraq onun tədris hissəsindən başlanır. Hazırda SDU-da tədrislə bağlı məsələlər özündə 4 bölməni birləşdirən Tədris Metodiki Mərkəz tərəfindən həyata keçirilir.

Keyfiyyətli tədrisin əldə edilməsində yaradılmış şərait də mühüm rol oynayır. Bu baxımdan SDU rəhbərliyi ilk illərdən bu sahəyə xüsusi diqqət ayırırdı. Hazırda universitet tələbələri yüksək təmirli, işıqlı, geniş auditoriyalarda, müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyalarda elmin, texnikanın sirlərinə yiyələnirlər. Universitet şəhərciyinin və tədris korpuslarının abadlaşdırılması, tədris otaqlarının son texniki vasitələrlə təchiz edilməsi bu sahədə böyük işlərin görülməsindən xəbər verir.

Uzun müddət qaçqın və köçkünlərin istifadəsinə verilmiş universitetə məxsus Tələbə Evlərindən biri müasir tələblərə cavab verə biləcək yüksək səviyyədə təmir olunaraq tələbələrin istifadəsi üçün hazır vəziyyərə gətirilmişdir.

**Bütün bunlar bir daha sübut edir ki, SDU bu gün ölkəmizdə elmin, təhsilin, inkişafında, gənc nəslin vətənpərvər ruhda böyüməsində üzərinə düşən vəzifəni layiqincə yerinə yetirir. Biz də bu şərəfli işdə əbədi şölə saçan elm məbədinə daha böyük uğurlar, naliyyətlər arzu edirik.**

**Qərənfil Dünyamin qızı**
**Əməkdar jurnalist**

## "Bakcell" Qarabağda 101-ci baza stansiyasını istifadəyə verdi!

**"Bakcell" şirkəti Qarabağda özünün 101-ci baza stansiyasını uğurla istifadəyə verib.**

Adalet.az xəbər verir ki, bununla da şirkət ilin əvvəlində qarşıya qoyulan plana uyğun olaraq 2022-ci ildə işğaldan azad olunmuş ərazilərdə şəbəkəsinin genişləndirilməsinə 23 milyon manat həcmində investisiya yatırıb. Burada quraşdırılmış 4G baza stansiyaları sayəsində abunəçilər ən müasir səs texnologiyası olan VoLTE üzərindən daha sürətli, aydın və kəsintisiz zəng edə bilirlər. 2022-ci ildə Bakcell şəbəkəsi növbəti dəfə Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınıb. Şirkət işğaldan azad edilmiş ərazilərimizin bərpası və zəruri infrastrukturun yaradılması istiqamətində həyata keçirilən genişmiqyaslı tədbirlərdə fəal iştirakını davam etdirəcək.

## Türkiyə "Bizim Evdə Final Var" layihəsini mükafatlandırdı




**Azərbaycanın ən populyar layihələrindən biri olan, bütün ölkəyə səs salan "Final" brendinin məşhur aparıcı Zaur Baxşəliyevlə birlikdə ərsəyə gətirdiyi "Bizim Evdə Final Var" layihəsinin səsi Türkiyəyə qədər gedib çatıb.**

Adalet.az xəbər verir ki, hər kəsin marağını çəkən, fərqli şəhərləri, rayonları və kəndləri gəzərək Final yağı olan ailələrə hədiyyələr təqdim etdiyimiz bu layihə Qubada başladı, ölkəmizin mədəniyyət paytaxtı olan Şuşada yekunlaşıb, son olaraq da Türkiyədə böyük marağa səbəb olaraq mükafatlandırılıb. İstehlakçıların maraqla izlədiyi bu layihə ölkəmizə Türkiyədə marketinq və reklam sektorundakı ən populyar mükafat olan "Felis" mükafatını qazandırıb. "Final" yağı markası layihəni yaxından izləyən, evinə bu yağ məhsulunu alıb marka əməkdaşlarının yolunu gözləyən və qonaqpərvərliklə qarşılayan hər kəsə öz minnətdarlığını bildirir, göstərdikləri inama görə sonsuz təşəkkürünü bildirir!

## Məşhur aktyor Cim Kerrinin Rusiyaya girişi qadağan olundu



**Rusiya Xarici İşlər Nazirliyi kinoaktyor Cim Kerri də daxil olmaqla 100 Kanada vətəndaşına sanksiya tətbiq etmək qərarına gəlib.**

Rusiya Xarici İşlər Nazirliyindən verilən yazılı açıqlamada Kanadanın Rusiyanın administrasiyası, biznes, ətraf mühit və mədəniyyət nümayəndələri, siyasətçiləri, deputatları və ekspertlərinə qarşı sanksiyalarını davam etdirdiyi bildirilib. Buna cavab olaraq 100 kanadalının sanksiya siyahısına salındığı və onların Rusiyaya girişinə qadağa qoyulduğu qeyd edilən açıqlamada sözügedən adların siyahısı açıqlanıb. Siyahıya Kanadanın yüksək vəzifəli şəxsləri ilə yanaşı, iş adamları, fəallar, mətbuat və maliyyə qurumlarının nümayəndələri də daxil edilib. Sanksiya siyahısında məşhur kinoaktyor Cim Kerri də var. Rusiya Xarici İşlər Nazirliyi noyabrın 11-də 200 ABŞ vətəndaşının da sanksiya siyahısına salındığını və ölkəyə girişinin qadağan edildiyini bildirib.

## Zalımın balası 21 prezident görüb...



**Amerikada yaşayan 115 yaşlı Bessi Hendriks. 90 yaşa çatmış üç oğlu var.**

1907-ci ildə anadan olan Hendriks iki Dünya Müharibəsi və 21 ABŞ prezidenti görüb. O, həm də dünyanın 4-cü ən yaşlı insanıdır. Hazırda dünyanın ən yaşlı insanı 1904-cü ildə doğulan rahibə Lucile Randondur. Onun da 118 yaşı var və Fransada yaşayır.

## FİFA prezidentindən Ukraynaya bir aylıq atəşkəs çağırışı edib

**İndoneziyanın Bali adasında davam edən G20 Liderlərinin Sammitində FİFA prezidenti Canni İnfantino Qətərdə keçiriləcək dünya çempionatı zamanı Ukraynada bir aylıq atəşkəs elan edilməsinə çağırıb.**

FİFA prezidenti futbolun bütün dünyada böyük sosial təsirə malik olduğunu bildirib.

Futbolun dünyanı birləşdirdiyini vurğulayan FİFA prezidenti, "Hamınızdan xahiş edirəm ki, dünya çempionatı zamanı 1 ay müddətində müvəqqəti atəşkəs barədə düşünəsiniz. Siz dünya liderlərisiniz, tarixin gedişatına təsir etmək qabiliyyətiniz var. Futbol və dünya kubokları sizə və dünyaya unikal birlik platforması təklif edir. Beləliklə, münaqişələrə son qoymağa başlayın. Gəlin bu fürsətdən istifadə edək".

Bu gündən etibarən FİFA "Futbol dünyanı birləşdirir" kampaniyasına başlayıb və tanıtım videosunda Crisitano Ronaldo, Messi və Neymar kimi adlar yer alıb.

**Eminquey**

Rzayeva Fizzə Zakir qızının adına Binəqədi qəsəbə bələdiyyəsi tərəfindən ayrılmış 200 kvadratmetr torpaq sahəsinin Qərarı itdiyi üçün etibarsız sayılır.

Aqil Abbas **Ədalət Vəliyevə** əzizi, istiqlalçı deputat
**İxtiyar Şiriovun**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aqil Abbas **Elçin Babayevə** qardaşı professor
**Nazim Babayevin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Aqil Abbas **Zamin Hacıya**
**anasının**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Məzahir Əhmədoğlu **Zamin Hacıya**
**anasının**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Loğman Rəşidzadə və Məzahir Əhmədoğlu Göyçay Rayon İcra Hakimiyyəti başçısının I müavini **İkram Vəliyevə**
**qardaşının**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Asif Quliyev tanınmış ziyalı, ictimai xadim, şair
**Ramiz Məmmədzadənin**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Əbülfət Mədətoğlu **Hacı Zaminə və Sabit Hacıyevə**
**analarının vəfatından**
kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

# Torpaq onu sevənin, göz bəbəyi kimi qoruyanındır

**Torpaq, ucsuz-bucaqsız bir məkandır. Ancaq bu torpağa qeyrətli oğulların, onu özlərindən, həyatlarından da dəfələrlə böyük məhəbbətlə sevən şəhidlərin qanı axanda və torpaq bu qanla yoğrulanda adı Vətən olur. Vətən daha da böyüsün deyə bu torpağın oğulları canlarını fəda edir, ölümün əlini sıxırlar. Şəhid olub müqəddəsləşir, torpağın isti qoynunda əbədi məskən salırlar:**

***Yanıb***
***külə dönsəm***
***Nə dərdim,***
***Vətən torpağını***
***bir ovuc***
***böyük edərdim...***



Qazilər, savaşda torpaq, Vətən yolunda yaralanıb, qan tökənlər də başımızın tacıdırlar. Axı onlar da, dünyanın ən əziz neməti olan yaşamaqdan müharibə zamanı əl çəkməyə, torpaq uğrunda canlarından keçməyə hər an hazır olublar. Onlar da vətəni şəhidlərimiz qədər çox sevirlər.

...Rövşən Məhəmməd oğlu Bayramov 6 iyul 1991-ci ildə Ağcabədi rayonunun Salmanbəyli kəndində dünyaya göz açıb. Əlfi Məmmədov adına kənd tam orta məktəbini bitirdikdən sonra ordu sıralarında xidmət edib. Orduda Rövşən öz qorxmazlığı, bacarığı ilə çoxlarından seçilib. Hərbi xidmətdən qayıtdıqdan sonra Rövşən bir çox sahələrdə çalışıb, fərdi təsərrüfatla məşğul olub.

27 sentyabr 2020-ci il tarixdə Vətən müharibəsi başlananda Rövşən özünə dinclik tapmayıb, müharibəyə getməyə can atıb. Amma nədənsə onun bu istəyi dərhal yerinə yetirilməyib. Düz 9 gün rayon mərkəzindən axşamlar yaşadığı doğma kəndə qayıtmayıb. Gecələri hərbi komissarlığın yaxınlığında keçirib. Döyüşə, Orduya qoşulmağa razılıq alandan sonra heç kəndə, ailəsinin yanına gedib sağollaşmayıb da. Gənc ailəsini narahat etmək istəməyib.

Rövşən söhbət zamanı bildirdi ki, müharibə başlananda hələ 2 yaşı olan Nübar adlı qızı bir gün belə onu görməyəndə "dünyanı dağıdırdı". Hələ gəl gör, qızı onun savaşa ölümə getdiyini görəydi. Vətən müharibəsində orduda yiyələndiyi hərbi peşə Rövşənin dadına çatıb. Pulemyotçu olan Rövşən manqa komandiri kimi öz igidliyi, cəsarəti ilə əsgər yoldaşlarına nümunə olub. Onun komandiri, polkovnik leytenant İlkin Əsədov söhbətimiz zamanı belə təsvir etdi:

"Rövşən başqalarına nümunə olan əsgər idi. Qorxmaz, igid, vətənpərvər. Ona nəyi isə necə yerinə yetirməyi izah etmək lazım deyildi. O, bacarıqlı olduğuna görə, ağıllı, təmkinli, məntiqli qərar verməyi bacarırdı. Ölümdən qorxmayan Rövşən döyüş zamanı həmişə özünü təhlükəyə atır, ölümün üstünə şığıyırdı. Biz onunla bir yerdə, savaşanda özümüzdə nikbin müsbət enerji hiss edirdik. Onunla birlikdə vuruşmaqdan qürur hissi keçirirdik." Rövşən 44 günlük Vətən müharibəsi başa çatandan sonra dinc həyata qayıtdı. Doğma Salmanbəyli kəndində heç bir həftə də istirahət etmədi. Ağcabədi Rayon Kommunal Xidməti və Mənzil İstismarı İdarəsinə krançı kimi işə düzəldi. O, burada da işə yanaşmaq tərzi, məsuliyyəti ilə seçilir. Təmkinli, bacarıqlı bir işçi kimi onun haqqında çalışdığı idarənin baş mühasibi Cəbrayıl Cəbrayılov bir sözlə söylədi:

"Rövşən olduqca təvazökar və işgüzar bir oğlandır. Az bir müddət ərzində o, kollektiv üzvlərinin dərin hörmətini qazanıb. Onun üçün yox, bacarmıram sözləri mövcud deyil. Öz işini bir qayda olaraq vicdanla, canla-başla yerinə yetirir. İmkan düşən kimi digər iş yoldaşlarının köməyinə yetir, onları darda qoymur. Buna görə də biz, onun iş yoldaşları Rövşənlə çiyin-çiyinə çalışdığımıza görə fəxr edir, onunla bir çox sahədə məsləhətləşirik. Sağ olsun, həmişə köməyimizə çatır, yarayır. O, əsl işgüzar, hər cür tərifə layiq insandır." İstər savaş zamanı, istərsə də dinc həyat olsun vicdanının səsinə qulaq asıb, doğru yolla addımlayırsansa, ətrafındakılara hörmətlə yanaşırsansa həmişə hörmət sahibi olacaqsan. Dünən Vətən müharibəsi iştirakçısı, bu gün isə sadə peşə sahibi - sürücü olan Rövşən Bayramov da məhz belə insanlardandır.

**Elimizin vətənpərvər və qeyrətli oğlu Rövşən Bayramova gələcək həyatında uğurlar arzulayırıq.**

**Adil MİSİRLİ**

# Maraş dondurması Türkiyənin bənzərsiz ləzzətləri arasında

**Heç kimə sirr deyil ki, dondurma xüsusilə yayda yeyilən dadlı desertdir.**

Özünün bənzərsiz dadı, çoxəsrlik tarixi və ətri ilə bu desert türk desert mədəniyyətinin şah əsəridir. Hansı cəmiyyətdən olursa olsun, onların mütləq öz unikal dondurma reseptləri var.

Yay aylarının vazkeçilməz deserti olan dondurmanın Türkiyədə tarixi əhəmiyyəti var. O qədər ki, Maraş dondurması Türkiyənin bənzərsiz ləzzətləri arasında dünya miqyasında populyarlıq qazanır. Maraş dondurma reseptinə keçməzdən əvvəl Maraş dondurmasının mənşəyini, markasını, turistik məqsədli istifadəsini, bir sözlə, dondurmanın necə dünya brendinə çevrildiyini və təbii ki, Maraş dondurmasının necə yarandığını izah edəcəyik. Aşağıda gözəl Maraş dondurmasının resepti də açıqlanır. Bu yazını evdə hazırlaması çox asan olan Maraş dondurma resepti ilə bitirib hədəfimizə çatacağıq.

### *Türk dondurmasının hazırlanma üsulu*

Avropa.info bildirir ki, dadlı dondurma növlərinin çox olduğu türk mətbəxində dondurmaçı peşəsinin xüsusi yeri var. Türklərin əcdadları Ana Vətəndə (Orta Asiyada) olarkən dondurulmuş yeməklərin desert üçün yeyilməsinə dair sübutlar da var. Bölgənin coğrafi şəraitindən asılı olaraq, yay aylarında dondurulmuş meyvə və meyvə şirələri müxtəlif üsullarla istehlak edilib. Zamanla Anadoluda 13-cü əsr Səlcuqlular dövründə dondurulmuş şirniyyatların saxlamaq üçün xüsusi hazırlanmış qar qablarında hazırlandığı müşahidə edilib.

Hətta Osmanlı dövründə də davam edən dondurulmuş desertlərin hazırlanması ənənəsi daha geniş forma almağa başlayıb. Saray tərəfindən təyin olunan "karcıbaşı" və "buzcubaşı" kimi işçilər tacirlərə şirniyyat hazırlamaq üçün lazımi miqdarda qazanc təmin edib bölüşdürürdülər. 17-ci əsrdən etibarən bildiyimiz kimi, dondurma hazırlamaq üçün əsl yol başladı. Maraş dondurması da bu dövrdə məşhur yay desertinə və ticarət məhsuluna çevrildi.

### *Kahramanmaraş dondurması necə yaranıb?*

1920-ci ildə Hələbdən gəlib Kahramanmaraşda məskunlaşan Hacı Mehmet adlı şəxsin bölgədə salepli dondurma hazırlamağa başlaması ilə ortaya çıxdı. Çox keçmədi ki, "Kel Ali" ləqəbli şəxs salep və keçi südünü dəmir qaşıqla qarışdıraraq, daha yığcam və qalın hala gətirərək məşhur Maraş dondurmasını yaratdı.

Maraş dondurmasının xüsusi "inkişafı" onun meydana çıxdığı dövrə təsadüf edir. 1980-ci illərin ortalarına qədər evlərdə və kiçik müəssisələrdə istehsal edilən Maraş dondurması, texnoloji cihazların emalatxanalara daxil edilməsi ilə daha böyük bir sektora çevrildi. Eyni dövrdə soyuducu qurğular və dondurma saxlama sistemləri inkişaf etdirildikdən sonra Maraş dondurması Türkiyənin digər şəhərlərinə də yayıldı.



Bu gün xarici ölkələr də daxil olmaqla bir çox yerdə Maraş dondurması satılan mağazalar açılıb. Yuxarıda göstərilən bütün proseslərdən sonra Maraş dondurması milli və beynəlxalq səviyyədə tanınan ləzzətlərdən birinə çevrildi.

### *Maraş dondurması və turizm*

Maraş dondurması dadı ilə yanaşı, möhtəşəm təqdimatı ilə də yaddaşlarımıza həkk olunmuş bir ləzzətdir.

Mövsümi istehlakı yüksək olduğu üçün yay aylarında satışı artan məhsuldur. Lakin onun yay aylarında satışlarının rəqabətli şəkildə artmasının səbəbi təkcə dadı deyil, həm də əvvəldə qeyd etdiyimiz kimi satış zamanı müştərilərə qeyri-adi təqdimatıdır.

Dondurma hazırlamaq keçmişdən bu günə qədər gələn bir sənətdir.

Bu gün bu sənətkarlığın istehsal və təqdimat mərhələləri ayrı bir sənaye olaraq davam edir.

Hamımızın tanıdığı bir anlayış halına gələn Maraşlı dondurma dükanı məhsulun az qala ayrılmaz hissəsi və dondurma ləzzətinin sirri olaraq görülür. Maraş dondurmasının təqdimatında və istehsalında iştirak edən dondurmaçıların milli geyimləri və akrobatik hərəkətləri onların turizmdə mühüm rol oynamasını təmin edir. İstirahət mərkəzlərində başlayan "Maraş Dondurma dükanı" ənənəsi indi xaricdə də müxtəlif tədbirlərdə həyata keçirilir.

### *Maraş dondurması resepti*

Evdə dondurma hazırlamaq uzun müddətdir ki, türk mətbəxlərində davam edir. Maraş dondurması çətin bir dondurma olsa da, asan bir resepti sizinlə paylaşmağa qərar verdik.

Kahramanmaraşda 32 növ Maraş dondurması resepti var. Hər reseptdə istifadə olunan inqrediyentlərin növləri və proseslər fərqlidir. Ticarət Maraş dondurmasında istifadə edilən texnoloji cihazlarla çox müxtəlif dondurmalar hazırlana bilər. Bu səbəbdən evdə və ya bazarda rahatlıqla tapa biləcəyiniz Maraş dondurması reseptində sizə lazım olan xammalın siyahısını hazırladıq:

- 5 stəkan süd
- 1 stəkan dənəvər şəkər
-1 çay qaşığı saf salep (qablaşdırılmış salepdən istifadə etməməyə çalışın).

Maraş dondurmasının hazırlanması aşağıdakı kimidir:

Hazırladığınız 5 stəkan südü götürüb qaynamağa başlayın.

Qaynayan südə hazırladığınız şəkəri əlavə edib qaynamağa davam edin.

Həmçinin salebi su ilə əridin (kiçik qabda ayrıca əridə bilərsiniz).

Ərinmiş salebi yavaş-yavaş qaynayan şəkərli südün içinə tökün və eyni zamanda südü qarışdırın.

Salepin süddə tamamilə həll olması vacibdir. Bu səbəbdən südlə qarışdırılmış salep tamamilə həll olunana qədər qarışdırmağa davam edin. Qaz sobasından qaynayan südü çıxarın və qarışdıraraq soyudun.

Süd kifayət qədər temperatura çatdıqda, soyuducuya qoya biləcəyiniz bir qaba tökün və soyuducuya qoyun.

15 və ya 20 dəqiqədən sonra donmağa başlayan qarışığı dəmir qaşıqla qarışdırın. Dondurma saqqız konsistensiyasına sahib olana qədər bu prosesi hər 20 dəqiqədən bir təkrarlayın.

**Dondurma bərkidikdən sonra dondurucudan çıxarıb, süfrəyə verə bilərsiniz.**


**Təsisçi və baş məsləhətçi:**
**Aqil ABBAS**

**Baş redaktor:**
**İradə TUNCAY**

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

**KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.**
kod: 200112 h\h VÖEN 9900003611
Müxbir hesabı: AZ37NABZ01350100000000001944
S.W.I.F.T. Bik: AIIBAZ 2x hesab N:
AZ42AIIB38070019441100451111 VÖEN: 1300456161
**İndeks:0107 Qeydiyyat nömrəsi 100**

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
**Telefon: 538-05-50, 538-51-31. 434-55-98**
**Faks: 539-80-26**
**adaletqezeti@rambler.ru**
**adaletqezeti@mail.ru, adaletqezeti@box.az**

**Tiraj: 1500**
**Sifariş: 105**
Çapa imzalanmışdır:
18.11.2022